RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 254 (9999) 2 dekabr 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan Avrasiyanın əsas tranzit arteriyasına çevrilir



## İlham Əliyevin qlobal layihələri regionda nadir nəqliyyat sinxronlaşması yaradır

İlham Əliyev praqmatik və çevik siyasəti, sistemli və ardıcıl yanaşması, inqilabi səciyyə daşıyan islahatları ilə Azərbaycanı iqtisadi baxımdan qüdrətli dövlətə çevirib, zamanın hər bir çağırışına anında cavab verib. Bu illər ərzində regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqları nəzərə alınmaqla həyata keçirilib.

Ulu Öndər Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" kəlamı üzərində qurulan siyasət nəticəsində ötən 30 il ərzində ölkəmizdə misilsiz uğurlara imza atılıb. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə əsası qoyulan yeni neft strategiyası sonrakı illərdə də davam etdirilib. Azərbaycanın qazandığı nailiyyətlərin təməlində məhz bu strategiya dayanır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi böyük layihələr reallaşdırılıb. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik "Cənub qaz dəhlizi"nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsi ilə bağlı işlər yekunlaşmaq üzrədir. Həmçinin "Əsrin müqaviləsi" 2050-ci ilə qədər uzadılıb. Eyni zamanda dövlətimizin başçısının təşəbbüsü ilə "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları çəkilib.

Prezident İlham Əliyev bu və digər təşəbbüsləri ilə regionda mühüm əməkdaşlıq platforması yaradıb ki, bu da beynəlxalq ekspertlər tərəfindən bölgənin inkişafında və təhlükəsizliyində mühüm amil kimi qiymətləndirilir.

3

## Prezident İlham Əliyev Laçının işğaldan azad olunmasının ildönümü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçının işğaldan azad olunmasının 5-ci ildönümü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda "Zəfər Tariximiz: 1 Dekabr 2020-ci il Laçın" sözləri yer alıb.




## Azərbaycan Rumıniya ilə dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına böyük əhəmiyyət verir

### Rumıniyanın Prezidenti zati-aliləri cənab Nikuşor Dana



Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Biz dost və tərəfdaş olan Rumıniya ilə dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk. Bu gün xoş ənənələr və sağlam təməllər üzərində qurulan Azərbaycan-Rumıniya ikitərəfli əməkdaşlıq gündəliyinin genişlənməsi, səmərəli birgə fəaliyyətimizin ticari-iqtisadi, energetika, xüsusilə "yaşıl enerji", mədəni-humanitar və digər sahələrdə yeni məzmunla zənginləşməsi, strateji tərəfdaşlığımızın möhkəmlənməsi məmnunluq doğurur.

Əminəm ki, ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri, həm ikitərəfli, həm də çoxtərəfli əsasda səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək, strateji tərəfdaşlığımız daha da dərinləşəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Rumıniya xalqına daim firavanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2025-ci il*



## Güclü və dayanıqlı sülhə doğru

### Azərbaycanın təşəbbüsü ilə başlanan proses öz hədəfinə uğurla çatacaq

Prezident İlham Əliyevin bu ilin avqust ayında Vaşinqtona işgüzar səfəri isə Azərbaycanla Ermənistan arasındakı sülh gündəliyinin hüquqi müstəvidə daha da möhkəmləndirilməsi, sülh sazişinin imzalanması istiqamətində əsas maneələrin aradan qaldırılması baxımından mühüm razılaşmaların əldə edilməsi ilə əlamətdar oldu. Belə ki, bu səfər zamanı Azərbaycan və Ermənistanın xarici işlər nazirləri tərəfindən sülh sazişi layihəsi paraflandı. Həmçinin ATƏT-in Minsk prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət imzalandı. İrəvan uzun müddət Minsk qrupunun hüquqi ləğvinə qarşı dirəniş göstərsə də, Azərbaycanın prinsipial mövqeyi qarşısında geri çəkilməli oldu və ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciəti imzaladı.

Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin Vaşinqton görüşünün nəticələrinə dair imzalanmış Birgə Bəyannamədə də Minsk qrupunun bağlanmasına dair məsələ öz əksini tapdı.

4

## Zəfərin Laçın səhifəsi

Zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri ilə məşhur olan Laçın rayonu ölkəmizin cənub-qərbində, Kiçik Qafqazda yerləşir. Ümumi sahəsi 1835 kvadratkilometr olan Laçın rayonu 72 min hektar yaylaq sahəsinə və 34 min hektar zəngin meşə massivinə malikdir. Bol su ehtiyatları olan rayonun ərazisindən axan Şəlvə və Minkənd çayları birləşərək uzunluğu 113 kilometr olan Həkəri çayını yaradır.

Azərbaycanın tarixi ərazilərindən biri olan Laçın bölgəsi antik dövrlərdə və erkən Orta əsrlərdə Albaniya və Atropatena dövlətlərinin tərkib hissəsi olmaqla, ölkəmizin ən qədim insan məskənlərindəndir.

Ümumilikdə, Laçın rayonunda 54 dünya və 200-dən çox yerli əhəmiyyətli qədim tarixi abidə mövcud olmuşdur.




Ərazi çar Rusiyası dövründən başlayaraq, 1930-cu ildə müstəqil inzibati rayon kimi təşkil olunana qədər Qarabağ xanlığı və Zəngəzur qəzasına daxil olmuşdur.

1924-cü ildən isə şəhər statusu alan Laçın, 1930-cu ildən rayon mərkəzidir. Şəhərin adı görkəmli Azərbaycan yazıçısı Tağı Şahbazi Simurq tərəfindən yaxınlıqdakı dağın adına uyğun olaraq Laçın adlandırılmışdır. Laçın sözü "məğrurluq" mənasını bildirir.

Laçın rayonu 18 may 1992-ci ildə erməni işğalına məruz qalmışdır. İşğala qədər rayonda bir şəhər, bir qəsəbə, 125 kənd mövcud olmuşdur. Ümumilikdə, işğal nəticəsində Laçın rayonuna 7,1 milyard ABŞ dollarından çox ziyan dəymiş, 58 min nəfərdən çox laçınlı öz doğma torpağından didərgin düşərək məcburi köçkün kimi respublikanın 58 şəhər və rayonunda məskunlaşmışdır.

Birinci və İkinci Qarabağ müharibələrində bütün istiqamətlərdə döyüşən Laçının vətənpərvər övladlarından 285 nəfəri şəhid olmuş, 66 nəfəri girov götürülmüş, 120 nəfər əlil olmuş, yüzlərlə uşaq yetim qalmışdır.

5

## Zərdab rayonunun Zərdab-Məlikumudlu-Çallı-Salahlı-Hüseynxanlı-Xanməmmədli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Səkkiz min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Zərdab-Məlikumudlu-Çallı-Salahlı-Hüseynxanlı-Xanməmmədli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,0 (iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 1 dekabr 2025-ci il*

## "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Ruanda Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il sentyabrın 20-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Ruanda Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Ruanda Respublikası Hökumətinə bildiriş göndərsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 1 dekabr 2025-ci il*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 234 nömrəli Qərarı ilə təsdiq edilmiş "Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 353** **Bakı şəhəri, 1 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 234 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 960 (Cild I); 2024, №7, maddə 898) ilə təsdiq edilmiş "Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı"nın on dördüncü sətrinə "gözün buynuz qişası" sözlərindən sonra ", sümük iliyi" sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı ilə təsdiq edilmiş "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 354** **Bakı şəhəri, 1 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 961 (Cild I); 2024, №7, maddə 899) ilə təsdiq edilmiş "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı"nın on dördüncü sətrinə "gözün buynuz qişası" sözlərindən sonra ", sümük iliyi" sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 aprel tarixli 55 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 355** **Bakı şəhəri, 1 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"nin 12-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 aprel tarixli 55 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 350 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Rəqəmsal Maliyyə Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti.".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## "Azərbaycan Respublikasının bəzi səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi ilə bağlı əlavə tədbirlər və "Azərbaycan Respublikasının bəzi xarici ölkələrdəki səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 mart tarixli 2093 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 aprel tarixli 575 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 357** **Bakı şəhəri, 1 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının bəzi səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi ilə bağlı əlavə tədbirlər və "Azərbaycan Respublikasının bəzi xarici ölkələrdəki səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 mart tarixli 2093 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 aprel tarixli 575 nömrəli Sərəncamının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli və 7 noyabr tarixli 333 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin proqram təsnifatı"nın 5.2.6-cı yarımbəndindən "xarici ölkələrdəki" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 23 aprel tarixli 127 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 415) ilə təsdiq edilmiş "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndəlinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi Qaydaları"nın 1.7-ci bəndinin ikinci cümləsindən "xarici dövlətlərdəki" sözləri çıxarılsın.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Milli Məclisin Sədri Sahibə Qafarova Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin Sədrinə başsağlığı məktubu ünvanlayıb



Milli Məclisin Sədri Sahibə Qafarova Çin Xalq Respublikası Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin Sədri Cao Lıciyə ünvanladığı məktubda Honkonqda yerləşən yaşayış kompleksində baş vermiş güclü yanğın nəticəsində çox sayda insanın həlak olmasından və yaralanmasından kədərləndiyini bildirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədrinə, həlak olanların ailələrinə, yaxınlarına, bütün Çin xalqına öz adından və Azərbaycan Respublikası Milli Məclisinin deputatları adından dərin hüznlə başsağlığı verib, xəsarət alanların tezliklə sağalmalarını arzulayıb.

*"Azərbaycan"*

# Nazir Vilayət Eyvazov Gəncə şəhərində növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 30-da və dekabrın 1-də Gəncə Şəhər Baş Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.**





Nazir, əvvəlcə, Gəncə şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib. Sonra Baş Polis İdarəsinin inzibati binasında Gəncə, Goranboy, Daşkəsən, Naftalan, Göygöl, Samux, Kəlbəcər və Xocalıdan, eləcə də digər bölgələrdən qəbula gələn 384 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir qəbula gələnlərin müraciətlərinin həlli istiqamətində zəruri addımların atılması və vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Gəncə şəhərində yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlanıb. Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonda general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib. Vətən müharibəsinin 42 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 362 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*Ülkər XASPOLADOVA ,*
*"Azərbaycan"*

## "Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 23 may tarixli 606 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 356** **Bakı şəhəri, 1 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 23 may tarixli 606 nömrəli Sərəncamının 3.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 437, 449, 467, № 9, maddə 1100; 2025, № 9, maddə 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"na "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi" sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti" sözləri əlavə edilsin.

2. "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı"nın, "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı"nın və "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189 (Cild I); 2024, № 1, maddə 112, № 3, maddə 319, № 4, maddə 443; 2025, № 2, maddələr 187, 201) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı" üzrə:

2.1.1. aşağıdakı məzmunda 10-1-ci hissə əlavə edilsin:

"10-1. Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin rəisi, habelə ailə üzvləri;";

2.1.2. 13-cü hissədə "xidmətinin rəisi və onun müavinləri" sözləri "Xidməti rəisinin müavinləri, Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin şöbə müdirləri" sözləri ilə əvəz edilsin;

2.1.3. 46-cı hissəyə "müdirini," sözündən sonra "Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin rəisini," sözləri əlavə edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı"nın 1-ci hissəsinə "müdirinin," sözündən sonra "Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti rəisinin," sözləri əlavə edilsin;

2.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nın 3.4-cü bəndinə "rəhbərinin," sözündən sonra "Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti rəisinin," sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 may tarixli 242 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 580; 2025, № 8, maddə 802) ilə təsdiq edilmiş "Elektrik gücü çatmadıqda, sistemin dayanıqlılığını təmin etmək üçün elektrik enerjisinin təminatına məhdudiyyətlər tətbiq edilməyən istehlakçıların siyahısı"na aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin inzibati binası;".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*



# Azərbaycan Avrasiyanın əsas tranzit arteriyasına çevrilir

## İlham Əliyevin qlobal layihələri regionda nadir nəqliyyat sinxronlaşması yaradır

**"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin qərb istiqamətində institusional mexanizmlərin gücləndirilməsi regionda yeni nəqliyyat və siyasi çərçivənin yaranmasına səbəb olur. Regional tranzit zəncirlərinin yenidən qurulduğu bir vaxtda Azərbaycan, İran və Rusiya arasında imzalanmış üçtərəfli memorandum bu prosesdə mühüm mərhələ kimi dəyərləndirilir".**

Bu fikirləri AZƏRTACA-a açıqlamasında ABŞ-də fəaliyyət göstərən enerji strateqi, Corc Mason Universitetinin tədqiqatçısı Umud Şokri bildirib. Ekspertin sözlərinə görə, sənəddə tarif yanaşmalarının harmoniyası, vahid qiymət modelinin tətbiqi və blok-qatarların koordinasiyalı buraxılması "Şimal-Cənub" xəttində uzun müddət mövcud olan əməliyyat uyğunsuzluqlarını aradan qaldırmağa yönəlib. Logistika prosedurlarının rəqəmsallaşdırılması isə dəhlizin etibarlılıq göstəricilərini yüksəldir və institusional sabitliyi gücləndirir.

Umud Şokri vurğulayıb ki, sanksiyalar səbəbindən xarici kapitala çıxış imkanları məhdudlaşan İran üçün bu memorandum xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, Tehran ilk dəfə olaraq beynəlxalq standartlara yaxın koordinasiya mexanizminə qoşulur və Rəşt-Astara dəmir yolu ilə Xəzər limanlarında modernizasiya proseslərini daha sistemli şəkildə aparmaq imkanı əldə edir. Rusiya üçün sənəd Qərb sanksiyalarının yaratdığı yeni logistika reallığında alternativ ticarət arteriyasının möhkəmləndirilməsinə şərait yaradır: "Bu, Moskvanın ticarət axınlarını Cənub və Cənub-Şərqi Asiya istiqamətində diversifikasiya etməsi baxımından mühüm amil kimi qiymətləndirilir".

Memorandumla Azərbaycan "Şimal-Cənub" marşrutunun siyasi və logistika koordinasiya mərkəzinə çevrilir. "Bakı həm İranın sanksiyalar altındakı iqtisadiyyatı üçün, həm də Rusiyanın dəyişən ticarət marşrutları arasında əsas bağlayıcı halqa rolunu oynayır. Azərbaycan Avropa bazarlarının tələblərini nəzərə alaraq dəhlizin daha rəqabətqabiliyyətli və proqnozlaşdırıla bilən fəaliyyətini təmin edir", - deyə o bildirib.

Ekspertin fikrincə, gələcəkdə Zəngəzur dəhlizinin (TRIPP) açılması, Astara yük terminalının işə düşməsi və Orta dəhliz üzrə artan dinamika "Şimal-Cənub" xətti üçün yeni rəqabət mühiti formalaşdıracaq. Dəhlizlər artıq ayrıca layihə kimi deyil, Azərbaycan, İran, Türkiyə, Qazaxıstan, Rusiya və körfəz ölkələrinin tranzit baxımından artan geosiyasi maraqları fonunda ümumi regional yarışın elementinə çevrilir. Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutlarını eyni vaxtda idarə etməklə regionda nadir nəqliyyat sinxronlaşması yaradır. Bu isə yük axınlarının geosiyasi gərginliklər, iqlim fəsadları və texniki ləngimələr fonunda çevik şəkildə yönləndirilməsinə imkan verir.

Üçtərəfli memorandum dəhlizin institusional dayaqlarını gücləndirsə də, layihənin tam reallaşması siyasi iradənin, maliyyə resurslarının və koordinasiyalı əməliyyat intizamının davamlı təmin edilməsindən asılı olacaq.

Bütün bunlar bir daha Azərbaycanın regionda əsas nəqliyyat habına çevrildiyini təsdiqləyir. Artıq İlham Əliyevin reallaşdırdığı layihələrlə bağlı xarici ekspertlər olduqca müsbət rəy bildirirlər.

İlham Əliyev praqmatik və çevik siyasəti, sistemli və ardıcıl yanaşması, inqilabi səciyyə daşıyan islahatları ilə Azərbaycanı iqtisadi baxımdan qüdrətli dövlətə çevirib, zamanın hər bir çağırışına anında cavab verib. Bu illər ərzində regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqları nəzərə alınmaqla həyata keçirilib.

Ulu Öndər Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" kəlamı üzərində qurulan siyasət nəticəsində ötən 30 il ərzində ölkəmizdə misilsiz uğurlara imza atılıb. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə əsası qoyulan yeni neft strategiyası sonrakı illərdə də davam etdirilib. Azərbaycanın qazandığı nailiyyətlərin təməlində məhz bu strategiya dayanır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi böyük layihələr reallaşdırılıb. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik "Cənub qaz dəhlizi"nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsi ilə bağlı işlər yekunlaşmaq üzrədir. Həmçinin "Əsrin müqaviləsi" 2050-ci ilə qədər uzadılıb. Eyni zamanda dövlətimizin başçısının təşəbbüsü ilə "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları çəkilib.

Prezident İlham Əliyev bu və digər təşəbbüsləri ilə regionda mühüm əməkdaşlıq platforması yaradıb ki, bu da beynəlxalq ekspertlər tərəfindən bölgənin inkişafında və təhlükəsizliyində mühüm amil kimi qiymətləndirilir.

Bu gün Azərbaycan həm də dünyada sayı məhdud olan kosmik ölkələr sırasındadır. 2013-cü ildə ilk telekommunikasiya peykimiz "Azerspace-1", 2014-cü ildə Yer səthini müşahidə edən "Azersky" peyki, 2018-ci ildə isə daha bir telekommunikasiya peyki - "Azerspace-2" orbitə çıxarılıb. Bütün bunlarla yanaşı, son 20 ildə ölkəmizdə ümumi daxili məhsul 4 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enib, strateji valyuta ehtiyatlarımız 82,5 milyard dolları ötüb. Qeyri-neft sektorunun, kənd təsərrüfatının, metallurgiya sənayesinin, yüngül sənayenin inkişafı istiqamətində atılan mühüm addımlar da öz müsbət nəticəsini verməkdədir.

Əlbəttə ki, nəqliyyat dəhlizləri ölkələr arasında yeni əməkdaşlıq imkanlarının yaradılması deməkdir. Bu baxımdan heç təsadüfi deyil ki, Azərbaycanın Türkiyə, İran, Gürcüstan, Türkmənistan, Qazaxıstan, Rusiya ilə əlaqələrinin mühüm bir istiqamətini nəqliyyat dəhlizləri üzrə əməkdaşlıq təşkil edir. Eyni zamanda nəqliyyat dəhlizləri həm də onun keçdiyi bütün ölkələr arasında əməkdaşlığı stimullaşdırır.

Məsələn, Zəngəzur dəhlizi (TRIPP) təkcə Azərbaycan üçün deyil, bütövlükdə region və qlobal tranzit sistemləri üçün strateji əhəmiyyət daşıyır. Bu layihə həm Şərq ilə Qərbi, həm də Şimal ilə Cənubu birləşdirəcək, bölgədə yeni əməkdaşlıq imkanları yaradacaq. Prezident İlham Əliyevin "İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına müraciətində bu barədə deyilir: "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri üzərində yerləşən Azərbaycan Avrasiyada ən mühüm nəqliyyat-logistika qovşaqlarından birinə çevrilir. Eyni zamanda şübhə etmirəm ki, Orta dəhlizin bir istiqaməti kimi Zəngəzur dəhlizi (TRIPP) yaxın gələcəkdə qitələri birləşdirən mühüm nəqliyyat bağlantısı rolunu oynayacaqdır. İnanıram ki, bütün bu kommunikasiya xətləri AQEM üzvləri arasında da əməkdaşlığın inkişafına töhfə verəcək".

Dünyada həm də orta güc kimi tanınan Azərbaycan hazırda yalnız regionda deyil, qlobal müstəvidə baş verən proseslərdə, dünyanı narahat edən aktual məsələlərin həllində fəal iştirak edən dövlətə çevrilib.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# "Şimal-Cənub" dəhlizinin inkişafı siyasi gərginliklərə baxmayaraq, yeni mərhələyə qədəm qoyub"

**"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin (BND) mərhələli inkişafı bir sıra siyasi gərginliklərə və rəqabətçi layihələrin təzyiqlərinə baxmayaraq davam edir".**

Bu barədə AZƏRTAC-a açıqlamasında rusiyalı politoloq Vitali Arkov məlumat verib.

O qeyd edib ki, Tacikistanın paytaxtında keçirilmiş son ikitərəfli görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putinin diqqəti məhz bu strateji marşrutun əhəmiyyətinə yönəlib.

Politoloqun sözlərinə görə, Azərbaycan, Rusiya və İranın ən iri dəmir yolu operatorları arasında imzalanmış sənəd mövcud normativ-hüquqi və texniki uyğunsuzluqların aradan qaldırılması istiqamətində mühüm mərhələdir.

"Bu addım infrastrukturun qarşılıqlı əlaqələndirilməsini gücləndirəcək, ölkələrimiz arasında dəmir yolu ilə daşınan yüklərin həcmini artıracaq və "Şimal-Cənub" layihəsi üzrə ümumi göstəricilərdə dəmir yolu nəqliyyatının payının yüksəlməsinə imkan verəcək. İranın Rəşt-Astara dəmir yolu xəttinin istifadəyə verilməsi yüklərin avtomobil nəqliyyatına yönləndirilmədən fasiləsiz şəkildə daşınmasını təmin edəcək. Bu isə həm çatdırılma müddətlərini, həm də logistika xərclərini əhəmiyyətli dərəcədə azaldacaq", - deyə V.Arkov vurğulayıb.

O bildirib ki, dəhlizin Azərbaycan ərazisindən keçən qərb istiqaməti BND-nin ən dayanıqlı və perspektivli hissəsi hesab olunur. "Ermənistanın layihəyə mərhələli şəkildə cəlb edilməsi yalnız Azərbaycan və Türkiyə tərəfindən blokadanın aradan qaldırılmasından sonra mümkün olub. Bu isə rəsmi İrəvanın yaxşı qonşuluğu bərpa etmək istiqamətində addımlarına cavab olaraq həyata keçirilib", - deyə politoloq vurğulayıb.



O xatırladıb ki, hazırda İran-Ermənistan-Gürcüstan marşrutu üzrə müəyyən həcmdə daşımalar mövcuddur, lakin əsas yük alıcıları Rusiya ərazisində yerləşir və daşımalar əsasən avtomobil nəqliyyatı ilə, o cümlədən məşhur Gürcüstan hərbi yolundan istifadə edilməklə həyata keçirilir. Bu fonda Rusiya əvvəlcədən "Yuxarı Lars" sərhəd-keçid məntəqəsinin infrastrukturunu modernləşdirib.

"Layihənin yüksək maliyyətlə yanaşı ləngiməsinin əsas səbəblərindən biri Zəngəzur dəhlizinin (TRIPP) statusudur. Zəngəzur dəhlizinin ABŞ-nin nəzarətində olacağını nəzərə alsaq, İranın bu istiqamətdə Ermənistana əlavə dəstək göstərəcəyini gözləmək çətindir. Belə olan halda İran yük axınlarını daha çox Azərbaycan üzərindən və Xəzər dənizi vasitəsilə yönləndirməyə üstünlük verəcək", - deyə Arkov əlavə edib.

O qeyd edib ki, Azərbaycanın əlverişli coğrafi mövqeyi və balanslaşdırılmış xarici siyasəti onun həm "Şimal-Cənub", həm də Trans-Xəzər (Orta dəhliz) marşrutlarında aparıcı rolunu gücləndirir.

"Bakı müdrik balans siyasəti yürüdür və müxtəlif qlobal güclərlə strateji tərəfdaşlığı qorumaqla yanaşı, onların rəqabətində alətə çevrilməyə yol vermir. Bu yanaşma Azərbaycanın beynəlxalq nəqliyyat memarlığındakı mövqelərini ardıcıl olaraq möhkəmləndirir", - deyə rusiyalı politoloq vurğulayıb.

# Xalisa kəndi və bütün Qərbi Azərbaycan 37 ildir azərbaycanlılarsız qalıb

**"Xalisa kəndi, Vedibasar mahalı və bütün Qərbi Azərbaycan 37 ildir ki, bölgənin əsrlər boyu sakinləri olan azərbaycanlılarsız qalıb. 1988-ci il noyabrın 30-da Vedibasar rayonunun Xalisa kəndində baş verən dəhşətli hadisələr Ermənistanın etnik təmizləmə siyasətinin bir epizodudur. Xalisa kəndindən deportasiya olunan insanlar işgəncələrə, qeyri-insani rəftara və insanlıq əleyhinə cinayətlərə məruz qalıblar. Tarix boyu azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə prosesi xüsusilə 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə özünü daha amansız formada göstərib. 1987-1991-ci illərdə bütün azərbaycanlıların öz ata-baba yurdlarından - Ermənistandan zorla çıxarılması birəsrlik düşmənçiliyin daha bir faciəvi mərhələsinin yekunudur. Ermənistandan çıxarılan azərbaycanlı qaçqınların ümumi sayı isə hazırda 3 yüz mindən çoxdur".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib.



O qeyd edib ki, Vedibasar mahalı Araz çayının ətəyində, qədim oğuz türklərinin məskunlaşdığı ərazidir. Vedibasar mahalının Vedi rayonunun aranlı-dağlı 145 kəndindən, həmçinin Ağrı dağının ətəklərində, Araz çayının sahilində yerləşən onlarca kənddən biri də Xalisa kəndidir. Bu kənd aranda yerləşməklə şimaldan Şidli kəndi, şərqdən Avşar kəndi, cənubdan Dəvəli kəndi, Arazdəyən, Naxçıvan MR, qərbdən isə Araz çayı vasitəsilə Türkiyə ilə həmsərhəddir. "Xalisa" sözünün mənası xali torpaq, yəni "dövlət torpağı, dövlət xəzinəsinə aid mülk" deməkdir. Vedi rayonunun ermənilər tərəfindən dəyişdirilmiş adı ilə Ararat şəhərinə Zavod da deyilirdi. Abbasqulu bəy Şadlinski 1930-cu illərdə, burada sement zavodu tikdirdiyi üçün o vaxtdan şəhərin adına zavod deyirdilər. Hətta bu zavodun tikintisi "Axırıncı aşırım" filmində də yer alıb. Zəngəzur dəhlizi o zaman açıq idi və burada Bakı-İrəvan dəmiryolu qatarı işlək olduğu üçün azərbaycanlılar Bakıya bu yolla gedib-gəlirdilər. Yalnız Zəngilandan Zəngəzura keçəndə Ermənistan SSR bu məntəqədə pasportları yoxlayırdı.



1988-1990-CI İLLƏRDƏ VEDİ RAYONUNDA ERMƏNİLƏR TƏRƏFİNDƏN ÖLDÜRÜLƏN AZƏRBAYCANLILARIN SİYAHISI

1. **Nağıyev İqbal Miryaqub oğlu**, 1908-ci il təvəllüd, Şirazlı kəndi, 1988-ci ildə işgəncə ilə öldürülüb.
2. **Əkbərin iki aylıq oğlu**, 1988-ci il təvəllüd, Şirazlı kəndi, 1988-ci ildə işgəncə ilə öldürülüb.
3. **Məmmədov Məhərrəm Səfər oğlu**, 1908-ci il təvəllüd, Böyük Vedi qəsəbəsi, 1988-ci ildə işgəncə ilə öldürülüb.
4. **Orucov Nizami İnqilab oğlu**, 1956-cı il təvəllüd, Böyük Vedi qəsəbəsi, 1988-ci ildə işgəncə ilə öldürülüb.
5. **Cavadov İsmayıl Məhəmmədhüseyn oğlu**, 1930-cu il təvəllüd, Dəvəli şəhəri, 1988-ci ildə işgəncə ilə öldürülüb.
6. **İsmayılova Gülgəz Məhəmməd qızı**, 1908-ci il təvəllüd, Xalisa kəndi, 1988-ci ildə işgəncə ilə öldürülüb.
7. **Əliyev Məmməd Nəsrulla oğlu**, 1893-cü il təvəllüd, Dəvəli şəhəri, 1988-ci ildə işgəncə ilə öldürülüb.
8. **Məmmədov Salman Məmməd oğlu**, 1958-ci il təvəllüd, Kiçik Vedi kəndi, 1988-ci ildə işgəncə ilə öldürülüb.
9. **Süleymanov Şamo Əli oğlu**, 1914-cü il təvəllüd, Yeni həyat kəndi, 1988-ci ildə işgəncə ilə öldürülüb.
10. **Yusifova Seyran Kələ qızı**, 1916-cı il təvəllüd, Yeni həyat kəndi, 1988-ci ildə işgəncə ilə öldürülüb.
11. **Həsənova Gözəl Həsən qızı**, 1920-ci il təvəllüd, Yeni həyat kəndi 1988-ci ildə işgəncə ilə öldürülüb.

"Bəzi mənbələrə görə, 2 mindən çox əhalisi olan Xalisa kəndində üçmərtəbəli məktəb binası, mədəniyyət evi, məişət evi, tibb məntəqəsi, hamam, məscid, poçt, rabitə evi, dörd mağaza, istirahət parkı və beş yüzdən artıq yaşayış evi tikilmişdi. Həmçinin istirahət parkının ərazisində İkinci Dünya müharibəsi zamanı Xalisa kəndindən həlak olmuş qəhrəmanların unudulmaz xatirəsinə abidə də ucaldılmışdı. Əsasən azərbaycanlılardan ibarət olan kənddə Livandan, Türkiyədən, Suriyadan və başqa xarici dövlətlərdən məqsədli şəkildə köçürülmüş erməni ailələri də yaşayırdı. Bu kəndə ilk dəfə 1920-ci illərdə 12 erməni ailəsi köçürülmüşdü. Kənd vaxtilə tamam azərbaycanlılardan ibarət olub. Kənddə Məmmədüşağı, Muxtaruşağı, Yuvalılar, Dəvəlilər, Muradqanlılar, Məhərrəmuşağı, Alıuşağı, Seyidlər, Dağlılar, Fatanusağı, Babauşağı, Yasavullular, Sarxanlılar, Heydəruşağı, Məngüklülər, Kolanlılar, Tağıyevlər, Cəfəruşağı, Feyziyevlər olmaqla, bir neçə tayfa yaşayıb. Deportasiyadan bir müddət öncə isə azərbaycanlılar məqsədli şəkildə işdən çıxarılıb. Onlar qonşuluqda yaşayan ermənilər tərəfindən diskriminasiyaya məruz qalır, illərdir yan-yana yaşadıqları qonşularından artıq "çıxıb gedin" mesajları alırdılar. Bu prosesə "hüquqi əsas" geyindirmək üçün müxtəlif yollara əl atılır, bəhanələr yaradılırdı. Şəhərlərdə, rayon mərkəzlərində, idarə və müəssisələrdə azərbaycanlılar mənəvi və fiziki təhqirlərə məruz qalırdılar. Əlacsız qalan günahsız xalq gah Araz sahilindəki hərbi hissəyə axışıb hərbçilərdən imdad istəyir, gah da şikayət məktublarını ovaxtkı Müdafiə Komitəsinə göndərirdilər. Lakin ozamankı rəhbərlik tərəfindən insanların şikayətlərinə baxan yox idi. Başqa kəndlər kimi Xalisa kəndində də azərbaycanlıların əlindən ovçu tüfəngləri alınmışdı. 1988-ci ilin mart ayında Vedibasarda azərbaycanlılara qarşı ermənilərin silahlı hücumları artsa da, heç kəs doğma yurdunu tərk etmək istəmirdi. Zaman-zaman Naxçıvana üz tutan əhali kənddə sakitçilik olduğunu öyrənən kimi geri qayıdırdı. 1988-ci il noyabrın 23-də bir neçə köç yola düşərək digər kənddə məskunlaşmışdı. Amma bilmirdilər ki, onların taleyində daha kədərli günlər hələ qabaqdadır. Həmin axşam köçə hücum olmuş, insanları vəhşicəsinə döymüşdülər.








Ailə üzvlərimin şahidi olduqlarına görə, 1988-ci il noyabrın 30-da kəndin giriş-çıxışları bağlanıb ki, azərbaycanlılar kənddən maşınlarla qaça bilməsinlər. "Daşnaksütyun" erməni inqilab partiyasının əsgərləri, "Qarabağ komitəsi" və "Yerkrapa" terror təşkilatının nümayəndələrindən ibarət birləşmələr havaya mərmi ata-ata kəndə daxil olublar. Şahidlərin dediklərinə görə, Qarabağ bölgəsindən gələn ermənilər "miatsum" çağırışları edir, millətçi şüarlar səsləndirirdilər. Nənəmin dediklərinə görə, nədənsə, hadisələr başlanandan kəndin giriş-çıxışlarını qoruyan rus əsgərləri də "ərşə" çəkilmişdi. Bu zaman bir qrup kənd əhalisi qərbə doğru Türkiyə sərhədinə toplaşmışdı, lakin Arazın soyuq sularından sərhədi aşmaq üçün yetərli vaxtları olmamışdı. Bələdçilik edən yerli ermənilər isə quldur dəstələrinə azərbaycanlı evlərini göstərirdi. Erməni quldur dəstələri kəndə doluşub əvvəlcədən nişanlanmış evlərə hücum edirdilər, evləri ələk-vələk edir, amansız zorakılıq və hədə-qorxu ilə kəndlilərin qiymətli əşyalarını, zinət əşyalarını və maddi vəsaitlərini talayırdılar. Ələ keçirdiklərini mənimsəyir, əhalini isə kəndin mərkəzinə toplayırdılar", - deyə deputat vurğulayıb.

Deputat bildirib ki, onlar qadınlara qarşı xüsusilə amansız olublar, qadın və qızların qızıl sırğalarını qulaqlarından zorla qoparıb, hətta hamilə qadınlar belə onların vəhşiliklərindən xilas ola bilməyiblər: "Günahsız vətəndaşlar, qocalar, qadınlar və uşaqlar təcavüzkarlar tərəfindən zorla sürüklənərək yük maşınlarına atılıblar. Azərbaycanlı qaçqınlar ağlasığmaz işgəncələrə dözməli olublar. 11 nəfər oradaca işgəncə ilə öldürülüb, döyülənlərdən əksəriyyəti kənddən çıxandan bir müddət sonra həyatını itirib. Azərbaycanlıların Ermənistandan deportasiyası məcburi şəkildə həyata keçirildiyi üçün sakinlərə öz şəxsi əşyalarını götürmək imkanı yaradılmayıb. Erməni terror təşkilatından əmr verilib ki, heç kim bu torpaqlardan bir çöp belə apara bilməz.

Hadisənin birbaşa şahidi olan qohumlarımın söylədiklərinə görə, yük maşınları kənddən izdihamın arasından keçərək irəliləyirdi. Belə ki, Vedi rayonunun müxtəlif kəndlərində yaşayan erməni əhalisi qızışdırılıb yollara düzülmüşdü. Onlar "rədd olun, türklər", "miatsum", "türklərə ölüm" kimi şüarlar səsləndirir, yük maşınlarını daşlayırdılar. İnsanlar çarəsiz halda doğma kəndi, ev-eşiyi yük maşınlarında tərk edərək Azərbaycanın müxtəlif bölgələrinə köçürdülər. Lakin yaşlı nəslin nümayəndələrindən bir çoxu həsrətə tab gətirməyib dünyasını dəyişdi. O cümlədən Gülsüm nənəm erməni terror təşkilatının əsgərləri tərəfindən döyülmüşdü və o da bir neçə il xəstəlikdən əziyyət çəkdikdən sonra Bakı şəhərində dünyasını dəyişdi. Atam, anam və biryaşlı qardaşım həmin vaxt kəndi tərk etmək məcburiyyətində qalıblar. Onlar da deportasiya edilən bir çox qaçqınlar kimi çətinliklərlə - həm yaşayış üçün ev və iş tapmaqda çətinliklərlə, həm də sağlamlıq problemləri ilə üzləşiblər. Bu gün də onlar keçdikləri o çətin dövrün travmalarını daşıyırlar. Bununla belə, bir gün doğma yurdumuza qayıdacağımıza inamımızı heç vaxt itirmədik".

Hazırda Qərbi Azərbaycanda, eləcə də Vedi rayonunda bir çox yaşayış məntəqəsində evlərin dağıdılmış vəziyyətdə olduğunu deyən P.Vəliyeva əlavə edib ki, bu müddət ərzində Ermənistan ərazisində azərbaycanlılara aid mədəni və tarixi irs - o cümlədən məscidlər və qəbiristanlıqlar dağıdılmış, yer adları dəyişdirilmişdir.

"Kənddən çıxan zaman belə onun adı kəndin giriş-çıxış lövhələrində Xalisa kimi qeyd olunsa da, deportasiyadan sonra əldə olan mənbələrə əsasən 1991-ci ilin aprel ayında adı dəyişdirilərək "Noyakert" adlandırılıb. Rayonda yaşayış olan daha 33 kəndin adı da müxtəlif illərdə dəyişdirilərək erməniləşdirilib, tarixdən bir irsi məqsədli şəkildə silmək cəhdləri aparılıb. Bütün qərbi azərbaycanlılar kimi, mənim də babalarımın ana-atasının, nənələrimin ana-atasının və bir sıra vaxtsız vəfat etmiş qohumlarımın məzarları o torpaqlarda qalıb. Xalisa kəndinin insanlarının yeganə arzusu doğma torpağa qayıtmaq, yaylaqları gəzmək, bulaqlarının suyundan içmək, doğma torpaqda ata-baba qəbirlərini ziyarət etmək, öz evlərinə geri dönməkdir. Əminəm ki, qərbi azərbaycanlıların da sülh yolu ilə geri qayıdışı yaxın gələcəkdə reallaşacaq", - deyə deputat əlavə edib.

# Azərbaycanın xarici siyasətinin uğurları



## Güclü və dayanıqlı sülhə doğru

### Azərbaycanın təşəbbüsü ilə başlanan proses öz hədəfinə uğurla çatacaq

**Vətən müharibəsinin başa çatmasından sonra Azərbaycanın qarşıya qoyduğu vəzifələrdən biri regionda sülhün təmin olunmasıdır. Sülh təşəbbüsü də ilk olaraq rəsmi Bakıdan gəlib, bu məsələdə əsas prinsipləri savaşdan sonra Azərbaycan təqdim edib. Olduqca çətin keçən, Ermənistanın çoxsaylı təxribat və sabotajı ilə üzləşən sülh və münasibətlərin normallaşması prosesi nəticə etibarilə Azərbaycanın müəyyən etdiyi hədəfə yaxınlaşmaqdadır.**

#### Azərbaycanın müəllifi olduğu sülh gündəliyi

Bu ilin mart ayında "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin mətni razılaşdırılıb. Bununla da layihə ətrafında danışıqlar prosesi yekunlaşıb. BMT Nizamnaməsini, Helsinki Yekun Aktını və Almatı Bəyannaməsini rəhbər tutan 17 maddədən ibarət layihədə Azərbaycanla Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin təsis edilməsi ilə bağlı məsələlər öz əksini tapıb.

Prezident İlham Əliyevin bu ilin avqust ayında Vaşinqtona işgüzar səfəri isə Azərbaycanla Ermənistan arasındakı sülh gündəliyinin hüquqi müstəvidə daha da möhkəmləndirilməsi, sülh sazişinin imzalanması istiqamətində əsas maneələrin aradan qaldırılması baxımından mühüm razılaşmaların əldə edilməsi ilə əlamətdar oldu. Belə ki, bu səfər zamanı Azərbaycan və Ermənistanın xarici işlər nazirləri tərəfindən sülh sazişi layihəsi parafландı. Həmçinin ATƏT-in Minsk prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət imzalandı. İrəvan uzun müddət Minsk qrupunun hüquqi ləğvinə qarşı dirəniş göstərsə də, Azərbaycanın prinsipial mövqeyi qarşısında geri çəkilməli oldu və ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciəti imzaladı.

Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin Vaşinqton görüşünün nəticələrinə dair imzalanmış Birgə Bəyannamədə də Minsk qrupunun bağlanmasına dair məsələ öz əksini tapdı. Ümumilikdə isə Birgə Bəyannamədə sülh sazişi ilə bağlı əldə olunan bütün razılaşmalar hüquqi baxımdan təsbit olundu. Bu sənədin məzmunu bütövlükdə Azərbaycanın irəli sürdüyü sülh gündəliyini özündə tam ehtiva edir. "Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək. Vaşinqton Zirvəsi çərçivəsində, eyni zamanda ATƏT-in Minsk qrupunun və əlaqədar strukturların bağlanması üçün edilmiş birgə müraciətə uyğun olaraq, sentyabrın 1-də ATƏT tərəfindən qəbul edilmiş qərarla keçmiş münaqişənin bu qalıqları da aradan qaldırıldı. Beləliklə, atdığımız addımlar Azərbaycanın irəli sürdüyü sülh gündəliyini bir daha təsdiq etdi", - deyə Prezident İlham Əliyev bildirib.

Vaşinqton razılaşmaları göstərdi ki, Azərbaycanın regionda sülhün və sabitliyin gücləndirilməsi istiqamətində beynəlxalq hüquqa əsaslanan prinsipial və ardıcıl mövqeyi beynəlxalq səviyyədə təqdir olunur.

#### Minsk prosesinə və onun əlaqədar strukturlarının fəaliyyətinə son qoyuldu

Qeyd edək ki, ATƏT Nazirlər Şurası tərəfindən bu il sentyabrın 1-də qəbul edilən Minsk prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərara əsasən, sözügedən strukturların bağlanmasından irəli gələn təşkilati və texniki məsələlərin 1 dekabr 2025-ci il tarixindən gec olmayaraq yekunlaşdırılması ATƏT katibliyinə tapşırılmışdı. Dekabrın 1-də isə bununla bağlı ATƏT tərəfindən açıqlama yayılıb. Açıqlamada qeyd edilir ki, Ermənistan və Azərbaycanın ATƏT-in Finlandiya sədrliyinə birgə müraciətindən sonra ATƏT Nazirlər Şurasının 1 sentyabr 2025-ci il tarixində qəbul edilmiş MC.DEC/1/25 saylı qərarına uyğun olaraq, 30 noyabr 2025-ci il tarixində saat 23:59-da Minsk prosesinin və onun əlaqədar strukturlarının bağlanmasını yekunlaşdırdı. "Bütün zəruri inzibati prosedurların başa çatdırılması bağlanma prosesinin başa çatması deməkdir. Bu proses 2025-ci il avqustun 8-də Vaşinqtonda Ermənistanın Baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı və ABŞ Prezidenti Donald Trampın da şahidi olduğu tarixi Birgə Bəyannamənin ardınca ATƏT-in bütün 57 iştirakçı dövlətinin 1 sentyabr tarixli konsensus qərarını həyata keçirdi" - deyə açıqlamada bildirilir.

Azərbaycanın öz torpaqlarını güc yolu ilə azad etməsinin fonunda baş verən proseslər isə təsdiq etdi ki, əslində Minsk qrupunun məqsədi münaqişəni yoluna qoymaq olmayıb. Bu format Ermənistanın işğal siyasətinə dəstək verib, Qarabağda ikinci erməni dövlətinin yaradılmasına çalışıb. Beləliklə, Azərbaycanın Vətən müharibəsindəki zəfərinin nəticəsi olaraq 2020-ci ildən fəaliyyətini faktiki olaraq dayandırmış Minsk qrupunun mövcudluğuna hüquqi müstəvidə də tamamilə son qoyuldu. Artıq Minsk qrupu deyilən format yoxdur. ATƏT-in Minsk prosesinin və əlaqədar strukturların bağlanması ilə Azərbaycanın fundamental şərtlərindən biri tam yerinə yetirildi.

Hazırda Ermənistanın qarşısında duran əsas tələb Azərbaycana qarşı olan ərazi iddialarını konstitusiyasından çıxarmasıdır. Vaşintonda paraflanan və mətni razılaşdırılan sülh sazişi Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırıldıqdan sonra istənilən vaxt imzalana bilər.

Ermənistan rəhbərliyi tərəfindən gələn konstitusiya islahatlarının həyata keçiriləcəyinə, yeni konstitusiyanın qəbulunun zəruriliyinə dair fikirlər eşidilməkdədir. Ölkədə buna qarşı çıxan isə revanşist kəsimdir. Keçmiş hərbi xunta və erməni kilsəsi hər vəchlə sülh prosesinə kölgə salınmasına və erməni ictimai rəyində yanlış təəssüratların formalaşdırılmasına çalışırlar. Lakin görünən odur ki, onların bu cəhdləri erməni ictimai rəyində dəstək qazana bilmir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Bütün regional marşrutlar Azərbaycandan keçir

**Azərbaycan apardığı uğurlu xarici siyasət sayəsində regionun ən əhəmiyyətli ölkəsinə çevrilib. Bu siyasətin davamı olaraq Azərbaycan həmçinin iki qlobal nəqliyyat marşrutunda qovşaq ölkə statusunu da qazanıb. O səbəbdən qütbləşən dünyada baş verən geosiyasi mübarizələr fonunda region ölkələrinin əksəriyyəti Azərbaycanla əməkdaşlığa can atır.**

Orta dəhlizdə ölkəmizin liderliyini bütün tərəflər qəbul edir və bu marşrutun dinamik fəaliyyəti ölkəmizin siyasi mövqeyindən asılıdır. Bununla yanaşı, Azərbaycan marşrutun fəaliyyəti üçün özünün müsbət təşəbbüsləri və konstruktiv mövqeyi ilə də seçilir. Azərbaycan tərəfindən irəli sürülən dəhlizin rəqəmsallaşdırılması, yüklərin tez və maneəsiz çatdırılması, vahid tarifin tətbiq olunması barədə təşəbbüslər partnyorlarımız tərəfindən yüksək qiymətləndirilir.

Ölkəmizin xarici siyasətinin başlıca istiqaməti qarşılıqlı fayda əsasında bütün dövlətlərlə səmərəli əməkdaşlıq etməkdir. Biz Rusiya ilə münasibətlərimizin gərgin olduğu dövrdə də "Şimal-Cənub" dəhlizində əməkdaşlıqdan imtina etmədik. Çünki Azərbaycan xarici siyasətdə strateji maraq doğuran məsələləri xırda siyasi anlaşılmazlıqlara qurban verən ölkələrdən deyil. Bunun nəticəsidir ki, bütün anlaşılmazlıqlara baxmayaraq, ölkəmiz iki böyük qonşusu Rusiya və İranla əməkdaşlığı hər zaman davam etdirib. Azərbaycan, İran və Rusiya arasında "Şimal-Cənub" dəhlizi ilə bağlı üçtərəfli Anlaşma Memorandumunun imzalanması da bunu təsdiqləyir.

Memorandumun imzalanması uzunmüddətli və səmərəli üçtərəfli əməkdaşlığın inkişafında, həmçinin "Şimal-Cənub" marşrutunun qərb istiqamətinin effektivliyinin artırılmasında mühüm addımdır. Sənəd tarif yanaşmalarının uzlaşdırılmasını, vahid kompleks tarifin formalaşdırılmasını, müntəzəm blok-qatarların buraxılmasını və daşımalar üzrə prosedurların təkmilləşdirilməsini nəzərdə tutur. Bu mexanizmlərin həyata keçirilməsi Rusiya, Azərbaycan və İran arasında proqnozlaşdırıla bilən, sürətli və iqtisadi cəhətdən səmərəli logistika zəncirinin qurulmasına imkan verəcək. Ümumilikdə, bu razılaşma tərəflərin beynəlxalq nəqliyyat dəhlizlərində etibarlı iştirakçı kimi mövqelərini gücləndirir və regionda tranzit axınlarının davamlı artması üçün əlverişli şərait yaradır.

Bakıda keçirilən MDB ölkələrinin Dəmir Yolu Nəqliyyatı Şurasının plenar iclası zamanı "Rusiya Dəmir Yolları" ASC-nin baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorov bildirib ki, "Şimal-Cənub" dəhlizi boyunca əhəmiyyətli nəticələr əldə edilib. Onun sözlərinə görə, Rusiya, Azərbaycan, Qazaxıstan, Türkmənistan və İran dəmir yolu qurumlarının intensiv işi nəticəsində Moskvadan İranın Bəndərabbas limanına orta tranzit müddətini 2 il ərzində 27 gündən 16 günə endirmək mümkün olub. "İranla birləşən bu dəhliz boyunca konteyner daşımaları həm qərb, həm də şərq marşrutlarında artmaqda davam edir. Məsələn, son 10 ay ərzində Astara üzərindən qərb marşrutu üzrə 6558 konteyner daşınıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 58,3 faiz artım deməkdir. Bu rəqəm yalnız Rusiya yüklərini əks etdirir. Qazaxıstan, Çin və qonşu ölkələrdən daşımalar da artıb", - deyə Oleq Belozyorov bildirib.

Həmin tədbirdə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev qeyd edib ki, bu ilin əvvəlində "Azərbaycan Dəmir Yolları" QSC ilə İran Dəmir Yolları arasında Astara terminalının tikintisi və istismarı haqqında müqavilənin icrasına dair strateji əməkdaşlıq planı imzalanıb. Sənəd "Şimal-Cənub" dəhlizinin potensialının reallaşdırılması üçün əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. "İran ərazisində yerləşən Astara terminalının tikintisi üzrə işlərdə xeyli irəliləyiş olub və bu obyekt Azərbaycan tərəfinə 25 il müddətinə uzunmüddətli istifadəyə verilib. Terminalın tikintisinin başa çatdırılmasını 2026-cı ilin sonuna planlaşdırırıq", - deyə nazir əlavə edib. Nazir həmçinin qeyd edib ki, keçən il Azərbaycan və Rusiya "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində tranzit daşımalarının inkişafı üzrə əməkdaşlıq haqqında saziş imzalayıblar: "Sənəd dəmir yolu infrastrukturunun modernləşdirilməsini və yük axınının mərhələli şəkildə artırılmasını nəzərdə tutur. Məsələn, 2028-ci il yanvarın 1-dən etibarən bu marşrut üzrə yük dövriyyəsini 5 milyon tona çatdırmağı planlaşdırırıq, sonrakı mərhələdə isə bunu illik 15 milyon tona qədər artırmaq niyyətindəyik. Dəhlizin Azərbaycan hissəsində infrastrukturun yenilənməsi üzrə işlər fəal şəkildə davam edir. Cari ilin sonuna qədər Sumqayıt-Yalama xəttinin yenidən qurulması başa çatdırılacaq, paralel olaraq Ələt-Osmanlı-Astara xəttində tikinti və bərpa işləri aparılır".

İllik ötürmə qabiliyyəti 15 milyon tona qədər olan Zəngəzur dəhlizinin (TRIPP) tikintisi də ləngimir. Ermənistanla sərhəddə yerləşən Ağbənd ərazisinə gedən dəmir yolu xəttinin inşasının 2026-cı ildə başa çatdırılması nəzərdə tutulub.

Zəngəzur dəhlizi Orta dəhlizlə yanaşı, "Şimal-Cənub" marşrutunun səmərəliliyinin artmasına da töhfə verəcək. Bu marşrut şimaldan gələn yüklərin İran vasitələri ilə Fars körfəzinə daşınmasına imkan yaradacaq. Eyni zamanda Türkiyə üzərindən Yaxın Şərqə, Şimali Afrika və Avropaya yüklərin daşınmasında Zəngəzur dəhlizi (TRIPP) mühüm əhəmiyyətə malikdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



## Ermənistanda sülhə hazırlıq ziddiyyətlərlə müşayiət olunur

**Məlum faktdır ki, iki ölkə arasında sülh sazişinin imzalanması üçün Azərbaycanın rəsmi İrəvan qarşısında qoyduğu əsas tələblərdən biri Ermənistanın konstitusiya və normativ hüquqi aktlarına dəyişikliklərin edilməsidir. Bu, həm də Cənubi Qafqazda sabitliyi və iqtisadi dirçəlişi reallaşdıra bilən əsas amillərdən biridir.**

Görünən odur ki, Ermənistanın Baş naziri Nikol Paşinyanın Azərbaycanın tələb və təkliflərini əməli işdə reallığa çevirmək istəyi ölkəsində revanşist qüvvələrin ciddi müqavimətilə qarşılaşır. Ermənistan ədliyyə naziri Srbuhi Qalyanın rəhbərliyi altında keçirilən Konstitusiya İslahatları Şurasının son iclası da bunu nümayiş etdirdi. Rəsmi açıqlamalarda iclasda prokurorluq və istintaq orqanları ilə bağlı müddəaların müzakirə aparıldığı bildirilsə də, əsas məsələ olan Müstəqillik Bəyannaməsinə istinad mövzusu açıq saxlanıldı. S.Qalyanın "mart ayına qədər yeni mətn hazır olacaq" deməsi bu baxımdan gözlənilməz olmadı. Ermənistan siyasətində bu tip "vaxt göstəriciləri"nin icra mexanizminə çevrilmədiyi artıq dəfələrlə müşahidə edilib. N.Paşinyan da daha öncə konstitusiya ilə bağlı əsas addımların yalnız seçkilərdən sonra atılacağını deməklə prosesin bilavasitə daxili siyasi risklərlə bağlı olduğunu etiraf etmişdi.

Ekspertlərin fikrincə, ölkəmizə qarşı ərazi iddialarının əks olunduğu sənədlərin, o cümlədən əsas qanunun mövcudluğu şəraitində sülh sazişinin imzalanması davamlı sülhə gətirib çıxarmayacaq. Yəqin ki, Ermənistanda məlum qüvvələrin prosesi maksimum uzatmağa və hansısa məqamda fürsətdən yararlanmağa çalışmasının məqsədi də budur. Xatırladaq ki, Ermənistanın Müstəqillik Bəyannaməsində Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı müddəa yer alıb, Ermənistan Konstitusiyasında isə bu müddəaya istinad olunub. Azərbaycan isə haqlı olaraq bu istinaddan narazıdır və onu özünün ərazi bütövlüyünə iddia kimi qəbul edir, Ermənistanla arasında sülh bağlanmasına maneə kimi görür.

Ümumiyyətlə, Ermənistanda konstitusiya ilə bağlı anormal mövqe var. Hakimiyyət maksimum vaxt udmağa, tələblərdən yayınmağa çalışır, illərlə Ermənistanı pis günə qoyan müxalifət isə daha radikal mövqedən çıxış edir. Hətta bəzən absurdcasına Azərbaycanın da öz konstitusiyasını dəyişdirməsini tələf etməkdən çəkinmir. İddia olunur ki, 1991-ci ilin 18 oktyabrında qəbul edilmiş Konstitusiya aktında 1918-20-ci il cümhuriyyətinin varisi olduğumuzu rəsmiləşdirməyimiz Ermənistana qarşı ərazi iddiasıdır.

Bu iddiaçılar sırasında N.Paşinyan üçün başlıca maneələrdən biri də İkinci Qarabağ müharibəsindən sonra kilsənin eks-prezidentlər - Robert Koçaryan və Serj Sarkisyanın təmsil olunduğu müxalifəti açıq şəkildə dəstəkləməsidir. Keçmiş rejimlərdən qalma II Qaregin isə bu maneənin ön sırasındadır. Amma Sarkisyan-Koçaryan tandemi kilsəni də siyasi proseslərə cəlb edərək ölkədəki xaosu dərinləşdirməyə cəhd göstərsələr də, istədiklərinə nail ola bilmirlər. Yeri gəlmişkən, qeyd edək ki, xaricdəki ermənilər arasında da Eçmiadzin rəhbərliyinə münasibət birmənalı deyil. Onların sırasında "kilsə və onun lideri Ermənistanda dövlət içində dövlət kimidir", - deyib. II Qaregini tənqid edənlər az deyil. Ona görə də Eçmiadzində rəhbərliyin dəyişəcəyi və kilsədə islahat aparılacağı istisna edilmir.

Sosial Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi Tural İsmayılov mətbuata açıqlamasında bildirib ki, Müstəqillik Bəyannaməsində Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı açıq müddəanın yer alması və konstitusiyada bu sənədə istinadın qalması rəsmi Bakının əsas narazılıq nöqtəsidir: "Azərbaycan bu istinadı açıq ərazi iddiası kimi qiymətləndirir və haqlı olaraq sülh müqaviləsinin imzalanmasına hüquqi maneə sayır. Prezident İlham Əliyevin "konstitusiya dəyişməzsə, sülhün mənası olmayacaq" mövqeyi də məhz bu hüquqi məntiqə söykənir. Burada söhbət təkcə siyasi etimaddan yox, gələcəkdə mümkün revizionizmin hüquqi əsasının ləğvindən gedir. İrəvan isə bu məsələni uzun müddətdir həm daxili auditoriyaya, həm də beynəlxalq platformalara fərqli rakurslardan təqdim etməyə çalışır. Paşinyanın "Müstəqillik Bəyannaməsi konstitusiyaya tam daxil edilməyib" açıqlaması hüquqi manipulyasiya təsiri bağışlayır. Çünki istinadın özü artıq siyasi və hüquqi məna daşıyır. İstər tam, istər qismən olsun, bu sənədə bağlılıq faktı ərazi iddialarını legitimləşdirmə riski yaradır. Azərbaycan tərəfi də məhz bu riskin aradan qaldırılmasını tələb edir".

Ermənistan rəhbərliyi isə vaxt udmaqla geosiyasi proseslərin gedişatının dəyişəcəyinə ümid edir və İrəvan maksimum manevr etməyə çalışır. Lakin görünən odur ki, Ermənistanın bu kimi manevr imkanları getdikcə daralır. Regionda yeni kommunikasiyaların açılması, Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı müzakirələr, Türkiyə - Azərbaycan tandeminin güclənməsi Ermənistanın strateji passivliyini daha da dərinləşdirir. Bu şəraitdə konstitusiya problemi sadəcə hüquqi sənəd dəyişikliyi yox, Ermənistanın gələcək geosiyasi mövqeyinin də müəyyənedicisinə çevrilir.

Ermənistan cəmiyyətində də artıq bu uzatma siyasətinə qarşı səssiz narazılıq formalaşır. Xüsusilə gənc nəsil regional təcridin iqtisadi nəticələrini daha aydın hiss edir. Onlar açıq sərhədlər, investisiya mühiti və normal qonşuluq münasibətləri istəyir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

**"Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq".**

# Zəfərin Laçın səhifəsi



1 dekabr 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində qürur dolu sözləri ilə illərdir bu müjdəni gözləyən laçınlıları, xalqımızı ürəkdən təbrik etdi. Azərbaycanın ədalətli zəfərini Laçın zirvəsindən bir daha dünyaya duyuran qalib lider İlham Əliyevin, "Mən müharibənin ilk günündən bu günə qədər - sentyabrın 27-dən dekabrın 1-nə qədər Azərbaycan xalqına dəfələrlə müraciətlər etmişəm, qələbə sevincini bölüşmüşəm, azad edilmiş şəhərlərimizin müjdəsini vermişəm. Özümü çox xoşbəxt adam hesab edirəm", bəyanı həm də ötən üç onillik boyu xalqımızın çətinliklərdən keçən mübarizəsinin öz tarixi zəfər zirvəsinə yetdiyini təcəssüm etdirirdi.

Beş il əvvəl qazanılan Şuşa zəfərinin diktə etdiyi şərtlər Ağdam və Kəlbəcər kimi, Laçın rayonunun da bir güllə atılmadan, bir itki verilmədən əsl sahiblərinə qaytarılmasını təmin etdi. Kəlbəcər və Laçının çətin coğrafi ərazisini, Ağdamın 30 il boyu düşmən tərəfindən mina tarlasına çevrilməsi reallığını göz önünə gətirmək belə Müzəffər Ali Baş Komandan İlham Əliyevin öz siyasi taktiki gedişləri ilə necə misilsiz hərbi-diplomatik qələbəyə imza atdığını görməyə yetir.

26 avqust 2022-ci ildə xalqımız Laçın şəhərinin azadlığını qeyd etdi və həmin tarix təqvimlərimizdə Laçın Şəhəri Günü kimi qırmızıya boyandı.

Füsunkar təbiətə malik Laçın rayonunda quruculuq işlərinə başlanıldı, bu dağlar qoynunda bina olunan ulu yurda qayıdış köçləri həyata keçirildi. Laçınlılar doğma torpaqlarına dönərək sevinclə "Salam ana yurd, salam, Laçın", - dedilər.





## Məğrur Laçın

Zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri ilə məşhur olan Laçın rayonu ölkəmizin cənub-qərbində, Kiçik Qafqazda yerləşir. Ümumi sahəsi 1835 kvadratkilometr olan Laçın rayonu 72 min hektar yaylaq sahəsinə və 34 min hektar zəngin meşə massivinə malikdir. Bol su ehtiyatları olan rayonun ərazisindən axan Şəlvə və Minkənd çayları birləşərək uzunluğu 113 kilometr olan Həkəri çayını yaradır.

Azərbaycanın tarixi ərazilərindən biri olan Laçın bölgəsi antik dövrlərdə və erkən Orta əsrlərdə Albaniya və Atropatena dövlətlərinin tərkib hissəsi olmaqla, ölkəmizin ən qədim insan məskənlərindəndir.

Ümumilikdə, Laçın rayonunda 54 dünya və 200-dən çox yerli əhəmiyyətli qədim tarixi abidə mövcud olmuşdur.

Ərazi çar Rusiyası dövründən başlayaraq, 1930-cu ildə müstəqil inzibati rayon kimi təşkil olunana qədər Qarabağ xanlığı və Zəngəzur qəzasına daxil olmuşdur.

1924-cü ildən isə şəhər statusu alan Laçın, 1930-cu ildən rayon mərkəzidir. Şəhərin adı görkəmli Azərbaycan yazıçısı Tağı Şahbazi Simurq tərəfindən yaxınlıqdakı dağın adına uyğun olaraq Laçın adlandırılmışdır. Laçın sözü "məğrurluq" mənasını bildirir.

Laçın rayonu 18 may 1992-ci ildə erməni işğalına məruz qalmışdır. İşğala qədər rayonda bir şəhər, bir qəsəbə, 125 kənd mövcud olmuşdur. Ümumilikdə, işğal nəticəsində Laçın rayonuna 7,1 milyard ABŞ dollarından çox ziyan dəymiş, 58 min nəfərdən çox laçınlı öz doğma torpağından didərgin düşərək məcburi köçkün kimi respublikanın 58 şəhər və rayonunda məskunlaşmışdır.

Birinci və İkinci Qarabağ müharibələrində bütün istiqamətlərdə döyüşən Laçının vətənpərvər övladlarından 285 nəfəri şəhid olmuş, 66 nəfəri girov götürülmüş, 120 nəfər əlil olmuş, yüzlərlə uşaq yetim qalmışdır.




## Bu tarixi unutmarıq!

Laçın rayonu 1992-ci ildə Ermənistan tərəfindən işğal olunan dövrdə Azərbaycanda hərtərəfli böhran yaşanırdı. Laçının işğal altına düşməsi ilə Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında faktiki olaraq coğrafi əlaqə yaradılmışdı. Bu, işğalçı Ermənistanın Kəlbəcəri və digər rayonlarımızı da bir-bir zəbt etməsinə şərait yaratmışdı. Laçın da daxil olmaqla, təcavüzkar Ermənistanın rayonlarımızı ard-arda ələ keçirməsi həmin dövrdə hakimiyyətdə olan səriştəsiz rəhbərliyin, kreslo həvəsi ilə xalqının üzünə ağ olan antimilli qüvvələrin milli xəyanətinin nəticəsində baş vermişdi. O faciəvi günlərdə həmin xəyanətkar toplumu rayonlarımızın müdafiəsini təşkil etmək yox, özlərinin hakimiyyət sevdası düşündürürdü. Bütün bu səbəblərə görə, Şuşadan cəmi 10 gün sonra Laçın rayonunun da işğal edilməsi acı xəbərini almışdıq. Həmin tarixdən etibarən məcburi köçkünə çevrilərək respublikamızın müxtəlif rayonlarında müvəqqəti məskunlaşan Laçın eli ötən 28 illik zaman kəsimində heç vaxt yurda qayıdış ümidlərini itirmədi, Laçına qovuşacaqları xoşbəxt günü böyük səbir və istəklə gözlədi. Bir gün mütləq bu arzularına çatacaqlarına əmin oldu. Laçınlıların ürəyində qayıdış inamını sönməyə qoymayan nəsnə isə heç şübhəsiz ali dövlət rəhbərinə olan tükənməz inam hissi idi.

24 dekabr 2011-ci ildə Prezident İlham Əliyev xanımı Mehriban Əliyeva ilə birlikdə Ağcabədi rayonunun Taxtakörpü ərazisində Laçın rayonundan olan 552 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış qəsəbəsinin açılışında iştirak etmişdi.

Həmin zaman 50 illik yubileyini Taxtakörpü ərazisində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkün ailələri ilə birgə qeyd edən zaman ölkəmizin rəhbəri İlham Əliyev qətiyyətlə demişdi: "Bu, müvəqqəti yaşayış məntəqəsidir. Torpaqlarımız işğalçılardan azad olunandan sonra bütün köçkünlər üçün Laçında, Kəlbəcərdə, Ağdamda, hələ işğal altında olan digər torpaqlarda bundan da gözəl evlər tikəcəyik. Mən buna şübhə etmirəm. Biz öz ərazi bütövlüyümüzü mütləq bərpa edəcəyik. Mən bu barədə fikirlərimi dəfələrlə bildirmişəm, bir daha demək istəyirəm ki, bu, sadəcə olaraq sözlər deyil, sadəcə olaraq bizim arzularımız deyil, bu, həqiqətdir".

## Böyük qayıdışın əsas ünvanlarından biri

Həmin tarixin üzərindən cəmi 9 il keçdikdən sonra - 1 dekabr 2020-ci ildə Qarabağın xilaskarı İlham Əliyev xalqımıza "Laçın bizimdir! Qarabağ bizimdir!" müjdəsini verdi.

Vətən müharibəsində qazanılan parlaq qələbə nəticəsində Ermənistan kapitulyasiya aktına imza atdı. 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya rəhbərləri arasında imzalanan üçtərəfli Bəyanata müvafiq olaraq həmin il dekabrın 1-də Laçın rayonu azad edildi.

Ölkəmizin üçtərəfli Bəyanatda nəzərdə tutulmuş yeni Laçın avtomobil yolunu vaxtından xeyli əvvəl istifadəyə verməsi ilə 26 avqust 2022-ci ildə Laçın şəhəri, Zabux və Sus kəndləri Ermənistan tərəfindən boşaldıldı.

21 sentyabr 2022-ci ildə Azərbaycan bayrağını Laçında ucaldan Prezident İlham Əliyev dedi: "Fəxr edirəm ki, Laçın şəhərinin mərkəzində milli bayrağımızı ucaltdım. Bu bayraq burada əbədi dalğalanacaq! Biz burada əbədi yaşayacağıq! Yaşasın Laçın! Yaşasın Azərbaycan!"

23 aprel 2023-cü ildə isə ölkəmizin tarixində miqyas və əhəmiyyəti baxımından xalqımız üçün ölçüyəgəlməz olan növbəti əlamətdar hadisə yaşandı. Laçın sərhəd nəzarət-buraxılış məntəqəsində Azərbaycan bayrağı yüksəldildi. Bununla da Azərbaycanın ərazi bütövlüyü qətiyyətlə təmin edildi.

16 avqust 2021-ci ildə Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birgə Laçın rayonuna səfər etdi. Həmin gün Laçın Beynəlxalq Hava Limanının təməlinin qoyulması ilə bu füsunkar təbiətli rayonun quruculuğunun rəmzi mesajı verildi. Səfər zamanı ölkəmizin rəhbəri dedi ki, beləliklə, azad edilmiş bölgələrin - Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların buraya, bu zonaya qaytarılması üçün yeni imkanlar açılacaq.

Bu gün Laçın rayonunda genişmiqyaslı tikinti-qurculuq işləri görülür, yollar, tunellər çəkilir, infrastruktur qurulur, elektrik stansiyaları quraşdırılır. Hərtərəfli quruculuq həyata keçirilən Laçın rayonuna köç karvanları yola salınır. Artıq Laçın şəhərinə, həmçinin də Zabux, Sus və Bəylik kəndlərinə sakinlərinin qayıdışı həyata keçirilib. Belə ki, 591 ailə (2177 nəfər) Laçın şəhərində, 217 ailə (823 nəfər) Zabux kəndində, 59 ailə (215 nəfər) Sus kəndində, 89 ailə (363 nəfər) Bəylik kəndində məskunlaşıb.

İndi azad Laçın həm də beynəlxalq konfranslara evsahibliyi etməsi ilə diqqət çəkir.

Bu il 28 May Müstəqillik Günündə Laçında qardaş ölkələr - Azərbaycan, Türkiyə və Pakistanın liderləri növbəti Zirvə görüşlərini keçirdilər. Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Laçından verdikləri həmrəylik və sülh mesajları dünyaya yayıldı.

Bu il Müstəqillik Günündə həmçinin Laçın Beynəlxalq Hava Limanının açılışı da Azərbaycan və Türkiyə liderlərinin iştirakı ilə həyata keçirildi.

Xatırladaq ki, MDB Humanitar Əməkdaşlıq Şurasının 8 oktyabr 2024-cü il tarixli qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhəri 2025-ci ildə "MDB-nin mədəniyyət paytaxtı" elan olunub.

İl ərzində Laçında 15-dən çoxşaxəli tədbir uğurla keçirilib ki, bunlar Qarabağ və Şərqi Zəngəzurun mədəni ruhunun özünə qaytarılmasını əks etdirir.

Laçının azadlığının, dirçəlişinin timsalında bütün bu yaşananlar Qarabağ zəfərinin xalqımıza, bütün keçmiş məcburi köçkünlərə bəxş etdiyi xoşbəxtliyin təzahürüdür. Necə ki, bu barədə 1 dekabr 2020-ci ildə - Laçın rayonunun bir güllə atılmadan, bir itki verilmədən azadlığına qovuşdurulduğu gün xalqa etdiyi müraciətində qalib lider İlham Əliyevin dediyi kimi: "...Bu Qələbə bizim ruhumuzu, əyilməz ruhumuzu göstərdi. Göstərdi ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildi və bütün xalqımız, lap balaca uşaqlar, yaşlı insanlar, o torpaqları tərk edənlər, qayıtmaq arzusunda olanlar, o torpaqlarda heç vaxt olmayan, amma o bölgələrdən olan gənc nəslin nümayəndələri bir arzu ilə, biz hamımız bir arzu ilə yaşamışıq və bu arzunu həyata keçirmişik. Bu gün bizim bütün arzularımız çin olub. Bu, hər birimiz üçün doğrudan da böyük xoşbəxtlikdir".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Laçında "MDB-nin Mədəniyyət Paytaxtı 2025" ilinin bağlanış mərasimi keçirilib

**Laçında Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Prezidentinin Laçında xüsusi nümayəndəsi tərəfindən təşkil olunan "MDB-nin Mədəniyyət Paytaxtı 2025" ilinin bağlanış mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov öz çıxışında tədbirin Laçın şəhəri üçün əhəmiyyətindən danışıb. O bildirib ki, geriyə baxanda nə dərəcədə nəhəng bir yol keçildiyi aydın görünür.

Məsim Məmmədovun sözlərinə görə, 2025-ci il şəhərdə yeni temp ili olub: "O, bizə canlı, insani, mədəniyyət və yaradıcılıqla zəngin dialoq bəxş etdi. Mədəniyyət Nazirliyi, MDB Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu ilə birlikdə böyük beynəlxalq tədbirlər keçirmişik. Bu il həm mədəni, həm də ictimai strukturlarımız arasında gələcək və dərinləşən əməkdaşlıq üçün yeni platformaya çevrilib".

Prezidentin xüsusi nümayəndəsi atılan bütün addımların gələcək tərəfdaşlığın yeni təməli olduğuna əminliyini bildirib.

Milli Məclisin deputatı, Parlamentin Mədəniyyət Komitəsinin sədri Polad Bülbüloğlu qeyd edib ki, mədəniyyət paytaxtları seçilərkən əsas diqqət paytaxt şəhərlərə deyil, ölkələrində böyük mədəni və tarixi maraq doğuran şəhərlərə yönəldilməlidir: "Qeyd etməliyəm ki, Laçının MDB-nin Mədəniyyət Paytaxtı statusuna namizəd göstərilməsi ideyası Prezident İlham Əliyevə məxsusdur və mən hamımız adından dövlətimizin başçısına dərin minnətdarlığımı bildirmək istəyirəm".

"Laçın Azərbaycanın sərhədidir, Qarabağ torpağıdır. MDB məkanında hazırda Qarabağ torpağının dirçəldilməsi üçün gedən proseslərin düzgün başa düşülməsi çox vacib idi. Burada olan hər kəs Laçının, sözün əsl mənasında, sürətli dirçəlişinin şahidi oldu. Burada hər şey dağıdılmışdı və qısa müddət ərzində Laçın bu gün Azərbaycanı MDB məkanında təmsil edir", - deyə o əlavə edib.

Azərbaycan mədəniyyət nazirinin müavini Fərid Cəfərov Laçının bu ilin mədəniyyət paytaxtı seçilməsini işğaldan azad edilmiş ərazilərimizdə mədəniyyət dinamikasının bərpasının inandırıcı sübutu adlandırıb.

Nazir müavini qeyd edib ki, il ərzində Laçında 15-dən çox çoxşaxəli tədbir uğurla keçirilib və bu, şəhərin və regionun mədəni dirçəlişinə əhəmiyyətli dərəcədə töhfə verib: "Bu proqramlar və tədbirlər Laçını regional mədəni əməkdaşlıq üçün dinamik platformaya çevirib".

Tədbir bədii proqramla davam etdirilib.

## "Laçın deyəndə burnuma ardıc qoxusu gəlir"

### Şərif Ağayar uşaqlıq xatirələrini bölüşür

*"Laçın deyəndə həmişə burnuma ardıc ağacının qoxusu gəlir. Kənddə evimizin qarşısında dağın sinəsi ardıc meşəsi idi. Yağış yağanda onun tünd qoxusu bütün ətrafa yayılırdı. O xoş rayihəni ciyərlərimə çəkmək mənə həmişə xüsusi bir həzz verirdi. İlk dəfə Ağbulağa gedəndə gözüm həmin ardıcları axtardı. Nə qədər axtarsam da, bir dənə də olsun ardıc ağacı görmədim. Yanımda gedənlərin hərəsi bir söz dedi: biri "qırıblar", biri "yandırıblar". Beş ildir ki, kəndimizə gedirəm, hər dəfə də gözüm o ağacları gəzir. Elə bil onlar uşaqlığımla birlikdə çəkilib gediblər".*



Bu sözləri əslən Laçından olan yazıçı Şərif Ağayar AZƏRTAC-a söyləyib.

Yazıçı yurd yeri ilə bağlı acılı-şirinli xatirələrini yada salır: "Laçın mənim uşaqlığım, yeniyetməliyim, gəncliyimdir. Heyif, çox heyif ki, gəncliyimi orada yaşaya bilmədim. İmkan düşdükcə ömrün gündoğanında qalmış xatirələri yenidən yaşamaq, kəndimizin qoxusunu almaq üçün ora tələsirəm. Demək olar ki, hər yay mütləq gedirəm. Bu yay 20 gün doğma yerlərdə qaldım. Keçmişim, uşaqlığım, doğmalarım yenidən gözlərimin önünə gəldi, xatirələrlə qol-boyun oldum. Rayon mərkəzindəki "Simurq" kitabxanasında oxucularla görüşdüm. Laçını tərk edəndə kəndimizdə 120 ev vardı, bu yay isə təxminən 60 evə həyat qayıtmışdı. Kəndimizdə inşaat və quruculuq işləri hələ başlamasa da, yaz-yay aylarında sakinlər doğma yurda dönürlər. Hamı qayıdış həsrəti ilə yaşayır. Təbiət o qədər gözəldir ki, ora ayaq basan geri dönmək istəmir. Sanki torpaqda qəribə bir məhrəmlik var, adamı qoynunda saxlamaq istəyir. Şairanə çıxmasın, kəndə gedəndə daşa, ota, ağaca çevrilib orada qalmaq istəyirəm. Laçın, doğma Ağbulaq mənim üçün bənzərsiz bir nəğmədir. Nə qədər yazıb-yaratsam da, onun gözəllikləri mənim üçün tükənməzdir. İndiyədək qələmə aldığım bütün hekayə və romanların qəhrəmanı kəndimiz və onun adamlarıdır".

Beş il əvvəl Laçının bir güllə belə atılmadan erməni hərbi birləşmələrindən azad edilməsini Azərbaycan diplomatiyasının və xalqımızın böyük qələbəsi sayan yazıçı Ağbulaq haqqında danışır: "Kəndimiz çox gözəl yerdə idi. Evimizin qarşısında otuz-qırx bulaq vardı. Suyu ağappaq daşların üstündən axdığı üçün bulaqlar dümağ görünürdü. Kəndimizin adı da buradan götürülüb. Bir az yuxarıda isə dağın altından birbaşa çay çıxırdı. Meşələri, qayaları, talaları, çəmənləri təsvirəgəlməz gözəllik idi. Mən oradan daha gözəl coğrafiya təsəvvür edə bilmirəm. Bir də qürub vaxtı sürünün bizim evin qarşısından mələşə-mələşə kəndə tökülməsi… Al-əlvan quzular dağın sinəsində əsrarəngiz bir mənzərə yaradırdı. Düşünürəm ki, kəndimiz tam bərpa olunandan sonra orada turist axınından tərpənmək olmayacaq. Yay boyu yerlilərdən çox qonaq gəlirdi. Bulaqlara getmək üçün növbə tuturduq. Laçın-Minkənd-Kəlbəcər yolu istifadəyə veriləndən sonra ümid edirəm ki, orada yeni həyat başlayacaq. Bunu fikirləşəndə bir az da qısqanıram. Kəndimizin sakitliyini, məhrəmliyini qorumaq istəyirəm. Amma nə etmək olar? Zamanın qarşısına keçmək mümkün deyil. Qoy hamı gəlib o gözəllikləri görsün, doğma yurda, ana təbiətə məftun olsun və həmin gözəllikdən hamıya pay düşsün".

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan və Çin Mərkəzi bankları əməkdaşlığın genişləndirilməsini müzakirə ediblər

**Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımovun rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasına işgüzar səfər çərçivəsində Çin Xalq Bankının sədri Pan Qonşenq ilə görüşüb.**



AMB-dən bildirilib ki, görüş zamanı monetar siyasət və maliyyə sabitliyi, ödəniş sistemləri, QR və mobil ödəniş həlləri, eləcə də ödəniş xidmətləri təchizatçılarının fəaliyyətinin tənzimlənməsi mövzuları müzakirə edilib. Bundan əlavə, rəqəmsal valyuta sahəsində tənzimləmə təcrübələri barədə məlumat bölüşülüb.

Görüşdə həmçinin Azərbaycan və Çin mərkəzi bankları arasında əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Maliyyə Nazirliyi yanında İctimai şuranın ilk iclası keçirilib

**İclasda İctimai şuranın fəaliyyət istiqamətləri üzrə müzakirələr aparılıb, təşkilati məsələlərə baxılıb, sədr, sədr müavini və katib vəzifələrinə seçki keçirilib.**



İki il müddətində fəaliyyət göstərəcək İctimai şuraya iqtisadçı alim, professor İnqilab Əhmədov sədr, Professional Maliyyə Menecerləri Assosiasiyasının sədri Nuriyyə Novruzova sədr müavini, Azərbaycan Jurnalistlər Şəbəkəsi İctimai Birliyinin üzvü, jurnalist Anar Əzizov isə katib seçilib.

İclas çərçivəsində İctimai şuranın iş planının müzakirəsi aparılıb, şura üzvləri tərəfindən təşkilati məsələlərlə bağlı rəy və təkliflər səsləndirilib.

Məlumat verildiyi kimi, cari il noyabrın 13-də Maliyyə Nazirliyi yanında İctimai şuranın tərkibinin formalaşdırılması üçün seçkilər keçirilib və nəticədə 7 vətəndaş cəmiyyəti institutunun nümayəndəsi şuraya üzv seçilib.

# Xəzərdə neft və qaz axtarışları davam edir

**Təbiət bizdən öz səxavətini yenə də əsirgəmir. Dünya səviyyəli peşəkar mütəxəssislər isə yeni texnika və texnologiyalar, qabaqcıl iş metodları ilə təbiətin bəxş etdiyi sərvətlərin üzə çıxarılması, mənimsənilməsi, yəni xalqın malına çevrilməsi, dövlətimizi daha da gücləndirməsi üçün var qüvvə və bacarıqla çalışırlar.**

Hazırda Xəzərin Azərbaycan sektorunda istər istismarda olan yataqlarda, istərsə də perspektiv stukturlarda yeni karbohidrogen ehtiyatlarının axtarışı aparılır.

28 ildir neft və səmt qazı verən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqları indi də sərbəst təbii qaz (STQ) vəd edir. Belə ki, AÇG-nin dərinliyində qazın olduğu ehtimalı var. Buradan çıxarıla bilən STQ ehtiyatlarının xeyli iri həcmdə - 4 trilyon kubfutadək olduğu düşünülür. Bununla bağlı ilkin hasilat quyusu planlaşdırılmışdı. Quyu artıq mövcud "Qərbi Çıraq" platformasından təhlükəsiz şəkildə qazılıb.

Hazırda hasilatda olan neft laylarının altında yerləşən iki prioritet STQ layına - dayaz Qırmakıüstü Qumlu (QÜQ) və daha dərin Qırmakıaltı (QA) lay dəstlərinə çıxış təmin edilib. Nəticədə QÜQ lay dəstində qaz ehtiyatlarının mövcudluğu təsdiqlənib və AÇG-dən ilk STQ hasilatının gələn ilin birinci yarısında bu laydan başlanacağı gözlənilir.

Bundan əlavə, QA lay dəstində də yüksəktəzyiqli qaz ehtiyatlarının mövcudluğu aşkar edilib və həmin layda 2026-cı ilin əvvəllərində sınaq işlərinin aparılması planlaşdırılır.

Qazdan söz düşmüşkən, bir qədər də "Şahdəniz Kompressiya Layihəsi" (ŞDK) barədə. 2,9 milyard dollar dəyərində olan bu layihədə məqsəd "Şahdəniz"dəki aşağı təzyiqli qaz ehtiyatlarının hasilatını təmin etmək və beləliklə, yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Layihənin yataqdan təxminən 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

Bu ilin iyun ayında yekun investisiya qərarı qəbul edildikdən sonra ŞDK layihəsi üzrə işlər bir sıra iri müqavilələrin imzalanması ilə irəliləyib. Layihə çərçivəsində yeni bir kompressiya obyektinin - elektriklə işləyən, heyətsiz kompressiya platformasının inşası nəzərdə tutulur.

Layihə üzrə tikinti işləri artıq başlayıb. Tikintinin 2029-cu ildə başa çatması ilə yeni qurğunun həmin il "Şahdəniz Alfa", 2030-cu ildə isə "Şahdəniz Bravo" platformalarından hasil edilən qaz həcmlərini kompressiya üçün qəbul etməyə hazır olacağı planlaşdırılır.

Bu ilin iyun ayında BP və SOCAR Xəzər dənizində daha iki blok üzrə anlaşma memorandumu imzalayıblar. Birinci blok Bakıdan 120 kilometr, "Günəşli" yatağından 20-25 kilometr məsafədə, suyun 150-200 metr dərinliyində yerləşən "Qarabağ" neft yatağıdır. Yatağın işlənməsi üzrə 2018-ci ildə imzalanmış və Milli Məclis tərəfindən ratifikasiya olunmuş mövcud Risk Xidməti Sazişi (RXS) var.



İkinci blok Bakıdan 90-110 kilometr şimal-şərqdə, suyun 80-180 metr dərinliklərində yerləşən "Əşrəfi - Dan Ulduzu - Aypara" (ADUA) sahəsidir. Bu sahə bir sıra mövcud kəşf olunmuş və perspektiv strukturları əhatə edir. ADUA sahəsinə aid kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü üzrə 2018-ci ildə imzalanmış və Milli Məclis tərəfindən ratifikasiya olunmuş mövcud saziş (HPBS) var.

BP bu iki sazişin hər birində SOCAR-dan 35 faizlik iştirak payı alaraq hər iki müqavilə üzrə operatordur. Bu sazişlər Xəzərdə mövcud infrastrukturdan ən səmərəli şəkildə istifadə etməyə imkan yaradacaq yeni işlənmə variantlarını müəyyənləşdirmək istiqamətində BP-nin SOCAR-la əməkdaşlığında yeni perspektivlər açır.

"Qarabağ" yatağında ilk addım olaraq dənizdibi sensor qovşaqlarla (OBN) tədqiqat və yüksəkdəqiqlikli (HR)/ultra yüksəkdəqiqlikli (UHR) tədqiqatdan ibarət seysmik tədqiqat proqramının həyata keçirilməsi planlaşdırılır. OBN tədqiqatının bu ilin dekabrında başlayacağı və təqribən 3 ay yarım davam edəcəyi planlaşdırılır. HR/UHR tədqiqatın isə gələn ilin mart-aprel aylarında həyata keçiriləcəyi və 45 günədək davam edəcəyi nəzərdə tutulur.

OBN tədqiqatının yataq haqqında bilgiləri artıracağı, quyuların planlaşdırılması işlərinə və yatağın işlənmə strategiyalarını optimallaşdırmağa kömək edəcəyi gözlənilir. HR/UHR seysmik tədqiqatda əsas məqsəd quyu bütövlüyünə təsir göstərə biləcək geoloji riskləri, eləcə də platformanın və digər infrastrukturun təhlükəsiz şəkildə quraşdırılmasına maneə yarada biləcək yeraltı təhlükələri müəyyənləşdirməkdir.

Bu seysmik tədqiqat proqramına aid Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ) sənədinin layihə variantı oktyabr ayında ictimaiyyətə açıqlanıb və nəzərdən keçirilmək üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim edilib.

Cari il iyunun 3-də "Bakı Enerji Həftəsi" çərçivəsində TPAO şirkətinin "Xəzər dənizinin Azərbaycan sektorundakı "Şəfəq-Asiman" perspektiv strukturunun birgə geoloji-kəşfiyyatı və işlənməsi üzrə hasilatın pay bölgüsü haqqında Saziş"ə qoşulmasına dair də sənədlər imzalanıb. Kəşfyyat işləri dövründə BP şirkətinin operator olacağı yeni razılaşmaya əsasən, layihə üzrə BP və SOCAR 35 faiz, TPAO isə 30 faiz paya sahib olacaq.

Qeyd edək ki, 2010-cu ilin oktyabr ayında SOCAR ilə BP arasında "Şəfəq-Asiman" perspektiv strukturunun birgə geoloji-kəşfiyyatı və işlənməsi üzrə hasilatın pay bölgüsü haqqında Saziş" imzalanıb.

"Şəfəq-Asiman"a TPAO-nun qoşulması ilə layihəni irəli aparacaq ən uyğun variantın müəyyənləşdirilməsi üçün blokun bundan sonrakı qiymətləndirilməsi sürətləndiriləcək. Bu məqsədlə Aşağı Suraxanı layına bir quyunun qazılması da daxil olmaqla əlavə qiymətləndirmə işləri həyata keçiriləcək. Bu fəaliyyətlərə imkan yaratmaq üçün həmçinin HPBS-nin kəşfiyyat dövrü uzadılıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Rəqəmsal bacarıqla peşəkarlıq arasında qurulan körpü




**Rəqəmsal inkişaf konsepsiyası bu gün Azərbaycanın informasiya cəmiyyətinə doğru böyük addımların yol xəritəsinə çevrilib. Konsepsiyanın dalğası gündəlik həyatımıza da yayılır: insanların rəqəmsal savadlılığı yüksəlir, texnologiya ilə insan arasındakı məsafə qısalır, yeni peşələr doğulur. Bu məqsədlə həyata keçirilən layihələrin əhatə dairəsi ildən-ilə genişlənir və əmək bazarında rəqəmsal ixtisaslara olan tələbatı qarşılamaq üçün yeni platformalar yaradılır.**

Bu mənada İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) təşkilatçılığı ilə ali təhsil müəssisələrinin tələbə və məzunları, həmçinin İRİA-nın təhsil layihələrinin məzunları üçün keçirilən "İKT Karyera Sərgisi" iştirakçılara rəqəmsal texnologiyalar sahəsində karyera imkanlarını yaxından tanımaq, müxtəlif şirkətlər və startaplarla əlaqələr qurmaq və peşəkar bacarıqlarını inkişaf etdirmək üçün unikal platforma təqdim etdi. Bir neçə gün əvvəl baş tutan sərgi çərçivəsində iştirakçılar interaktiv təqdimatlar, mentor sessiyaları, təcrübə proqramları və iş imkanları ilə tanış olaraq, əmək bazarında tələb olunan rəqəmsal ixtisaslar barədə ətraflı məlumat əldə edə bildilər.

Qeyd edək ki, sərgidə 900-dən çox gəncin bir araya gəlməsi təsadüf deyil. Tədbir zamanı onlar ölkənin informasiya texnologiyaları sahəsində söz sahibinə çevrilmiş 20 dövlət və özəl qurumun nümayəndələri ilə tanış olaraq suallarını verib, gələcək planlarını müəyyənləşdirmək imkanı qazanıblar. Bu mənzərə gənclərin rəqəmsal dünyaya olan yüksək marağının, texnologiyaya doğru güclü axınının açıq göstəricisidir.

İRİA-nın həmin istiqamətdə məqsədi təkcə gəncləri bir sərgi məkanında toplamaq deyil, onları ölkənin rəqəmsal inkişaf prosesinin fəal iştirakçılarına çevirməkdir. Agentlik illərdir çalışır ki, "universitet-şirkət-gənc" üçbucağında real əməkdaşlıq platforması yaratsın, informasiya texnologiyaları sahəsində insan kapitalını gücləndirsin və bazarın tələb etdiyi praktiki bacarıqları gənclərə vaxtında qazandırsın. Qurumun təşəbbüsləri gənclərə yol göstərən bir kompas rolunu oynayır: kimisi burada ilk mentorunu tapır, kimisi öz karyerasının hansı istiqamətə yönələcəyinə qərar verir. Kimisi isə nə zamandan bəri arzuladığı İT mühitinə ilk addımını məhz bu cür tədbirlərdə atır. Agentlik üçün əsas hədəf gənclərin potensialını görünən etmək, şirkətlərlə bir masa arxasında birləşdirmək və Azərbaycanın İKT sektorunun dayanıqlı inkişafına təkan verməkdir. İRİA-nın İdarə Heyətinin sədr müavini Rəşad Xalıqov deyir: "Azərbaycanda İKT sahəsində fəaliyyət göstərən gənclərin bilik və bacarıqlarının yüksək səviyyəyə çatdırılması üçün layihələr həyata keçiririk. Bunun da əsas məqsədi gənclərin beynəlxalq şirkətlərdə, təşkilatlarda iş tapa bilməsidir".

Onun sözlərinə görə, bu gün dövlət qurumlarını, universitetləri və sektor nümayəndələrini bir araya gətirən karyera sərgisinin önəmi böyükdür: "Belə sərgilər həm Azərbaycanda, həm də Türkiyədə çox vacibdir. Biz burada universitetlər və qurumlarla ortaq hədəflər üzərində işləmək, birgə layihələr formalaşdırmaq və praktik addımlar atmaq fürsəti əldə edirik. Bu imkanı yaratdığı üçün İRİA-ya xüsusi təşəkkürümüzü bildiririk". O, eyni zamanda qardaş Türkiyənin "Bayraktar Texnoloji" şirkətinin Azərbaycanda yüksək texnologiyalar sahəsində geniş fəaliyyət göstərdiyini bildirib.

Qeyd edək ki, "Bayraktar Texnoloji Azərbaycan"da mühəndislikdən proqramlaşdırmaya, süni intellektdən avtonom sistemlərə, istehsaldan sahə əməliyyatlarına qədər geniş sahələrdə fəaliyyət göstərir. 2024-cü ildə Türkiyədə uğurla həyata keçirilən təcrübə proqramlarını artıq Azərbaycanda da başladıb və hesab edir ki, bu təşəbbüs gənclər üçün böyük fayda verəcək. Ötən il müraciət edən 775 nəfər arasından 52 azərbaycanlı təcrübə keçmək üçün seçilib, 15-i ilə isə davamlı əməkdaşlıq qurularaq işə götürülüb.

Tədbir "Rəqəmsal Azərbaycan: Gənclərin rəqəmsal transformasiyada rolu" mövzusunda panel müzakirəsi ilə diqqət çəkib. Müzakirələr zamanı ölkədə rəqəmsal transformasiyanın sürətlənməsi, gənclərin bu prosesdə oynayacağı rol və onların rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi məsələləri paylaşılıb. Paneldən sonra gənclər sərgi stendləri ilə tanış olaraq karyera imkanları barədə ətraflı məlumat alıb, fərdi sınaq müsahibələri və karyera məsləhətləri sessiyalarından faydalanıblar. Sərgi həmçinin "Talk session" görüşləri və maraqlı "TechQuiz" müsabiqəsi ilə daha dinamik bir mühit yaradıb, iştirakçılara həm öyrənmək, həm də sınamaq fürsəti verib.

"İKT Karyera Sərgisi"sinə sadəcə görüş və ya sıradan bir tədbir kimi baxmaq, bəlkə də, sadəlövhlükdür. Əslində, bu platforma gənclərlə texnologiya dünyası arasında canlı bir körpüdür. Sərgi tələbə və məzunlar üçün praktik faydalar təqdim edir və şirkətlər üçün də əvəzsiz bir platformadır. Onlar istedadlı gəncləri tanıyır, gələcək əməkdaşlıqlar üçün yeni tərəfdaşlıq əlaqələri qurur və insan kapitalını gücləndirirlər. Bu baxımdan, tədbir şəxsi inkişaf, peşəkar biliklərin artırılması və ölkənin rəqəmsal ekosisteminin dayanıqlı inkişafına töhfə verir. Qısaca desək, "İKT Karyera Sərgisi" gənclərin, şirkətlərin və ölkənin rəqəmsal gələcəyinin inkişafına xidmət edən strateji bir platformadır.

"İKT Karyera Sərgisi" texnologiya dünyasına açılan dialoq və karyera meydanı idi. Burada bir gənc öz gələcəyini bir şirkətin təklifində, bir mütəxəssisin məsləhətində və ya dinlədiyi qısa təqdimatda görə bilirdi. Çıxışlar, təqdimatlar, interaktiv guşələr sərginin ritmini formalaşdırır, ziyarətçilərin marağını təmin edirdi. Ən önəmlisi isə odur ki, bu tədbir ölkədə formalaşan yeni bir düşüncənin, rəqəmsal savadlılığı və innovasiyanı prioritet edən gənc nəsil yanaşmasının göstəricisinə çevrildi. Bu gün sərgi bitmiş olsa da, orada yaranan təəssüratlar, qurulan əlaqələr və açılan imkanlar gənclərin yol xəritəsinə çoxdan ehtiyac duyduğu yeni bir istiqamət əlavə etdi. Rəqəmsal gələcəyə doğru atılan bu addım, böyük bir hərəkatın başlanğıcı təsiri bağışladı.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Görüşə istehlak bazarında fəaliyyət göstərən sahibkarlar dəvət olunmuşdu

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən Bakı şəhəri və regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün istehlakçı hüquqlarının müdafiəsi sahəsində mütəmadi olaraq maarifləndirmə tədbirləri keçirilir.**

Bu silsilədən olan növbəti görüş agentliyin təşəbbüsü, Bakı Şəhər İcra Hakimiyyəti və Nərimanov Rayon İcra Hakimiyyətinin dəstəyi ilə təşkil olunub. "Sahibkarlıq subyektləri ilə istehlakçı hüquqlarının müdafiəsi" mövzusunda keçirilən tədbirdə Bakı şəhərinin Nərimanov rayonu ərazisində ticarət, ictimai iaşə, məişət və digər növ xidmət sahələri üzrə fəaliyyət göstərən sahibkarlıq subyektləri iştirak ediblər.

Görüş zamanı agentliyin İstehlak bazarına nəzarət şöbəsinin müdiri Yusif Tapdıqlı və İstehlakçı hüquqlarının müdafiəsi şöbəsinin müdiri Elşən Cəfərov təqdimatla çıxış ediblər.

Sahibkarlara agentliyin fəaliyyət istiqamətləri, eləcə də istehlakçı hüquqlarının müdafiəsinə dair mövcud qanunvericiliyin tələbləri və normativ çərçivələri barədə məlumat verilib, bu istiqamətdə təsərrüfat subyektlərinin üzərinə düşən vəzifələr izah edilib və pozuntuların baş verdiyi hallarda qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət tədbirləri diqqətə çatdırılıb. Həmçinin agentliyə daxil olan müraciətlərin araşdırılması mexanizmləri barədə ətraflı məlumat verilib, həyata keçirilən istehlak bazarına nəzarət tədbirləri və agentliyin maarifləndirmə fəaliyyətinin istehlakçı hüquqlarının müdafiəsində rolu xüsusi vurğulanıb.

## Dünya birjalarında neft bahalaşıb

**AZƏRTAC xəbər verir ki, Londonun ICE birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 1,24 dollar artaraq 63,62 dollar olub.**



Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 1,21 dollar artaraq 59,76 dollar təşkil edib.

# Dilimizin saflığını qoruyaq

**"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm..." Bu müdrik sözlər Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə məxsusdur. Bütün həyatını doğma xalqının, Vətəninin inkişafına, intibahına həsr edən, bu yolda misilsiz tarixi uğurlar qazanan Heydər Əliyev Azərbaycan dilinə həmişə layiqincə diqqət yetirib, tükənməz övlad məhəbbəti, xüsusi qayğı göstərib.**




Mübaliğəsiz deyə bilərik ki, Azərbaycan dilinin son əsrin 30 ildəki inkişafı, öncə, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu illərin, təxminən, üçdəiki hissəsi Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrə düşür. Ulu Öndərin Azərbaycan dili və ümumiyyətlə, dil siyasəti, əsasən üç prinsip üzərində qurulmuşdur: demokratiklik, dəqiqlik və uzaqgörənlik, obyektivlik. Bundan başqa, Ulu Öndərin dil siyasəti iki istiqamətdə özünü qabarıq şəkildə göstərir. Birincisi, milli dil sahəsindəki siyasət ilk gündən ana dilinin inkişafı, dövlət dili səviyyəsinə yüksəlməsi, dünya meridianlarına çıxması ideyaları ilə bağlı olmuşdur. İkincisi, Heydər Əliyevin başqa dillərə münasibətdə yürütdüyü dil siyasəti öz demokratikliyi, uzaqgörənliyi və obyektivliyi ilə fərqlənir.

Ümummilli Lider dilimizin saflığını, zənginliyini qorumağın vacibliyini çıxışlarında hər zaman vurğulayır, cəmiyyətin bütün imkanlarını ana dilinin inkişafını təmin etməyə səfərbər edirdi.

Azərbaycan dilinə tarixi xidmət bu gün, müstəqillik dövründə daha böyük miqyasda davam etdirilir. Bunu hakimiyyətə gəldiyi ilk günlərdən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müxtəlif tədbirlərdə söylədiyi çıxışlarında daha parlaq əks olunduğunu görürük. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2023-cü il sərəncamı ilə ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi əlamətdar hadisələrdən biridir. Bu sərəncam ölkəmizin rəhbərinin dövlətçiliyimizin inkişafına verdiyi yüksək dəyərin göstəricisidir. 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması həm də Ulu Öndərin dil siyasətinin öyrənilməsi baxımından da çox vacibdir. Bu məsələdə Heydər Əliyevin mövqeyi aydındır və qətidir: "Öz dilini sevməyən adam, öz tarixini yaxşı bilə bilməz".

Təsadüfü deyildir ki, bu il noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilən tədbirdə Prezident İlham Əliyevin çıxışı, mahiyyətcə, dövlətin gələcək inkişaf fəlsəfəsi haqqında strateji manifest idi. Prezidentin səsləndirdiyi fikirlər bugünkü dəyişkən mühitdə Azərbaycanın yeni siyasi və iqtisadi modelinin ideoloji əsaslarını formalaşdırır. Çıxışda açıq şəkildə görünür ki, Azərbaycanın gələcəyi elm, bilik və milli ruh üzərində qurulmalıdır. Prioritet sahələrdən biri isə Azərbaycan dilinə qayğı, onun yad ünsürlərdən qorunması, milli kimliyimizə hörmət edilməsidir.

Dövlət başçısı İlham Əliyevin məruzəsindən irəli gələn vəzifələrə uyğun olaraq, AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli və Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru, professor Nadir Məmmədlinin başçılığı altında müvafiq strukturlarda operativ tədbirlər keçirildi. İnstitutda təşkil edilən "Milli dilçilik elmi və Azərbaycan dövlətinin dil siyasəti" adlı toplantı isə daha böyük maraq doğurdu. Toplantıda, əsasən, dövlətimizin başçısının məruzəsindən irəli gələn vəzifələrə cavab olaraq müxtəlif təkliflər irəli sürüldü. Bu təkliflərin bəzilərinin qeyd edilməsini məqsədəuyğun sayırıq.

İnstitutun elmi işlər üzrə direktor müavini, dosent Baba Məhərrəmlinin təklifi belə oldu: "Müasir Azərbaycan dilində işlək olan ərəb, fars, rus, ingilis mənşəli sözləri klassik ədəbiyyatımızdakı Azərbaycan türkcəsi qarşılıqları ilə əvəz etmək. Məsələn, XIII əsrə aid İbn Mühənna lüğətində alcuğ, müasir Türkiyə türkcəsində alçı sözləri işlənir. Bu iki sözdən birini müasir dilimizə gətirmək olar".

Baba Məhərrəmli diqqətə çatdırdı ki, klassik ədəbiyyatda alim "bilgə", elm "bilim" , kitab "bitik", nəticə "sonuc", təcrübə "sına -sınıq", qanun "törə, yasaq" və sairə kimi sözləri seçib təkliflər planı şəklində təqdim etmək üçün 3 cildlik "Türk mənşəli arxaizmlər lüğəti"ndən istifadə oluna bilər.

Beynəlxalq əlaqələr şöbəsinin müdiri Vəfa Abdullayeva-Nəbiyeva Azərbaycan dilinin funksional potensialını beynəlxalq akademik məkanlarda tanıtmaq məqsədilə beynəlxalq qurumlarla elmi-kommunikativ əməkdaşlıq layihələri hazırlamaq və xarici dillərdə aparılan dilçilik tədqiqatlarına Azərbaycan dilinə dair modulların daxil edilməsi üçün ortaq elmi proqramlar və mübadilə mexanizmləri hazırlamaq təklifləri ilə çıxış etdi.

Azərbaycan dili tarixi şöbəsinin müdiri Xədicə Heydərovanın isə təklifləri belə oldu: "Nitq mədəniyyətinin formalaşdırılması: gənc nəslin ədəbi və düzgün danışıq bacarıqlarının inkişaf etdirilməsi, nitq mədəniyyətinə diqqətin artırılması.

Dilin saflığının qorunması, yad leksik elementlərin təsirinin elmi əsaslarla təhlili və milli söz yaradıcılığının təşviqi".

Qədim dillər və mədəniyyətlər şöbəsinin müdiri İlhami Cəfərsoy həmin şöbənin bu sahədə həyata keçiriləsi vacib planları olduğunu bildirdi: "İlk növbədə Ön Asiyanın mixi yazı mənbələrinin türkoloji leksikası elmi tədqiqat obyektinə çevrilməlidir. Bu istiqamətdə Urartu mixi yazılı mətnlərinin, şumer gil lövhələrinin dili haqqında məqalələr çap etdirilməlidir. Xatti, Assur dillərinin prototürk leksikası öyrənilməlidir".

Terminologiya şöbəsinin müdiri, professor Sayalı Sadıqov yaranan terminlər dilin qrammatik qaydalarına uyğun olmaqla bərabər, anlayışı da məntiqi cəhətdən düzgün təyin edilməli olduğuna diqqət çəkdi. O qeyd etdi ki, Terminoloji fondun yaradılması üçün müxtəlif sahələrə aid terminoloji lüğətlərin tərtibi vacibdir.

Sayalı Sadıqov vurğuladı ki, teleradio kanallarında və digər kütləvi informasiya vasitələrində materiallar digər tələblərlə yanaşı, ədəbi dil normalarına cavab verməlidir: "Müasir şəraitdə Dil Komissiyasının fəaliyyəti məhz bu tələblər nəzərə alınmaqla qurulmalı, alınma sözlərin dilimizin tələblərinə uyğunlaşdırılması prinsipləri hazırlanmalıdır.

Avropa dillərindən daxil olan terminlərin izahlı lüğətini hazırlamaq üçün Azərbaycan dilində orfoqrafiya prinsipləri təkmilləşdirilməlidir".

Elmi katib, filologiya elmləri doktoru Aynel Məşədiyeva Azərbaycan dilinin terminoloji müasirliyi və qlobal elmi diskursa inteqrasiyası üçün "Azərbaycan dili qlobal elmi kommunikasiya müstəvisində" adlı beynəlxalq konfransın təşkili; Xarici dillərdə aparılan dilçilik tədqiqatlarına Azərbaycan dilinə dair modulların daxil edilməsi üçün ortaq elmi proqramlar və mübadilə mexanizmləri hazırlamaq; Prezidentin "Azərbaycan elminin dünya elminə inteqrasiyası milli inkişafın mühüm şərtidir" fikrinə əsaslanaraq, Azərbaycan dilinin elmi dil statusunun gücləndirilməsi üçün beynəlxalq jurnallarda ikidilli nəşrlərin təşviqi; Azərbaycan Dil Mərkəzi brendi altında yeni elmi platformanın yaradılması təkliflərini irəli sürdü.

Hind-Avropa dilləri şöbəsinin müdiri Lalə Qurbanova nəzərə çatdırdı ki, Azərbaycan dili linqvistik təhlillə yanaşı, ekstralinqvistik təhlil edilməli, dilin mənimsənilməsi eksperimental tədqiqata cəlb olunmalıdır. Lalə Qurbanova onu da vurğuladı ki, Azərbaycan dilinə gələn yeni sözlər dil qaydalarının bütün səviyyələrindən keçərək işlədilməli, Azərbaycan dili və xarici dillər üzrə mütəxəssislər qarşılıqlı təhlillər aparmalıdırlar.

Süni intellekt və kompüter dilçiliyi şöbəsinin müdiri Məsud Mahmudov növbəti əhəmiyyətli təkliflərlə çıxış etdi: "Sosial şəbəkələrdə, müxtəlif saytlarda dilimizin qaydalarının pozulması hallarına yol verməmək, bununla bağlı sayt rəhbərlərinə məktublarla müraciət etmək; Kütləvi informasiya vasitələrində Azərbaycan dilinin saflığının qorunması ilə bağlı müzakirələrdə fəal iştirak etmək; Elmi-tədqiqat planlarının və məqalələrin yazılışı prosesində lüzumsuz olaraq xarici terminlərin istifadəsini məhdudlaşdırmaq və ana dilimizin daxili imkanları hesabına yaradılmış terminlərdən istifadəyə nail olmaq".

Qərbi Azərbaycan toponimlərinin izahlı lüğətinin 2-ci cildinin, işğaldan azad olunmuş rayonların toponimlərinin izahlı lüğətinin, Azərbaycan coğrafiyasının və türk dünyasının areal toponimlərinin izahlı lüğətinin hazırlanmalı olduğunu qeyd edən Toponimika şöbəsinin müdiri Elçin İsmayılovun digər təklifi isə Azərbaycan toponimlərinin qorunması və yer adlarının düzgün işlədilməsi məqsədilə mətbuatda, saytlarda və televiziya proqramlarında maarifləndirici çıxışların təşkili oldu.

Tətbiqi dilçilik şöbəsinin müdiri İsmayıl Məmmədli "Dilimizdə yanlış işlənən sözlərin siyahısını hazırlayıb təkmilləşdirmə işləri apararaq Azərbaycan dilinin Orfoqrafiya Lüğətini tərtib etmək; Təhsil ocaqlarında və ictimai yerlərdə düzgün danışıq mövzusunda seminarlar, vebinarlar keçirmək, lüğətlərin əhəmiyyətini izah etmək; Azərbaycan dilinin Böyük İzahlı Lüğətini hazırlamaq" təkliflərini səsləndirdi.

Müasir Azərbaycan dili şöbəsinin müdiri Nərgiz Hacıyeva yad kəlmələri dilimizdən uzaqlaşdıraraq bir çox sözü xalq dilindən, dialektlərdən alıb lüğət tərkibinə salmağı əhəmiyyətli hesab etdi. Onu da qeyd etdi ki, müstəqillik dövründə uşaq yazıçılarının əsərlərində yeni, uydurma, fantastik alınma adlarla yanaşı, milli adlara çox üstünlük verilməlidir.

Prezident İlham Əliyevin alimlərimizin qarşısında qoyduğu məsələlər, problemlər cəmiyyətin və elmi mühitin yeni inkişaf meyarlarını müəyyənləşdirmək baxımından olduqca əhəmiyyətlidir. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dilinin taleyi barədə təməl düşüncələrini şərtləndirən dil quruculuğu haqqında ideya istiqaməti bu gün də dövlət siyasətinin tərkib hissəsi kimi müasir siyasi baxışlara uyğun səviyyədə aparılır. "Hər bir millət, hər bir xalq üçün onun ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır" çağırışı dövlətin dil siyasətinin manifestidir. Cənab Prezidentin ana dilinin geniş, maneəsiz işləkliyi üçün göstərdiyi siyasi qətiyyət, milli iradə, gördüyü məqsədyönlü işlər Azərbaycan dilinin nüfuzunun yüksəlməsinə xidmət edir.

***Fizuli MUSTAFAYEV,***
***filologiya elmləri doktoru***

# Heydər Əliyev Fondu "İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə"nin tərəfdaşı oldu

**Heydər Əliyev Fondu İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Mədəniyyət Festivalının tərəfdaşı olub.**




AZƏRTAC xəbər verir ki, "İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə - 2025" dekabrın 5-dən 11-dək İslam Əməkdaşlıq Təşkilatının və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçiriləcək.

Mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi, tolerantlıq, sülh və müxtəlifliyə hörmətin təbliği festivalın əsas istiqamətlərindəndir. 50-dən çox ölkədən qonağın iştirak edəcəyi Yaradıcı Həftə çərçivəsində təqdim olunacaq kino, teatr, dəb, dizayn, musiqi, oyun texnologiyaları, rəqəmsal yaradıcılıq və startap sahələrinə yönəlmiş panellər, nümayişlər, sərgilər və digər fəaliyyətlər ölkəmizin yaradıcı sənaye ekosistemini qlobal müstəvidə tanıdacaq.

Festival günlərində "Mədəni və yaradıcı sənayelər forumu" (MYFORUM), "Creative Village": mədəni və yaradıcı sənayelər sərgisi" (MYEXPO), "Baku Cinema Breeze - 2025" beynəlxalq kino proqramı, "Şərq moda nümayişi" - İƏT ölkələrinin gənc və tanınmış dizaynerlərinin təqdimatları, oyun texnologiyaları üzrə beynəlxalq sammit (G-HUB) və digər təqdimatlar olacaq.

# Azərbaycanla Türkiyə arasında səhiyyə sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə edilib



**Azərbaycanın səhiyyə naziri Teymur Musayev Türkiyənin ölkəmizdəki səfiri Birol Akgün ilə görüşüb.**

Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə T.Musayev ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli əlaqələrin, dostluq və qardaşlıq münasibətlərinin dərin tarixi köklərə əsaslandığını diqqətə çatdırıb: "Azərbaycan ilə Türkiyə arasında etimada, qarşılıqlı hörmətə, dostluq və qardaşlığa əsaslanan tərəfdaşlıq özünün ən yüksək mərhələsindədir".

Müasir Azərbaycanın müstəqilliyinin ilk illərindən etibarən səhiyyə qurumlarımız arasında rəsmi münasibətlərin qurulmasını qeyd edən, nazir bütün sahələrdə olduğu kimi, səhiyyə və tibb elmi sahəsində də qardaş ölkə ilə əməkdaşlığın nümunəvi olduğunu vurğulayıb: "Ankarada keçirilən XI Türk Tibb Dünyası Qurultayında Azərbaycanın nümayəndə heyəti geniş tərkibdə iştirak edib. Belə beynəlxalq platformalar təkcə təcrübə mübadiləsi üçün deyil, həm də gələcəkdə ortaq prioritetlərimizi müəyyən etmək baxımından əvəzsizdir".

T.Musayev səhiyyə sisteminin rəqəmsallaşdırılmasını Azərbaycan Səhiyyə Nazirliyinin qarşısına qoyulan prioritet məsələlərdən biri olduğunu deyib: "Süni intellekt və rəqəmsallaşmanı mənimsəyən həkimlərin yetişdirilməsi Səhiyyə Nazirliyinin qarşısında duran əsas hədəflərindən biridir".

Nazir elmi-tibbi və digər sahələrdə əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Birol Akgün isə vurğulayıb ki, möhkəm təməllər üzərində dayanan Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri bizim birlik və həmrəyliyimizin bariz göstəricisidir. Səfir xalqlarımız arasında münasibətlərin inkişafında dövlət başçılarının müstəsna rolunu diqqətə çatdırıb.

XI Türk Tibb Dünyası Qurultayının mahiyyətini qeyd edən Birol Akgün bildirib ki, belə tədbirlərin keçirilməsi ölkələrimizin səhiyyə sistemlərinin yaxınlaşması, eləcə də qlobal tibbin inkişafına töhfə baxımından olduqca əhəmiyyətlidir.

Görüşdə səhiyyə sahəsində əməkdaşlıq ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

# Ruben Vardanyanın məhkəməsində ifadələr dinlənilib

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 1-də davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş şəxs Səbuhi Tağıyevin hüquqi varisi Sərdar Tağıyev qardaşının Laçında düşmən atəşi nəticəsində həlak olduğunu bildirib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş Zəka Vəliyev qeyd edib ki, Xocalı rayonunun Xanabad kəndi ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılmış minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində Allahverdi Səfiyev və Elnur Kərimov həlak olub, o və Rəsul Ağayev isə müxtəlif növ bədən xəsarətləri alıblar.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş Vahid Alcanov bildirib ki, düşmənin genişmiqyaslı təxribatı nəticəsində Laçın rayonu ərazisinə atılan minaatan mərmisinin partlaması nəticəsində bir nəfər həlak olub, o və daha bir neçə şəxs yaralanıb.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş şəxs Elgün İsmayılov qeyd edib ki, Ağdərə rayonunun Gülyataq kəndi ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən avtomat silahlardan açılan atəşlər nəticəsində o və Səfər Hüseynquliyev xəsarət alıblar.

Zərərçəkən Bəxtiyar Hüseynov bildirib ki, Kəlbəcər rayonu istiqamətində düşmən tərəfindən atılan əl qumbarasının yaxınlığında partlaması nəticəsində xəsarət alıb. Təxribat zamanı ondan başqa yaralananlar da olub.

Zərərçəkmiş Nüsrət Orucov qeyd edib ki, Kəlbəcərdə düşmən tərəfindən atılan əl qumbarasının yaxınlığına düşüb partlaması nəticəsində çiynindən yaralanıb.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Cavid Xosiyev bildirib ki, Ağdam-Xocalı istiqamətində düşmən tərəfindən atılan minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində o və Cavad Quliyev müxtəlif növ bədən xəsarətləri alıblar.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş Nihad Seyidzadə vurğulayıb ki, Xocalı rayonu istiqamətində düşmən tərəfindən açılmış atəşlər nəticəsində o, Murad Hüseynov və Rəvan Ağazadə müxtəlif növ bədən xəsarətləri alıblar.

Zərərçəkmiş Bəylər Kərimov ifadəsində Ağdam-Xocalı istiqamətində düşmənin minaatandan açdığı atəş nəticəsində yaralandığını deyib.

Məhkəmə prosesi sənədlərin və cinayət işi materiallarında olan digər sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmənin növbəti iclası dekabrın 2-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.





# Vətən deyəndə...





# Müqəddəs amallar uğrunda şəhid olanlar əbədi yaşayacaqlar

**Vətən sevgisi, qoynunda dünyaya göz açdığın yurda məhəbbət insan qəlbinin ən xoş, ən ülvi duyğularıdır. Belə duyğular daim insanları qəhrəmanlığa, igidliyə və fədakarlığa səsləyir. Bu, daim vətən övladlarına məğlubedilməzlik hissi aşılayır. Gücünü və qüdrətini heç vaxt itirməyən Vətən sevgisi, doğma el-obaya məhəbbət kimi müqəddəs duyğulara köklənənlər daim torpaqlarının müdafiəsi naminə vuruşa, döyüşə hazır olurlar. Yurda düşmən hücumu olan kimi onlar silahlanaraq döyüşlərə, ata-baba ocaqlarının müdafiəsinə qalxırlar. Döyüşlərdə böyük igidlik və qəhrəmanlıq göstərərək düşməni məhv edirlər.**



27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda da elə oldu. Ürəyi, qəlbi Vətən eşqi, yurd təəssübü ilə döyünən igid oğullarımız Müzəffər Ali Baş Komandanın çağırışına səs verərək silaha sarılıb döyüşlərə yollandılar. Həmin gərgin günlərdə torpaqlarımızın erməni işğalından azad olunması uğrunda gedən əməliyyatlarda qəsbkarlarla vuruşanların sırasında kiçik çavuş Elçin Mirzəyev də var idi. Elçin də neçə illər idi ki, Qarabağın erməni işğalçılarından azad olunması uğrunda başlayacaq döyüşləri gözləyirdi. Ona görə də düşmən təxribatı nəticəsində müharibə alovlanan kimi cəbhə xəttinə getdi. Getdi ki, Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirsin. Yetirdi də.

### Elçin ömrünü hərbçi peşəsinə bağladı

Elçinin ömür yolunu vərəqlədik. Öyrəndik ki, Elçin Mirzəyev 31 iyul 1985-ci ildə Tərtər rayonunun Qərvənd kəndində dünyaya göz açıb. 1991-ci ildə kəndlərindəki orta məktəbin birinci sinfinə gedib. 2002-ci ildə kəndlərindəki orta məktəbi bitirdikdən sonra gələcəyin cəsur döyüşçüsü arzularının arxasınca gedərək Mingəçevir Tibb Kollecinin Ortopedik Stomatologiya fakültəsinə qəbul olub. Təhsilini uğurla başa vurduqdan sonra yaşıdları ilə bərabər ordu sıralarına çağrılıb. Vətən qarşısındakı müqəddəs borcunu şərəf və ləyaqətlə yerinə yetirərək valideynlərinin yanına alnıaçıq, başıuca qayıdıb. 2007-ci ildə sevib-seçdiyi Günel adlı qızla ailə həyatı qurub. Xidmət illərində doğma ordumuza sevgisi artan Elçin ömrünü hərbçi peşəsinə bağlamaq qərarına gəlib. 2014-cü ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Silahlı Qüvvələrimizin sıralarında xidmətə başlayıb.

2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayan kimi Elçinin də xidmət etdiyi bölüyü döyüşlərə cəlb ediblər. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını təmin edəcək əks-hücum əməliyyatında cəsur əsgər həmişə öndə vuruşub. Elçin Mirzəyevin döyüş yolu Talış kəndindən başlayıb Suqovuşan qəsəbəsində tamamlanıb. Elə ilk günlərdən o özünü igid, cəsur hərbçi kimi göstərib. Komandanlığın verdiyi bütün döyüş tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirib. Dəqiq atəş zərbələri ilə yurdumuza soxulan qəsbkarları məhv edib. Təəssüflər olsun ki, onun döyüş yolu uzun çəkməyib. Elçin bu qısa vaxt ərzində döyüşlərdə çoxlarının bacarmadığı igidlik və qəhrəmanlıqlar göstərib. Oktyabrın 10-da Suqovuşan ətrafında gedən döyüşlərdə verilən tapşırığı yerinə yetirərkən şəhid olub. Son döyüş əmrini də cəsarətlə yerinə yetirib. Üç gündən sonra yaxınlarının və döyüşçü yoldaşlarının işirakı ilə Yevlax şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb.

İgid döyüşçü kiçik çavuş Elçin Mirzəyev 44 günlük Vətən müharibəsində göstərdiyi şücaətə və qəhrəmanlığa görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

### Şəhidlik məqamına yalnız seçilmişlər ucalırlar

Şəhidin ailəsi ilə görüşüb xatirələri dinləmək üçün yaşadıqları ünvana üz tutduq. Qəhrəmanın ömür-gün yoldaşı Günel Mirzəyeva Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında xidmət edir. Elçin şəhid olduqdan sonra onun yolunu davam etdirmək üçün Müdafiə Nazirliyinin rəhbərliyinə müraciət edib. Müraciətinə müsbət cavab verilib. İndi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusudur. Elçin kimi o da kiçik çavuşdur.

Həyat yoldaşı haqqında danışan Günel xanımın səsindəki kövrəklik, qəhər bizi də duyğulandırdı, Günel xanım xatirələrini çözələyərək dedi ki, Elçin kimi bir qəhrəmanın, Vətəni canından da çox sevən bir insanın ömür-gün yoldaşı idi. "Həyat yoldaşım Vətən, torpaq uğrunda şəhid oldu. Biz onunla Mingəçevir Tibb Kollecində tanış olmuşduq. Çox keçmədi ki, bu tanışlıq məhəbbətə çevrildi. Ömrümüzün gözəl günlərini yaşayırdıq. 2007-ci ildə ailə qurduq, arzularımıza qovuşduq. Elçin hərbçi olmaq arzusu ilə yaşayırdı. Buna görə də ordu sıralarına həvəslə getdi. Diş texniki olduğundan xidmətə də sanitar təlimatçı kimi başlamışdı. Amma sonra xidmət sahəsini dəyişdi. Müharibə başlayanda sevinə-sevinə döyüşlərə yollandı. Arzusu uzun illərdən bəri işğalda qalmış torpaqlarımız uğrunda vuruşmaq idi. Talış və Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etdi".

Günel xanım daha sonra sözünə davam edərək bildirdi ki, Elçin demək olar ki, hər gün telefon əlaqəsi saxlayırdı. Qısa mesajlarında bunları yazırdı: "Bu Vətəni biz qorumalıyıq", "İrəli, irəli, yalnız irəli", "Bu işğala son qoyulacaq"... Göndərdiyi bu mesajlarla məndə də, qızlarında da ruh yüksəkliyi yaradırdı.

Günel xanım ötən illəri xatırlayaraq dedi: "Elçin mənim yalnız həyat yoldaşım deyildi, həm də ən etibarlı dostum, sirdaşım və dayağım idi. Ən əsası o mənə inanır, bütün arzularımın, istəklərimin həyata keçməsini istəyirdi. Mənim idealım olan Elçin elə də hündürboy, canlı, cüssəli deyildi. Amma qorxmaz, qoçaq, igid və bacarıqlı idi. Onun sinəsində Vətən sevgisi ilə dolu olan bir ürək döyünürdü. Bu gün mən qızlarımı atalarına layiq övladlar kimi formalaşdırmaq üçün əlimdən gələni edirəm".

### Biz mütləq qalib gələcəyik!

Döyüşçü yoldaşlarının dediklərinə görə, Elçin oktyabrın əvvəllərində də Talış kəndi istiqamətində gedən döyüşlərdə yaralanıb. Boynundan və ayağından qəlpə yarası alıb, xeyli qan itirsə də, döyüşdən çıxmayıb. Sonra onu hospitala göndəriblər. Hospitaldan özünün təkidli istəyi ilə oktyabrın 8-də çıxıb. Həmin gecə ailəsinə baş çəkib. Oktyabrın 9-da isə səhər tezdən döyüşlərə qayıdıb.

Günel xanım qəhər dolu səslə o günləri yada salaraq dedi ki, Elçinin çox mülayim çöhrəsi var idi. Müharibədə çəkdirdiyi şəkillərdə də, bir gecəlik evə gələndə də mənə elə gəldi ki, sanki üzündə sərtləşmə yaranıb, onda bir zəhm, qisas yanğısı peyda olub. Hətta danışığı da dəyişilmişdi. Hər kəlməsində qətiyyət, əminlik vardı. Hər sözünün başında: "Biz mütləq qalib gələcəyik" deyirdi.

Şəhid olan gün səhər saatlarında Elçin Mirzəyev həyat yoldaşına mesaj yazaraq hər şeyin qaydasında getdiyini, düşmənləri geri sıxışdırdırdıqlarını bildirib. Günel xanım deyir: "Mətbəxə keçəndə əlimdəki qab-qacaq yerə dağıldı. Ürəyim səksəndi, qəlbimdən ağrılı bir sızıltı keçdi. Sanki ürəyimin damarları qırılıb yerə düşdü. Özümdən asılı olmadan: "Neynəmisənsə halalın olsun, neyləmişəmsə halalın olsun" dedim. Saat 12-yə 25 dəqiqə işləyirdi. Elçinin nömrəsini təkrar-təkrar yığdım, zəng çatmadı. Narahatçılığımdan bir yerdə qərar tuta bilmirdim. Axşama kimi telefonuna zəng çatmadı. Ürəyimə dammışdı ki, Elçin şəhid olub. Lakin ürəyimə damanları dilimə gətirə bilmirdim. Axşam uşaqlarla birlikdə anamgilə üz tutduq. Gecə gözümə yuxu getmədi. Elçinin sonuncu dəfə evdən çıxanda dönüb geri qəribə baxışlarla baxması gözlərimin önündən getmirdi. Narahatlığımı, ağlamağımı görən bacıma gün ərzində Elçinlə əlaqə yarada bilmədiyimi dedim. Bacım mənə ürək-dirək verdi. Səhəri dirigözlü açdım. Qaynıma zəng vurub dünəndən bəri Elçinə zəng çatmadığını, çox narahat olduğumu bildirdim. Elçinin bizimlə əlaqə yaratdığı bütün nömrələri verərək bir xəbər öyrənməsini istədim. Çox çəkmədi ki, ürəyimin qəbul etmək istəmədiyi o bəd xəbər gəldi... Elçin şəhid olmuşdu..."

Elçin Vətəni kimi övladlarını da çox sevərmiş. Üçüncü qızı olanda lap çox sevinib. Dost-tanışlarına tez-tez deyirmiş ki, cənnətin qapısı üzümə açıldı. Sən demə, o cənnəti igidliyi, qəhrəmanlığı ilə qazanacaqmış.

### Qızlar atalarını özlərinə ideal seçiblər

Anasının danışdıqlarını səssizcə dinləyən Gülay üç bacının böyüyüdür. Atası şəhid olanda 6-cı sinifdə oxuyurmuş. Gülay atasının sonuncu gəlişini xatırlayaraq dedi ki, onda atamın hospitaldan evə gələcəyini az öncə öyrənmişdik. Tez plakatlar hazırlamışdıq: "Qarabağ Azərbaycandır!", "Bizim atamız qəhrəmandır!", "Səni çox sevirik, atacan!" yazmışdıq. O gecə atam evdə qaldı. Atamı o qədər qucaqladıq, öpdük ki. Səhər tezdən atam getdi. Əmin idik ki, düşmən üzərində Zəfər çalıb gələcəkdi. Amma atam bir daha qayıdıb bizi qucağına alıb əzizləmədi. Gedəndə demişdi ki, mən həmişə sizin yanınızda olacam. Atam bizi çox sevir və dərslərimizi yaxşı oxumağımızı istəyirdi. Tapşırıqlarımızı hazırlamağımıza da kömək edirdi. Yüksək qiymətlər alanda sevinirdi.

Günel xanım qızlarına şəhidlərdən, qəhrəmanlardan danışır. Şəhidlərin ölmədiyindən söz açır. Bildirir ki, atalarının da ucaldığı şəhidlik müqəddəs zirvədir. Anasının danışdıqlarını tam anlamayan beşyaşlı Aylinin qaşları çatılır. O da zamanında bu sözlərin ifadə etdiyi mətləbləri anlayacaq. Atasını qəlbində yaşadan Aylin "Atam kimi mən də diş həkimi olacağam", - deyir.

Gülay, Əsma, Aylin sevgi dolu bir ailədə doğulublar. Hər bir uşaq üçün ana evin hərarəti, övladlarının qoruyucu mələyi, ata evin dirəyi, uşaqlarının dayağı, qürur mənbəyidir. Atalarla övladlar arasında, ələlxüsus da atalarla qızları arasında bir başqa sehrli bağlılıq olur. Qızlar atalarını özlərinə ideal seçirlər. Elçin də belə ata idi. Bundan sonra da qızlarının xəyalında beləcə yaşayacaq. Onlar daim ataları ilə qürur duyacaqlar. Cismən yanlarında olmasa da, qəhrəman ataları, şəhid qızları olmaları ilə fəxr edib, başucalığı ilə həyat yollarına davam edəcəklər.

Dövlətimizin şəhid ailələrinə olan diqqət və qayğısından razılıqla danışan Günel Mirzəyeva şəhidləri ehtiramla anıb, ailələrinə xüsusi həssaslıqla yanaşdıqlarına görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlığını bildirdi.

Vətən hamımız üçün olduqca müqəddəs və əziz bir məkandır. Bu müqəddəs məkan uğrunda döyüşərək şəhidlik zirvəsinə ucalanlar tarix durduqca yaşayacaqlar. Tarix isə əbədiyyətlə yol yoldaşıdır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Daşkəsəndə Vətən müharibəsi şəhidləri ehtiramla yad edilmişdir

**Daşkəsənin Şəhidlər xiyabanında Vətən müharibəsi şəhidləri - əsgər Orxan Bəxtiyarov, əsgər Tural İsmayılov, kiçik çavuş Ramid Tağıyev və kiçik çavuş Asif Tağıyevin anım günləri keçirilmişdir.**



Rayon rəhbərliyinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, eləcə də ictimaiyyət nümayəndələrinin və şəhid valideynlərinin iştirak etdikləri tədbirdə şəhid məzarları ziyarət olunmuşdur. Rayon icra hakimiyyətinin başçısı Orxan Abbasov çıxış edərək şəhidlərin keçdikləri şərəfli döyüş yollarından danışmış, göstərdikləri igidliyin xalqımızın yaddaşında əbədi yaşayacağını bildirmişdir.

Şəhidlərin valideynləri və yaxınları onlara hər zaman göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Masallıda şəhidə həsr edilmiş "Dan yerinin sübhü" adlı kitabın təqdimatı olub

**Masallı şəhər Nizami Gəncəvi adına Mədəniyyət Mərkəzində rayon icra hakimiyyəti və Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin Masallı üzrə Mədəniyyət sektorunun birgə təşkilatçılığı ilə Pərvanə Ziyadovanın şəhid Sübhan Həsənova həsr etdiyi "Dan yerinin sübhü" adlı kitabının təqdimat mərasimi keçirilib.**



Tədbirdə rayonun rəhbərliyi, idarə, müəssisə, təşkilatların nümayəndələri, şəhid ailələri və müharibə veteranları iştirak ediblər.

Çıxış edən Masallı RİH-nin başçısı A.Əhmədov müəllifə şəhid adını uca tutduğu üçün təşəkkürünü bildirərək, Azərbaycanın qəhrəmanlıq salnaməsini yazan igidlərin şücaətindən bəhs edib. Sonra kitabın müəllifi P.Ziyadova şəhid Sübhan Həsənova həsr olunmuş kitab barədə ətraflı məlumat verib.

Tədbirdə çıxış edən şəhidin anası Ülkər Həsənova, şəhid atası Teymur Hüseynov, şəhidin döyüş yoldaşı Ceyhun Şiriyev və iş adamı Abdulla Abdullayev Sübhan Həsənovla bağlı xatirələrini bölüşüblər.

Sonda şəhidin bacısı oğlu Tunar Dadaşovun təqdimatında şəhidlərə həsr olunmuş şeir səsləndirilib, Masallı Dövlət Regional Kollecinin tələbələrinin və Masallı şəhər 5 saylı tam orta ümumtəhsil məktəbindən olan şagirdlərin təqdimatında kompozisiyalar təqdim edilib.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Şəhid övladları Türkiyədə qış düşərgəsində olublar

**Azərbaycan Kosmik Agentliyi nəzdində fəaliyyət göstərən KOSMİK Akademiyanın təşkilatçılığı, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin tərəfdaşlığı və Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) maliyyə dəstəyi ilə Türkiyənin Bursa şəhərində yerləşən "Gökmen Kosmik Aviasiya Təlim Mərkəzi"ndə (GUHEM) məktəbli şəhid övladlarının "Zəfər yolu" qış düşərgəsi keçirilib. Düşərgədə Azərbaycanın müxtəlif bölgələrindən olan 10 şəhid övladı iştirak edib.**

AZƏRTAC xəbər verir ki, proqram çərçivəsində onlar kosmos tədqiqatları, innovasiya, süni intellekt, yüksək texnologiyalar və praktiki STEM fəaliyyətləri ilə tanış olub, GUHEM-in inkişaf etmiş laboratoriyalarında müasir texnoloji alətlərlə işləyərək fərdi təcrübələr aparıblar.

Düşərgədə olduqları müddətdə iştirakçılar aviasiya və aerokosmik mühəndisliyin əsaslarına həsr olunan təlimlərdə iştirak ediblər. Mütəxəssislər onlara reaktiv hərəkətin prinsipləri, hava və raket mühərrikləri arasındakı fərqlər, həmçinin onların uçuş prosesində rolu barədə məlumat təqdim ediblər.

Təlimlərin praktiki hissəsində şagirdlər aerodinamika üzrə məşğələlərə qatılaraq qaldırıcı qüvvə, müqavimət və itələmə kimi uçuşu mümkün edən əsas prinsipləri sadə və interaktiv nümunələr üzərində öyrəniblər. İştirakçılar müxtəlif qanad modellərini sınaqdan keçirib və



öz kiçik uçan aparatlarını hazırlayaraq aerodinamik dizaynın uçuş performansına təsirini təcrübə yolu ilə araşdırıblar.

Həmçinin düşərgə müddətində iştirakçılar Bursa şəhərinin tarixi və turistik məkanlarını ziyarət edərək şəhərin mədəni irsi ilə yaxından tanış olublar.

Düşərgənin son günündə iştirakçıların mükafatlandırma mərasimi keçirilib.



# Vətən səmasından enməyən qəhrəman

**"Xalidi son dəfə müharibənin başlamasından üç gün əvvəl görmüşdüm. Çox yorğun və fikirli idi. Mənim arxa tərəfimdə oturmuşdu. Qəfildən dönüb üzünə baxanda anlaya bilmədiyim bir kədər gördüm. Baxışları qara buludlar kimi tutqun idi. Sanki nəsə olacaqdı. İçimə şübhə düşdü, hər hansı çətinliyinin olub-olmadığı ilə maraqlandım, heç nə demədi. Sonra öz otağına keçib telefonla danışmağa başladı. Düşündüm ki, yəqin istəklisidir. Bir ata kimi o xoşbəxt günün xəyalını da qurdum. Məni o gözəl günlərin düşüncələrindən bir neçə gün sonra gələn qara xəbər ayırdı..."**

Bunu AZƏRTAC-a müsahibəsində Vətən müharibəsi şəhidi, Dövlət Sərhəd Xidmətinin pilotu, baş leytenant Xalid Gözəlovun atası Həsən Gözəlov söyləyib.

O, fikirlərinə belə davam edib: "Üç qardaşın ortancılı olan Xalid çox mehriban, dözümlü, səbirli, təmkinli, vətənpərvər insan idi. Orta məktəbi bitirdikdən sonra ali məktəbə imtahan verərək, ödənişsiz əsaslarla Azərbaycan Texniki Universitetinə qəbul oldu. Lakin orada oxumadı, çünki hərbi sahəyə meyli var idi. Daha sonra sənədlərini Dövlət Sərhəd Xidməti Akademiyasına verərək istəyinə nail oldu. Aviasiya mühəndisi fakültəsində təhsil aldı. 2017-ci ildə akademiyanı bitirən kimi Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində xüsusi bacarığına görə leytenant rütbəsində pilot vəzifəsinə təyin olundu. 2019-cu ildə isə ona baş leytenant rütbəsi verildi.

Xalid uşaqlıqdan fəal və sağlam düşüncəli biri idi. O, asudə vaxtlarını fiziki və mənəvi cəhətdən güclənməyə sövq edən faydalı işlərə sərf edirdi. İdmanın güləş növü ilə məşğul olurdu. Saysız-hesabsız mükafatlar, medallar qazanmışdı. Hətta çempion da olmuşdu.

Son dəfə kiçik qardaşı ilə danışıb. Bizi ona əmanət edib, lakin bu barədə heç nə deməməyi bildirib. Ona zəng çatmasa narahat olmamağı tapşırıb. Telefonun enerjisinin tükəndiyini, adapterin Bakıda qaldığını, özünün isə Yevlaxda olduğunu deyib.

Biz Xalidin şəhid olması xəbərini qəfil aldıq. Xəbərə inanmadıq, bir yandan çaşbaşlıq, bir yandan puç olan arzular. Hər şey bir-birinə qarışmışdı, çünki onun müharibədə olduğundan xəbərsiz idik.

Sən demə, Xalid müharibənin ilk günündə Füzuli istiqamətində döyüşlərə qoşulub, elə orada da şəhadətə yüksəlib. Aldığımız xəbərin təsiri o qədər dağıdıcı oldu ki, hələ də özümüzə gələ bilmirik. Biz onun 24 yaşını noyabrın 4-də məzarı başında qeyd etdik. Xalid bir evdən yox, bir eldən gedən oğullardan idi..."

Qeyd edək ki, baş leytenant Xalid Gözəlov Hərbi Memorial Məzarlıqda dəfn olunub. O, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları ilə təltif olunub.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 13 iyun (Cümə axşamı günü) tarixli 203-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Cümə, 14 ramazanül-mübarək sənə 1337.
13 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## BAKI BƏHRİ-XƏZƏR İSTEHLAK "KOO PER ATSI YA" CƏMİYYƏTİ İDARƏSİ

Bununla elan edir ki, yekşənbə [bazar] günü, həziran ayının 15-də, səhər saat 11-də cəmiyyətin kontoru binasında (Qorça kovskaya, Saturov qardaşları evi) Bakı dairəsi kooperativ nümayəndələri iclasının mabədi [ardı] vaqe olacaqdır. Müzakirə ediləcək məsələlər:

1) Təzə məvaciblər; 2) Tifilişdəki kooperativ qurultayı barəsində məruzə.

İclas ikinci olduğundan, hər nə qədər üzv gəlmiş olsa, qanuni hesab olunacaqdır.

*10231*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

Azərbaycan Cümhuriyyətinin Dövləti Müdafiə Komitəsinin icbari qərardadı:

11 iyun 1919

I) Bütün Azərbaycan Cümhuriyyəti' idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] altında (vayenni palajeniye) elan olunur.

II) Aşağıdakı göstərilən cinayətlər ümumi məhkəmədən götürülüb məhkəmeyi-hərbiyyə qanunları mövcibincə [əsasında] hərbiyyə zamanı qanunları ilə mühakimə edilməkdən ötrü məhkəmeyihərbiyyəyə verilirlər:

1) Azərbaycan Cümhuriyyəti' hökuməti' əleyhinə üsyan;

2) Cümhuriyyət əleyhinə dövləti' xəyanət;

3) Azərbaycan Parla ma m rəisinin və hökumət rəisi ilə hökumət üzvlərinin hürriyyətinə və həyatına sui-qəsddə bulunmaq;

4) Əsgəri qaraqolvə əsgəri dəstələrə hücum etmək;

5) Hökumət məmurlarına müsəlləh [silahlı] müqavimət göstərmək;

6) Vəzifəli şəxsləri öz vəzifələrini ifa etdikləri zaman qətl, sui-qəsd, ağırxəsarət yetirmək;

7) Dəmiryolları, körpüləri və qeyri bu cür binaları, həmçinin su yolunu və başqa dövləti' əhəmiyyəti' olan teleqraf, telefon kimilərixarab etmək;

8) Evləri və taxılı yandırmaq;

9) Əsgərlərin əsgəri vəzifələrini xələldar etməyə [pozmağa] bais ola biləcək nitqlərin və təlifatın [əsərlərin] şifahən söylənib oxunması və ya nəşr edilməsi.

III) Aşağıda tədad edilən [sayılan] cinayətlər, həmçinin ümumi məhkəmədən götürülüb müqəssirlər zəbtiyyə [asayiş] qanunu mövcibincə məsuldurlar:

1) Əhalinin əlahiddə hissələri və sinifləri arasında və milli düşmənçiliyə bais ola biləcək hər cür xəbərlərin və şayiələrin camaata elan və nəşr olunması;

2) Hökumətin fəaliyyəti və binagüzarlıqları [sərəncamları] barəsində, əsgəri hissələrin əməliyyatı və milli bədbəxtliklər haqqında yalan şayiələrin və xəbərlərin hər vasitə ilə olur-olsun, nəşr edilməsi;

3) Birinci zəruri və ərzaq şeylərinin qiymətinin artmasında iştirak etmək və həman şeylərin hüsula gəlib satılması şəraiti ilə qiymətlərini həddən ziyadə artırmaq, şeyləri gizlətmək, satmamaq və ya üzürsüz bir surətdə satmaqdan imtina etmək.

IV) Qadağan edilirlər:

1) Məmurlardan icazə edilmədiyi halda siyasi bir ruhda izdiham edib mitinq tərtib vermək;

2) Hər cür silah, patron, mühimmatihərbiyyə [hərbi ləvazimat] və patlanğac şeyləri gəzdirib satmaq və saxlamaq.

Qeyd: Bu qanun Azərbaycan və Müttəfiq ordu əsgəri xidmətçilərinə öz silahlarını gəzdirməyə şamil deyildir.

V)

1) Bu icbari qərardad elan ediləndən qabaq silah gəzdirməyə və saxlamağa alınan icazənamələr öz qüvvələrini itirmiş olurlar.

2) Silah gəzdirib saxlamaq üçün təzə icazənamələr verilməsi quberniya daxilində qubernatorlara həvalə olunur.

3) Silah gəzdirməyə və saxlamağa təzə icazənamə almayanlar bu icbari qərardad elan edilən gündən üç günün müddətinə qədər özlərində olan hamı silahı yaxında olan əxzi-əsgər [hərbi çağırış] idarəsinə və ya polisəyə verməyə məcbur edilirlər. Əxzi-əsgər və polisə idarələri silahın ədədini, cinsini və nömrəsini göstərici qəbzi verməlidirlər.

4) Keçən maddədə göstərilən müddət qurtarandan sonra icazəsiz silah gəzdirməkdə bədgüman olunan [şübhələnilən] şəxslər polisə tərəfindən axtarılacaqlardır. Tapılan silah müsadirə edilib, müqəssirlər həmin icbari qərardadda göstərildiyi kimi zəbtiyyə qanunu mövcibincə məsul olacaq la rd ır.

V) Həmin icbari qərardadın III, IV və V hissələrində göstərilən qanunları xələldar etməkdə müttəhim edilənlər zəbtiyyə qanunu mövcibincə 50 min rublə cərimə edilirlər və ya 6 ayın müddətinə həbsə salınırlar.

VI) Həmin icbari qərardadda göstərilən hamı təlimatların ifasına nəzarət və zəbtiyyə qanunu mövcibincə məsuliyyətə cəlb etmək işi Şuşa, Cəbrayıl və Zəngəzur və Cavanşir uyezdləri [qəzaları] general-qubernatoruna, Daxiliyyə Nəzarətinin Qazax uyezdində olan xüsusi vəkilinə, Bakı, Gəncə və Zaqatal qubernatorlarına, Bakı qradonaçalnikinə, həmçinin Bakı Balaxanı-Sabunçu və Gəncə polismeysterlərinə və uyezdni naçalniklərinə [qəza rəislərinə] həvalə olunur. Generalqubernator, qradonaçalnik, qubernator və xüsusi vəkillərə müqəssirləri 10 min rublə cərimə və 3 ay həbsə almaq, polismeysterlər və uyezdni naçalniklərə isə 3 min rublə cərimə və 1 ay həbsə almaq ixtiyarı vagüzar edilir [verilir].

IX) Daxiliyyə Nəzarətinə həmçinin ixtiyar verilir ki, həmin icbari qərardadın III hissəsinin 1 və 2-ci maddələrindəgöstərildiyi üzrə, mətbuat işində müqəssir olanları cərimə etməkdən başqa, qəzetələri müəyyən bir vaxta qədər və ya həmin idareyi-örfiyyeyi-əsgəriyyə müddətincə dayandırsın.

X) Yuxarıda göstərilənlərdən başqa, əvvəlcə hökumət tərəfindən, həmçinin məhəlli [yerli] məmurlar tərəfindən verilən icbari qərardadlar bu qərardaddan sonra ləğv edilirlər. Ancaq iyunun 3-də əsgərlik vəzifəsindən imtina edənlər və əsgərlikdən qaçanları təqib etmək haqqında verilən qərardad, həmçinin Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur uyezdləri general-qubernatoru tərəfindən verilən qərardadlar öz qüvvəsində qalır.

XI) Bu qərardaddan sonra məhəlli məmurlar Daxiliyyə naziri tərəfindən təsdiq edilməmiş heç bir başqa qərardad verə bilməzlər.

XII) Həmin icbari qərardad "Azərbaycan" qəzetəsində dərc edilən gündən qanuni hesab edilir.

*Dövləti Müdafiə Komitəsi*
*Sədr: Nəsib bəy Yusifbəyli*
*Üzvlər: X[udadad] b[əy]*
*Məlikaslanov, A[slan] b[əy] Səfikürdski*

## TƏTİL VƏ NÜMAYİŞ

**Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən böylə bir dəvətnamə buraxılmışdır:**

Yoldaşlar, vətəndaşlar!

Əski imperator generalları əsirlikdən qurtaran millətləri rahat qoymaq istəməyirlər. Onlar təkrar hürriyyətləri ayaq altına alıb, xırda millətlərə əsirlik hazırlayırlar.

Denikin vətənimizi təhdid edir. O qara general bir tərəfdən başımızın altını yastıqlayıb, digər tərəfdən də suyumuzun üstünü kəsmək, bizi can damarımızdan tutmaq istəyir. Bu qara qüvvət daha Tehranda ikən başlarına "Quran" tutan məktəb uşaqlarına rəhm etməyən, Acara [Acarıstan] ilə Lazistanda yıxmadığı, yandırmadığı xan-iman buraxmayan qanlı Lyaxovlarla bizi təslimə çağırır. Sanki biz də Lyaxovdan qorxacaq, hürriyyət və istiqlalımızın müdafiəsinə candan keçən qəhrəmanlar deyil, namusunu ayaqları altına alan Xəlilovlar çıxaracağız.

Əvət, onlar öylə güman edirlər. Onlar düşünürlər ki, Azərbaycan heç bir müqavimət göstərmədən hürriyyət və istiqlal bayrağını öz əli ilə endirib, yerinə yüz ildən bəri bizim üçün bir zülüm və əsarət əlaməti olan çarizm bayrağını qaldırar. Fəqət Azərbaycan Hökuməti də, Parlamanı da dedi ki, bu olacaq iş deyildir. Hökumət kəndisinə tapşırılan istiqlalı göz bəbəyi kimi qorumağa and içmişdir. Hökumətlə Parlaman vətəndaşları mübarizəyə, hökumət ətrafında birləşməyə çağırırlar. İndi söz millətindir.

Bakı camaatı, bilxassə Bakının hürriyyətpərvər əmələləri [fəhlələri] hər zaman Azərbaycan xalqının siyasi pişrovları [öncüləri] olmuşlardır. Onlar bütün Azərbaycana bir fədakarlar və səbat nümunəsi təşkil eyləməlidirlər. Paytaxt əhli vilayətlərə örnək olmalı, candan, başdan keçməyə müheyya [hazır] olması ilə onlarda ümumi bir qeyrət və fədakarlıq oyatmalıdır.

İştə, ey yoldaş, ey vətəndaş! Bu gün sən bu vəzifeyi-həmiyyətini [namus borcunu, təəssübkeşlik vəzifəni] ifa etməlisən. Bu gün cümə günü, ayın 13-də mədən dairələri ilə şəhərdə ümumi tətil və nümayiş tərtib ediləcək. Bu nümayişlə xalq özünün Hökumət və Parlaman qərarı üzərində sabit durub, hürriyyət və istiqlalımızın müdafiəsini tələb edəcək və gərək olduğu zaman hökumətin ilk dəvəti vaqe olunca canını dəxi hürriyyət və istiqlal cananına verməyə bütün cahan qarşısında biət edəcəkdir.

Nümayiş tərtibi bərvəchiati [aşağıdakı kimi] olacaq:

Cümə günü, iyun ayının 13-də 1919[cu ildə] Balaxanı-Suraxanı əmələləri səhər saat 11-in yarısında şəhərə gəlirlər, Vağzal meydançasında və Mixaylov məktəbi qabağından keçərək Telefonnı və Budaqovski küçələrlə Balaxanski küçədən keçib saat 12-nin yarısında Hürriyyət meydançasında hazır olurlar.

Belı-qorod [Ağ şəhər], Çornı-qorod [Qara şəhər] fəhlələri saat 10-da Sovet Syezd xəstəxanası qarşısında olan meydanda yığılıb, oradan saat 11-də Telefonnı, Milyonnı, Malakanski, Budaqovski və Birjevoy küçədən keçib saat 12-nin yarısında Hürriyyət meydanında hazır olurlar.

Həmkarlar İttifaqları və siyasi firqələr səhər saat 10-da Parapetə cəm olub, Kolyubakinski, Mariinski,Tarqovı və Morskoy küçələrdən keçib saat 12-nin yarısında Hürriyyət meydanında hazır olurlar.

Bibiheybət və Bayılov Elektrik qüvvəsi meydanına cəm olub, oradan bulvara, nəqliyyat işləri işçilərinə qoşulub Olqinski, Baryatinski, Mariinski və Birjevoy küçələrdən keçib saat 12-nin yarısında Hürriyyət meydanında hazır olurlar.

Morskoy rayon saat 10-da Bulvara, "Fenomen" teatrosu qarşısına cəm olub, Bibiheybətdən gələnləri gözləyib, onlarla bərabər Hürriyyət meydanına gəlirlər.

Dəmiryol işçiləri saat 10-da Vağzal meydanına cəm olub, oradan Telefonnı, Budaqovski küçələrlə Hürriyyət meydanına gəlirlər.

Biləcəri işçiləri saat 10-da Hürriyyət meydanına cəm olur.

Yoldaşlar! Bu gün siz nümayişlərə iştirak etməklə vətənin müqəddəratı ilə nə dərəcədə əlaqədar olduğunuzu göstərəcəksiniz.

Vətəndaşlar! Siz bu gün vətən müdafiəsinə həsr olunan bu nümayişə iştirak etməklə müdafiə fikrinin nə qədər ümumi və vətəni bir fikir olduğunu hər kəsə bildirəcəksiniz.

Qoy bu gün milli bayraqları, müdafiə istəyən şüarları, milli nəğmələri və vətən nidaları ilə küçəyə çıxan əzmkar xalq göstərsin ki, Bakıda təslimə müheyya [hazır] deyil, son dərəceyi-imkana qədər çarpışmağa hazır bükülməz bir haqq qolu və dönməz bir istiqlal üzü vardır.

Əvət, ey azərbaycanlı qardaş! Bu gün sən evindən, eşiyindən çıx, nümayişlərə iştirak et də de ki:

Yaşasın Azərbaycan!

Qəhr olsun onun düşmənləri!

Var olsun müdafe [müdafiə edən] və mübariz hökumət!

*Mərkəzi Komitə*

## "DÜŞMƏN GƏLİYOR, MƏQSƏDİ İFNAYİ-VƏTƏNDİR!"

*([Əbdülhaq] Hamid)*

Əvət, gəlir. Bütün fəlakətləri ilə, zəncirləri ilə, süngüləri ilə gəlir. Məqsədi bizim gənc tariximizin səhifələrini qapamaq, yenidən bizi kabuslu, qaranlıq gecələrə düşürməkdir. Gəlir, bütün hirs və tamahı ilə, bütün mərhəmətsizliyi ilə, vicdansızlığı ilə gəlir. Fikiri bizim açıq, müqəddəs düşüncələrimizi, duyğularımızı qaralamaq, "göz bəbəyi kimi qoruyacağımıza" and içdiyimiz istiqlalımıza zərbələr endirməkdir. Lakin bizim istiqlalımıza qazdığı məzara bizmi enəcəyiz, yoxsa omu məğrur, kibirli başını endirəcəkdir? İştə bir sual ki, buna hərb allahı qovğa və mərdlik meydanında sonuncu cavab verəcəkdir. Türk milləti bu kimi meydanlardan çox görmüşdür. Fəqət tarix şahid olsun ki, heç bir türk qövmü kəndi ixtiyarı ilə, qansız, ölümsüz düşmən ayaqlarına əyilməmişdir.

Tarix qansız olmur. Bu yalnız bizim başımızda görünmədi. Bütün bəşəriyyətin məhkum olduğu bir həqiqətdir ki, hüquq qansız müdafiə olunmayır. Biz də tarixdə yaşamaq istədiyimizdən, bu böyük qanuna itaət ediriz. Fəqət yenə tarix şahid olsun ki, yarın qara Denikinin ordular ilə başlayacağımız mübarizədə müqəssir biz deyiliz, bizi udmaq istəyənlərdir.

Bu gün yenə türk qılıncı ilə şimal "meç"i, türk zoru ilə mürtəce rus zoru müsabiqəyə girişirlər. Birinin məqsədi əzmək, kəsmək, qəhr etmək, o birinin qayəsi hüdud və hüququnu müdafiə etmək, qəbul etdiyi qəsəmə, etdiyi əhdə sadiq qalmaqdır. Əgər mübarizə yalnız bu iki məqsədin mübarizəsi olsaydı, bizim köksümüzü qabardan istiqlal və hürriyyət fikirinin istila xülyasına əbədiyyən qalib gələcəyində şübhə qalmazdı. Lakin qovğa məslək mübahisəsi ilə deyil, sipərlərdə qurşun [güllə] və süngü ilə həll edilmək üzrədir. Azərbaycan türkləri vətənlərini müdafiə edərkən yalnız bir şey düşünürlər ki, o da ya qələbə, yaxud şərəfli bir ölümdür.

Aman, ya Rəbbi! Yenə qan, yenə qılınc!

Kimə lazımdır bu yeni qovğa? Əlbəttə ki, yalnız cəsədlərin qanını soran qara qarğalara. Millətlərin namusuna təcavüz edən qara qüvvələrə. Bu gün hürr və məsud yaşamağa başlayan ölkələrə yenidən top sədaları eşitdirmək, yenicə cift [cüt] və kotan arxasına keçmiş köylünü silah daşımağa məcbur etmək, babasının intiqamı üçün balaca yavrunu beşikdə məsum və mütəbəssim [gülümsəyərək] uyurkən xəncərləmək qədər vicdansız bir cinayətdir. Böylə bir cinayətə yalnız Denikin kimi çarlar asitanını [kandarını] öpməklə pərvəriş tapanlar [bəslənənlər] razı ola bilərlər.

Olsun, kim olursa-olsun, yaxlaşır, onu dəf etməliyiz. Bütün diplomasi qüvvələrimizi sərf edəlim, müstəqil bir dövlət olduğumuzu, qəyyumsuz yaşamağa haqlı olduğumuzu anlamaq istəməyənlərə sözlə anlatmağa səy edəlim. Qane olmazsa, labüd qalaraq Turanın o əski fəsih [açıq], bəliğ [təsirli], polad lisanına, hər kəsi iqnaya müqtədir qüvvəyə qılınca müraciət etməli olacağız. O zaman bütün cahani-mədəniyyət (əgər həqiqətən mədənidirlərsə) bu yeni müsadimənin [toqquşmanın] məsuliyyətini çar qüvvələrinin öhdəsinə atsın.

Əvət, millətin qərarı qəti və tərəddüdsüzdür. Üzərimizə gələnlərlə son damla qanımıza qədər çarpışacağız. Qoy bizi məhv etsinlər də, sonra bizi bağlamağa gətirdikləri zəncirləri vətənimizin yalçın qayalarına taxsınlar. Qoy istiqbal müvərrixi [gələcəyin tarixçisi] bizi yazarkən "Denikinə tabe oldular" deyə deyil, "Denikin onların cəsədləri üstündən keçdi" deyə yazsın. Əgər həpimiz doğrudan bu qərara gələrsək, əmin olalım ki, kibirli generalın macərapərəstlərdən ibarət "ordusu" qarşımızda sühulətlə [asanlıqla] məhv olub xam xəyalından əbədilik əl çəkəcəkdir. Yenə əski idealımıza "əzm və səbat" əsasına sadiq qalalım. Bu əsas bizi əsarət və qulluq zindanlarından çıxarıb şərəfli istiqlal bayrağı altına topladığı kimi, bu dəfəki bəklədiyimiz müxatirədən [təhlükədən] də müzəffər və qalib çıxaracaqdır. Gənc tariximiz bu birinci addımda bütün Azərbaycan vətəndaşlarını, gəncli-ixtiyarlı hüdudda görməlidir. Baxın, vətənimizin pak, müqəddəs üfüqləri şübhələrlə "Yenə mi qara buludlar?" deyə sorur [soruşur]. "Xayır, diyəlim, qara buludlar gəlmədən əvvəl biz sənin üfüqlərini kəndi qanımızla qızardacağız." Dinləyiniz, göylərdən şəhid babalarımızın ruhları "Silah başına!" komandası verir. Onu dinləməyən, naxələf olmazmı?

Əvət, hər kəs kəndi qəlbini, kəndi imanını imtahan edə bilər. Hüdud pək uzaq deyildir. "Vətəndaş" adlanmaq istəyənlərə meydan açıqdır. Baxalım, bu imtahandan nasıl çıxacağız? Məncə, mütləqə şərəfli, mütləqə müzəffər çıxacağız.

*Mən nə qu y əm ya səməndər baş, ya pərvanə baş*
*Çon bəfikri-suxtən oftadeyi mərdanə baş*

*Əli Yusif*

## TELEQRAF XƏBƏRLƏRİ

**Cənubi Rusiyada**

Cənubi Rusiyada Murman yollarını və Kolçak qoşunlarının hərb etdiyi dairələrdəki dəmiryollarını təmir etmək üçün Amerikanın güclü dəmiryol dəstələri oraya əzimət eyləmişdir [yola düşmüşdür]. Bu dəstəni iki Amerika kruvazeri [kreyseri] gətirmişdir.

**Ruslar Parisdə**

Parisdə 100 min nəfərdən ibarət olan ruslar qərar qoymuşlar ki, öz aralarından bütün bolşevikləri qovsunlar. Borisov tərəfindən nəşr edilən qəzetəyə bunlar külli miqdarda pul cəm etmişlərdir.

**General Kolçak**

İngiltərənin rəsmi mənbələrindən verilən xəbərlərə nəzərən, Rusiyanın hakimi admiral Kolçak çevirmə yol ilə tez bir zamanda Petroqrada yaxınlaşacaqdır. Eyni zamanda general Yudeniç qoşunlarına mülhəq olacaqdır [qoşulacaqdır]. Bolşeviklər bəyan edirlər ki, Kolçakın Petroqrada gəlməsi ilə Müttəfiqlər onu Rusiyanın hakimliyində təsdiq edəcəklərdir.

**Kiyevdə**

Bolşeviklər tərəfindən nəşr edilən "Krasnaya armiya" qəzetəsi xəbər verir ki, Kiyev dairələrində kəndçilər Şura qoşunları əleyhinə üsyan qalxızmışlardır.

**Bolşeviklərin məğlubiyyəti**

Kopenhagendən xəbər verirlər ki, estonların verdiyi məlumatdan anlaşılır ki, bolşeviklərin hücumu hər yerdə dəf edilmişdir. Altı günlük qızğın müharibədən sonra estonlar təzədən Rejeni işğal etmişlərdir. Bundan əlavə, Balisburq da onlar tərəfindən alınmışdır. Düşmənlər həyəcanla qaçmaqdadırlar.

**Sevastopol**

Kopenhagen Sevastopoldan yazırlar. Ukrayna Şurası xarici konsulların hamısına əmr vermişdir ki, bilatəxir [dərhal] Sevastopoldan çıxsınlar, zira onların hökuməti qəbul edilməmişdir.

## SÜLH ƏTRAFINDA

**Almanların tələbatı**

Paris Rəsmi surətdə xəbər verilir ki, almanlar Müttəfiqlərə təqdim etdikləri əks-təklifdə bəyan edirlər ki, Müttəfiqlərin sülh müahidənaməsi [sazişi] almanlar tərəfindən qəbul edilməyəcəkdir. Almanlar Müttəfiqlərdən ablukadan [blokadadan] xəsarətə düşdükləri üçün 12 bilyon [milyard] 850 milyon mark pul istəyirlər. Bu da əlbəttə Müttəfiqlərin tələb etdikləri məbləğə müqabildir.

Daniels Bəhri Komitəyə [Donanma Komitəsinə] təklif eyləmişdir ki, 16 zirehli, 10 kruvazer inşası tərk edilsin, tainki böyləliklə Amerika Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] etibarını izhar eyləsin [nümayiş etdirin]. Daniels əlavə eyləmişdir ki, dekabrdan etibarən övza [vəziyyət] dəyişmişdir.

**Müharibənin axırı**

Berlin Milli Müdafiə Komitəsi qərar qoymuşdur ki, mütarikə əqd edilib də [atəşkəs imzalanıb da] Rusiya ilə ticarəti əlaqə başlansın.

**Fiume məsələsi**

Paris Romada olan fransız səfiri İtaliyaya təklif eyləmişdir ki, Cəmiyyəti-Əqvamın mandatı ilə Fiumeni 1923-cü ilədək idarə eyləsin. Bu vaxta qədər Fiumenin bir neçə ağaclığında cənubi slavlar üçün yeni iskələ [liman] inşa edildikdən sonra Fiume qətiyyən İtaliyaya keçə biləcəkdir. Bu təklifə görə, İtaliya bu barədə danışığa girişməyə rizasını vermişdir.

**Berlində protesto mitinqləri**

Nauen Berlində iyunun 8-də təcavüzkaranə olan sülh müahidəsinin [sazişinin] əleyhinə böyük mitinq tərtib edilmişdir. Amerika, Misir, Hindistan, Türkiyə və Almaniya müstəmləkələrinin nümayəndələri nitq irad etmişlərdir [nitq söyləmişlər]. Bunlardan əlavə İran, Çin, Avstriya almanları, Saar və Reyn qitələri [bölgələri] nümayəndələri dəxi mitinqdə iştirak edib indiki müahidənaməyə protestolarını bəyan etmişlərdir.

**Müttəfiqlər Şurası**

Paris "Exo de Pari" qəzetəsi yazır ki, bu gün səhər Klemanso, Lloyd Corc və Vilson yığışıb Fransa, İngiltərə, Amerika arasında ittifaq əqd etmək üçün müzakirədə bulunmuşlardır. Bunlar sülh müahidənaməsini müdafiə etmək qərarını çıxarmışlardır.

## QƏZETƏLƏRDƏN

**Türküstanda**

Türküstandan gələnlər bolşeviklər tərəfindən Mərvin işğal edilməsi və orada olan əhvallar barəsində zeyldəki [aşağıdakı] məlumatı verirlər:

Mərv şəhəri Qırmızı qoşun tərəfindən mayın 21-də işğal edilmişdir. Şəhər təslim olmadan əvvəl əhaliyə təklif eyləmişlər ki, 3-4 saatda şəhərdən çıxsınlar. Əhalinin əksəri İrana əzimət eyləmişdir [yollanmışdır]. Şəhərdə qalanların çoxlarını dabravollar [könüllülər] atıböldürmüşlərdir. Bunların arasında İran və Gəncə quberniyasından gələn daşnaklardan vardır. Dabravollar şəhərə vərəqələr tökmüşlərdir. Bu vərəqələrdə denilir ki, Bakı və Tiflis dabravollar tərəfindən işğal edilmişdir. Ona görə də bir çox fərarilər [qaçqınlar] Bakıya gəlməkdən imtina etmişlərdir. Əhali Mərvdən qaçdıqda, Qırmızı qoşunlar türk dilində vərəqələr tökərək əhaliyə tövsiyə edirmişlər şəhərdən qaçmasınlar. Çünki onlar kimsəyə əziyyət etməyəcəkdir. Amma dabravollar intiqamından qorxaraq bir çoxları şəhərdə qalmağa cəsarət etməmişlərdir.

Mayın 24-də Şura qoşunları Aşqabadın 40 verstliyində olan Qoçan mövqifini [stansiyasını] işğal etmişlərdir. Şura qoşunlarının təcavüzünə davam etməyən [dözməyən] dabravollar qaçırlar.

Aşqabadı dəxi eyni zamanda dabravollar təxliyə edib Tazəşəhərə gəlmişlərdir. Mərv şəhəri məşhur Türküstan camaat xadimlərindən Kazım bəyin təhti-idarəsində [idarəsi altında] 6 min Qırmızı qoşunlar tərəfindən mühafizə edilir.

Dabravollar Bakı zabiti Axnazaryanın təhti-komandasında olurmuşlar. Bunlar qabaqlarına gələnləri atıb öldürürlər. Mərv ilə Aşqabadda yalnız müsəlmanlardan 6050 nəfər ölən vardır. Dabravollar arasında sabiq zabitlər və daşnaklar vardır. Bir çox daşnaklar pişəzvəqt [qabaqcadan] öz vətənlərinə getmişlərdir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

Maliyyə nazirinin yeni 100 rubləliklər buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Maliyyə nazirinə yeni 100 rubləlik buraxılması tapşırılsın.

- Posta və Teleqraf nazirinin yeni post markaları buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Post və Teleqraf nazirinin məruzəsi təsviblə [bəyənilməklə], müvəqqəti olaraq 6, 9,11 nömrəli markaları qəbul etməli.

- Maliyyə nazirinin Gəncədə Dövləti Bank [Dövlət Bankı] şöbəsi güşadı [açılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın. O vaxtadək 20 milyonluq fonddan Maliyyə Nəzarətinə məxaricat üçün istənilən məbləğin 1/12 hissəsi, yəni 43 933 rublə 33 qəpik buraxılsın.

## MƏMLƏKƏTİMİZDƏ ƏSGƏRLİK HƏYATI -2-

Dünənki məqaləmizdə əhalimizin əsgərliyə olan həvəs və iştiyaqı [şövqü] və məmləkətimizin də xüsusilə şu günlərdə əsgərə nə dərəcədə lüzumu olduğunu da bərtəfsil [ətraflı] anlatmış idik.

Şimdi əsgərliyi bir vücud fərz edərsək, o vücuda bir ruh və ruha da həyat bəxş [etmək] lazımdır. Yəni vücudun idaməsi [davam etməsi] yek-digərinin mütəmmimi olan [bir-birini tamamlayan] ruh və bir də həyatla qaimdir [sabitdir] ki, bu üç şey də bir-birinə ətəmmi-mütəmmimidir [bir-birini qüsursuz bir şəkildə tamamlayır].

Məsələn, vücuda hər halda bir ruh lazım olduğu kimi, ruha da bir nəşeyi-həyat istər. Əsgərliyə də ruh verən, əsgərliyin ruhunu oxşayan, əsgərliyə məziyyət verən, verdirən, əsgərliyi irəli götürən, əsgərliyi mərtəbeyi-ülyaya [ən uca mərtəbəyə] çıxaran və çıxartdıran ruhu oxşanmış, təkəmmül eyləmiş [kamala çatmış] adamlardır ki, bunlar da vətənin gənc və münəvvərrül-əfkar [aydın fikirli] olan adamlarından ibarətdir. Demək ki, quru qəfəs halında olan bir vücuda böyləcəsinə bir ruh verincə, olur ziruh [canlı] bir vücud, yəni sağlam bir vücud.

Bir vücuda həyat, yəni vücudu yaşatdıran şeylər ki bu da əsgərlikdə məlzəmə və mühimmati-hərbiyyə [hərbi ləvazimat] və sair vəsaitin əsbab və istikmalı [tamamlanması, mükəmməl olması] olub, ləhülhəmd [Allaha şükür], bunların həpsi də bizdə əlaqədrül-imkan [imkan daxilində] mövcuddur.

Türkiyədə sultanın sülaləsindən belə əsgərliyi olanlar [əsgərlik yaşı gələnlər] əsgərlik yapır. Netəkim, şahzadə Süleyman əfəndi mərhumun məxdumi-aliləri [böyük oğlu] Əbdülhəlim əfəndi həzrətləri Balkan müharibəsində yaralanaraq və yarasını tədavi etdirdikdən sonra təkrar müharibəyə getdi. Türkiyə kimi əski və böyük bir hökumətin xanədani-cəlilihökmdarisinə [cəlallı hökmdar ailəsinə] mənsub bir padşah övladı, bir şahzadə müharibəyə, əsgərliyə gedir və yara alırsa, bizim mühitimizdə bunlardan əsil, bunlardan nəcib və bunlardan mötəbər bir babanın övladı bulunduğunu təsəvvür edəmməyirəm.

Ancaq əsrdə bir fürsət əlimizə keçmişdir. Bunu sui-istemal [sui-istifadə] etməmək və bu fürsəti əlimizdən qaçırmamaq, Denikin istibdadı altına girməmək üçün ümumiyyətlə silaha sarılmalıyız. Hər dürlü mihən və məşaqqa [çətinlik və məşəqqətlərə] köks gərməliyiz. Bir daha o boyunduruğun altına girməməliyiz. Zira bir millət və hökumətin idameyi-həyat və haqqi-hakimiyyətə malikiyyəti əzm [ü] cəzm ü səbata [əzmli, qərarlı və mətanətli olmağa] və süngümüz ədədinə vabəstədir [bağlıdır].

Beş sənədən bəri xanəsindən ayrı, ata-babasından, çoluq və çocuğundan uzaq və qürbət aləmində hər növ məhrumiyyət qarşısında, hər növ səfalətə məruz və hər dəqiqə həyat və məmat [ölüm] təhlükəsinə məhkum, qanlı kəfənləri sırtlarında [əynində], qafaları qoltuqlarında gündə min dəfə həyatları ilə vida və canları ilə pəncələşərkən, baxüsus [xüsusilə] deyil Denikin kimi bir haydudbaşı [quldurbaşı], o müəzzəm [əzəmətli] Rusiyanın möhtəşəm orduları qarşısında 4-5 sənə Ərzurum dağları kimi dünyanın müncəmid məhəllində [buz bağlamış yerlərində] əsgərlik yapan və əlan da [indi də] yapmaqda olan türk qardaşlarımızı, o atababa övladlarını bir dəfə insaf və həmiyyətlə nəzəri-etibara alar və binnisbə [nisbətən] müqayisə edərsək, əcəba bizim burada və bu mövsümdə yapacağımızolan əsgərlik "Bulvar" bağçasındakı axşam piyasasına [gəzintisinə], Denikin ilə olan müharibəmiz isə sinema tamaşasına bənzəməzmi?

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 13 iyun (Cümə axşamı günü) tarixli 203-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Bu gündə zərrə qədər tərəddüd, zərrə qədər qeyrətsizlik nəticeyi-əliməsindən mütəvəllid [kədərli nəticəsindən doğulan] bir sui-təsirin, maddi, mənəvi və vicdani bir məsuliyyətin tərəttüb etdirəcəyi [meydana çıxaracağı] olan müstəlzim [lazımlı, lazım gələn] cəzanı yalnız maddi bir qanun və maddi bir mühakimə əmr etməyir! Ya? Bunu vicdani bir qanun və vicdani bir mühakimə əmr edir! Zatən daimi surətdə vicdanına məhkum olmamağa çalışanlar üçün ötədən bəri vicdan və insafından böyük bir mühakimə olmadığından dolayı, bu da doğrudan-doğruya böyük alçaqlıq və böyük qeyrətsizliklə töhməti hökm edir [böyük alçaqlıq və böyük qeyrətsizlikdə təqsirləndirilmək hökmünü verir]. Daha doğrusu, vicdanına millət və milliyyətinə məhkum olanlar, alçaqlıq, türkcəsi namussuzluqla müttəhimdir.

Haqqül-insaf, haqqül-vicdan mülahizə edən [insaf haqqını, vicdan haqqını nəzərə alan, insaflı və vicdanlı] bir insan müddəti-həyatının ən əziz qismi olan gəncliyinin bir-iki sənəsini əsgərliyə həsr edərsə, o insanın insanlığına, vücudunun da qiymətinə xələl gəlməz və biləks [əksinə], maddi-mənəvi, haqqi-dünyəvi və üxrəvi [bu dünyaya və axirətə məxsus] şərəf və səadəti ikmal edilər [kamilləşər, tamamlanar].

Bununla bərabər, bir adam ölüm təhlükəsini və əsgərlik səfalətini qalə alaraq [nəzərə alaraq], ölməyəyim deyə müharibəyə getməkdən, səfalət çəkməyəcəyim deyə əsgər olmaqdan çəkinərsə, böylə vahi [boş, mənasız] bir mülahizə qarşısında bulunan bir adamın aqibəti vəximdir [qorxuludur]. Az zaman keçmədən ölməyə və səfalətə düçariyyətə məhkumdur. Hər kim ki, əsgərlikdən qaçarsa, mütləq bir bəlaya giriftar olacaqdır. Əsgərlik xidmətində təmarüz edən [özünü xəstəliyə vuran], yəni yalandan xəstə olan, həqiqətən xəstə olacaqdır. Əsgərlikdən qurtulmaq üçün kəza [həmçinin] müharibədə də böylədir. Ataş xəttində qurşundan saqınan, canından, ölümündən qorxan mühəqqəq [mütləq] qurşuna hədəf olacaqdır.

Əlhasil, bunlardan qaçan iflah olmaz [qurtulmaz, salamat qalmaz]. Bunlar qəti və mütəəddid təcarüblə [çoxsaylı təcrübələrlə] sabit və inanmayanlar üçün də təcrübəsinə varmaq qolaydır.

Əsgərliyin məziyyəti [üstünlüyü], əsgərliyin ülviyyəti və məmləkət və millətə olan lüzum və əhəmiyyəti haqqında olan mütaliəm [fikirlərim] iki-üç məqalə ilə bitməz. Cənabi-Haqq ehsan edərsə, bir sırası gəldikdə sövqiyyati-əsgəri namından acizanə olaraq təlif edəcəyim [qələmə alacağım] olan kitabımda əsgərlik xüsusunda uzun-uzadıya bir mütaliə sərd edəcəyəm [fikirlərimi ifadə edəcəyəm].

Şimdilik bizə lazım olan şeyi, şimaldan bir kabusi-əlim [əzablı kabus] kimi çıxan bir qara bulud və o buludun altında uçan yırtıcı bir şahin quş təpəmizin üstə qonmaq və buluddan üzərimizə çökmək istəyir.

Ciddi bir təşəbbüsümüzlə mühitimizdən şəms tülu edər də [günəş doğar da] və bu ziyayi-şəmslə [günəşin işığı ilə] o şəmsin xütuti-şüası [şüasının xətləri] şimala doğru əks edincə bittəb [təbii olaraq] üzərimizə çökmək fürsətini gözətməkdə olan o qara bulud övni-Bari [Allahın köməyi] ilə zail [yox, məhv] və şahin də dəf olacaqdır.

Böylə təhlükəli bir zamanda tədbirli bulunmaqdan məqsəd övrət və uşaqlarımızı ayaq altında qoymamaq, millət və milliyyət və istiqlaliyyətimiz üçün çalışmaq xüsusunun mədlulu [mənası, məğzi] olan amal və əfalın [arzuların və əməllərin] tətbiqi və yeganə hədəfi-məqsudumuzun təyini, yenə övrət və uşaqlarımızı ayaq altında qoymamaq məqsədinin təmini və tərvici [rəvac verilməsi] keyfiyyətidir.

Millət və milliyyətinə, hürriyyət və istiqlaliyyəti ilə haqqi-hakimiyyətinə və mühafizeyi-mövcudiyyətinin təmininə sarılan bir millət heç bir vaxtda təərrüz [hücum] və təcavüzə məruz qalmaz, millət və milliyyətindən ayrılmaz və ayrılmayacağına da Cənabi-Haqq şahidi-adildir [ədalətli bir şahiddir]. Şu qədər var ki, "tələbna və cəddəna" hökmi-cəlilinin mənayi-fəyyazına nəzərən [uca hökmünün bərəkətli mənasına müvafiq olaraq], tədbirdə qüsur etməmək, iğfalata [qəflətə] qapılmamaq, az uyqu uyuyub və çox çalışmaq da şərt olub Bağdad tənbəli kimi arxa üstünə yatmaqla deyildir.

*Çubuqçuzadə Yusif Camal*

## BAKI XƏBƏRLƏRİ

**Əslihə tutulması**

Srağagün Parapet qarşısında olan erməni kəlisası [kilsəsi] altında olan anbardan külli miqdarda ləvazimat, saldat əlbisələri, xəstəxana mühimmatı gizləndiyi kəşf edilmiş və axtarış əsnasında bir çox əslihə [silahlar], pulemyot, külli miqdarda patron və qeyriləri tapılmışdır. Həmin əşya və ləvazimat arabalarla kəlisadan başqa bir yerə aparıldıqda görülüb lazımi yerinə bildirilmişdir. Bundan əlavə, Suraxanski küçədə xəzinəxana yanındakı bir anbarda dəxi külli miqdarda əslihə, tüfəng, patron və qeyri patlanğac şeyləri tapılmışdır. Şeylərin hamısı zəbt edilmişdir.

**Səfərbərlik**

Əhvali-hazirədən dolayı yeni əsgərlər dəvəti müvəffəqiyyətli surətdə davam etməkdədir. Hər gün Bakı qəzası kəndlərindən külli miqdarda cavanlar kamalişövq və həvəslə dəstələrlə nəğmələr oxuduqları halda Əxzi-əsgər [Hərbi çağırış] idarəsinə gəlib, oradan naçalnik idarəsi qarşısına gedirlər. Küçələrdən keçdikdə bir çox camaat onları alqışlayıb yola salırlar. Ələlümum [ümumiyyətlə], axır vaxtlar cavan əsgərlərdə böyük təəssüb və vətənpərəstlik hissi oyanmışdır ki, bunu səmimi surətdə təqdir və təbrik etməmək qeyri-mümkündür.

**General Xəliiov[un] qardaşının tövqifi**

Dağıstanda böyük xəyanətlərdə bulunub və camaat tərəfindən ölümünə qəsd edilən general [Mikayıl] Xəlilovun qardaşı neçə gün bundan əqdəm [qabaq] Bakıya varid olmuş [gəlmiş] və burada hökumətin binagüzarlığı [sərəncamı] ilə srağagün təhərri polisfi] [axtarış polisi] tərəfindən tövqif [tutulmuş] və həbs edilmişdir.

**Ağa bala Quliyevin tövqif edilməsi**

Srağagün bazarda Bakı tacirlərindən olan məşhur Ağabala Quliyev müfəttinanə [araqarışdıran] sözlər söylədiyi üçün camaat tərəfindən döyülüb və nəhayət polis tərəfindən tövqif [tutulmuş] və həbs edilmişdir. Quliyevin böylə hərəkatı camaatın böyük bir nifrətini mövcib [nifrətinə səbəb] olmuşdur. Quliyev açıqdanaçığa hökumətin əleyhinə və Denikin ordusunun lehinə olaraq təbliğat və təşviqatda bulunurmuş.

**Artistlər arasında**

Hacıbəyli Qardaşları Müdiriyyətinin ümum artistləri vətənimizi təhdid edən Denikin təhlükəsi münasibətilə fövqəladə iclasa cəm olub qərar qoymuşlar ki, lazım olan vaxtda şəhərin əmnü asayişini [təhlükəsizlik və asayişini] saxlamaq üçün bir xüsusi könüllü dəstəsi təşkil etsinlər. İşbu könüllü dəstəsinə bütün səhnə həvəskarları, qanuna görə əsgərliyə düşməyən ailə pərəstarları [himayələrində ailə olanlar], cavanlar, 30 yaşından 50 yaşına qədər ziyalılar və müəllimlər qəbul olunurlar. Könüllü dəstəsinə yazılmaq istəyənlər cümə günü, iyunun 13-də gündüz saat 4-də Şah məscidinə müraciət edə bilərlər. Bundan əlavə, təfsilat üçün Qubernski küçədə 43 nömrəli evə müraciət etməli.

**Həbsdən azad**

Bakı qalabəyisinin binagüzarlığına [sərəncamına] görə, neçə gün bundan əqdəm [qabaq] oğlanlarını gizlətməkdə müttəhim və Mərkəzi Həbsxanada həbs edilmiş olan Bakı sakinləri Hacıpaşa Ağababa oğlu və Ələkbər Məşhədi Nəcəf oğlu oğlanları yenidən əsgərliyə gəldiklərindən həbsdən azad edilmişlərdir.

**Pristav və müavinindən şikayət**

Bakıda sükunət edən [yaşayan] Malışev qubernatora bir ərizə verərək məlum etmişdir ki, 4-cü uçastok pristavı Kəri mbəyov və müavini Axundov kəndi xidmətlərindən sui-istifadə edərək bir çox şikayətçilərdən rüşvət istəyirlər. Qubernator həmin şikayəti təhqiq etmək üçün qalabəyinə [komendanta] göndərmişdir.

**Teleqraf xəttinin qırılması**

Posta və Teleqraf İdarəsi Bakı qubernatoruna məlum etmişdir ki, Keşlə ilə Biləcəri mövqifləri [stansiyaları] arasında olan teleqraf xətti naməlum şəxslər tərəfindən qırılıb və bundan naşi [buna görə], Tiflis ilə Bakı arasında teleqraf müxabiratı [rabitəsi] kəsilmişdir. Müqəssirləri axtarmaqdan ötrü qubernator tərəfindən ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Tövqif və həbs**

Bakı qalabəyisinin binagüzarlığına görə, Bakıda sükunət edən Qubanov və Şvars ümumi asayişi pozmaqda müttəhim edilərək bir ay müddətinə həbsə alınmışlar.

**Klubun qapanması**

Qalabəyinin binagüzarlığına görə, Bakıdakı "Ermitaj" klub külli miqdarda qumar oynanmasına icazə verdiyi üçün qapanmışdır.

**On milyon istiqraz**

Məclisi-Məbusan tərəfindən qərardad edildiyinə görə, Hökumət Bakı Bələdiyyə İdarəsinə on milyon manat miqdarında istiqraz [borc] buraxmışdır.

**Şirvan-Kürdəmir**

Posta və Teleqraf İdarəsi xəbər verir ki, Bakı-Şirvan-Kürdəmir arasında posta və teleqraf müxabiratı [rabitəsi] başlanmışdır.

**Fəhlə həyatından**

İyunun 9-da Balaxanada Türk ƏdəmiMərkəziyyət "Müsavat" firqəsinin mərkəzi şöbəsinin ümumi iclası vaqe olmuşdur. İclasda ümumi mədən dairələr[in]dən və yaxın kəndlərdən nümayəndələr hazır olaraq Könüllü ordunun Dağıstan və Azərbaycan üzərinə qəsd və hərəkət etməsi məsələsi müzakirə edilmişdir. Bir çox müzakirədən sonra, iclas Bakı və ətrafı müsəlman əmələlərinin var qüvvələri ilə və son nəfəslərinə qədər qara irticai [mürtəce] qüvvələrlə çarpışıb Azərbaycan istiqlaliyyətini hər bir təhlükədən müdafiə və mühafizət edəcəklərdir.

**Türk müəllimlərinin ümumi iclası**

Həziran [iyun] 13-də, cümə günü axşam saat 5-də Şah caddəsində, Üçüncü ali-ibtidai məktəbində türk müəllimlərinin ümumi iclası vaqe olacaqdır. Heç kəsə xüsusi vərəqə və dəvətnamə göndərilməyəcək. Buna binaən [buna görə], hamının şu elan ilə kifayələnib gəlməsi rica olunur. Əgər saat 5-də üzvlərin az gəlməsindən dolayı məclis baş tutmasa, saat 6-da həman gün ikinci iclas hər nə qədər üzv olmuş olsa, qanuni hesab ediləcəkdir. Məsələlər mühüm olduğuna görə, hamının gəlməsi vacib və əlzəmdir. Şunu da əlavə ediriz ki, bu, tədris sənəsinin axırıncı ümumi iclasıdır. İclasda Dağıstan müəllimlərinin nümayəndələri məruzə oxuyacaqdır.

*İttifaq idarəsi*

**İstehlak Cəmiyyətində**

Bakı İstehlak Cəmiyyəti CəmiyyətiXeyriyyəsi bununla cəmi üzvlərinə elan edir ki, bu iyun ayının 15-də saat 5-də cəmiyyətin ümumi iclası vaqe olacaqdır. Hamı üzvlərin gəlməsi rica olunur.

Kraynı Krivoy küçə, Birinci Kantapinskinin küncündə, nömrə 120.

**Yeni Maarif naziri**

Sabiq Dağıstanlılar Cümhuriyyəti Maarif naziri Şahsüvarov Azərbaycan Cümhuriyyəti Maarif nazirliyinə təyin edilmişdir. Şahsüvarov həzrətləri dünəndən etibarən öz vəzifəsi ifasına şüru etmişdir [başlamışdır].

**Aşqabadın süqutu**

Şəhərdə dövran edən şayiata [şayiələrə] və Tazəşəhərdən qaçanların dediklərinə görə, srağagün Aşqabad bolşeviklər tərəfindən işğal edilmişdir.

**Fəhlə Konfransının divan irəyasəti tərəfindən**

Fəhlə yoldaşlar! Bakı Fəhlə Konfransının divani-rəyasətinin qərarına görə, bu gün iyun ayının 13-də, sübh saat 8-dən axşam saat 6-dək ümumi tətil elan edilir. Bu gün hamı əmələlərin borcudur ki, var qüvvələrini sərf edib və qırmızı bayraqlar altına cəm olub öz qüvvələrini düşmənlərinə, xarici və daxili əks-inqilabçılara göstərsinlər. Nümayişlərin üsulu elannamələrdə göstəriləcəkdir.

Əmələ Konfransının divani-rəyasəti

**Bələdiyyə İdarəsində**

Neftçilər İttifaqı Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, Bələdiyyə İdarəsi firmalar tərəfindən veriləcək vergilərin verilmə[mə]si təqdirində onlara 12% əlavə təyin edirmiş. Halbuki firmalar şimdi mal mübadiləsi olmadığından naşi [olmadığına görə], fəqət [sadəcə] hökumət tərəfindən verilən istiqrazla [borcla] öz işlərini aparırlar. Hökumət isə, Bələdiyyə İdarəsi vergiləri üçün firmalara borc verməyir. Binaənileyh [ona görə], vaxtlı-vaxtında vergilər verilməzsə, onlardan əlavə alınmasın.

Bələdiyyə İdarəsi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, Bələdiyyə İdarəsi tərəfindən məsai borsası [əmək birjası] təsis edilmişdir. Bələdiyyə İdarəsi xəzinəsinin fəna əhvalından naşi rica edilir ki, həman borsa məxaricatının şəhər öhdəsindən dövlət öhdəsinə götürülməsi haqqında Vükəla Şurasında [Nazirlər Kabinetində] məruzə verilsin.

## ZİYALILAR İTTİFAQINDA BİR GÜN

Bu gün Azərbaycan mühitində tək bir duyğu, tək bir düşüncə hökmrandır: Bir əsri mütəcaviz [bir əsrdən artıq] illərdən bəri həsrət və iştiyaqla [şövqlə] bəslədiyi hürriyyət və istiqlalına qovuşaraq onu çılğın, pərəstişkar bir aşiq qısqanclığı ilə, hirs [tamah] və iştaha ilə parlayan yabançı gözlərdən saxlamaq!

Əvət, hər guşədə əlində silahla əsgəri təlim yapan kiçik yavruların, kümə-kümə təlim meydanlarına qoşan gənc, ixtiyar adamların, ziyalı məclislərin, bütün məhafilin [dairələrin] səmimi təzahürlərinin ruhu bu tək bir əndişədən doğmuşdur.

Gənc Azərbaycanın qəlbi bu günün təhlükəsini hiss etmiş, əhəmiyyətini təqdir etmiş, qorxunc bəlanı tərd etməyi [qovmağı] yeganə qayə edinmiş...

Həqiqətən, bir millət böyük bir fəlakət, qorxunc bir təhlükə qarşısında bulunduğu zaman fərdlərin ruhunda yalnız milli bir şəxsiyyət yaşar, bütün ruhlarda bu milli şəxsiyyəti idamə etmək [davam etdirmək] arzu və iştiyaqından [şövqündən] başqa bir hiss qalmaz. Bu həngamədə [bu zamanda] fərdlər özlərini deyil, yalnız millətlərinin istiqlaliyyətlərini düşünərlər.

İştə, bütün qəlbləri bir qəlb yapan bu böhranlı dövrə, bütün iradələrin susaraq ümumi bir iradənin hakim olduğu bu həngamə [bu zaman] müqəddəs "ilqah"lar [aşılamalar, peyvəndlər] dövrəsidir... Binaənəleyh [ona görə], bütün fərdlərin müfrit, qələyanlı, şədid [ifrat, coşğun, şiddətli] bir həyat yaşadıqları bu anlarda onların ruhları üzərində yapılacaq ictimai, məfkurəvi təlqinlər əbədi, layəmut [ölümsüz] qüdrəti haizdirlər [daşıyırlar].

Bu böhranlı anlar, millətləri səadətə isal edən [çatdıran] bu xaliq qüvvətlər ciddən nə qədər qiymətlidir. Məfkurələrin doğduğu bu anlarda bütün mütəfəkkirlər, ədiblər, şairlər, ziyalılar onu bəslərlər. Ən məqul [ağlabatan] vasitələri ararlar, bularlar, yəni ictimai həyatı tənzim edərlər [nizamlayarlar].

İştə, biz bu gün o böhrani dəmləri yaşayırız və həpimiz bizi müqəddəs və yüksək məfkurəmizə isal edəcək [çatdıracaq] böyük qüdrətin "istiqlalımız" olduğunu bilərək, uğrunda pək böyük fədakarlıqlar yapmağı ataşli, hummalı bir surətdə [çılğınlıqla] təsəvvür ediriz.

Hər yerdə və bilxassə Ziyalılar İttifaqının şayani-şükran [təşəkkürə layiq] olan 9 iyun iclasının təzahüratında görüldüyü üzrə hiss, həyəcan və eşq içində və pək ülvi bir hüsnniyyətlə çalışmaq istəyiriz. Fəqət qardaşlarım, etiraf edəlim ki, həpimiz hiss və həyəcanın təhti-təsirində [təsiri altında] şaşırır kimiyiz. Məfkurələrimiz bir, amma onun istehsalı [əldə edilməsi] üçün təyin etdiyimiz vasitələr nöqsandır, təmini-məqsəd edəmməz. Binaənileyh, bəndəniz məfkurəmizi ancaq şu iki qüvvətlə istehsal edəcəyimizə qaneyəm: fikir və barut! Yəni dimağı [başı] işlədərək və qan axıdaraq!

Hərb millətlər üçün məşum bir zərurətdir. Biz də dərhal hərbə hazırlanmaq məcburiyyətindəyiz. Hazırlanmaq gərək hökumət, gərək millət tərəfindən bəzi təşkilat yapılmaqladır. Hökumətin təşkilatı, müəssisatı ona aid, müəyyən və sabitdir və ordu hərb halında bulunduğu zaman qonaqlar [imarətlər], anbarlar, xəstəxanalar və sairə kimi mənzil təşkilatı ilə əsgəri bəslər, şəfayab edər [sağaldar]. Fəqət bu müəssisati-rəsmiyyə [rəsmi qurumlar] na kafidir [kifayət etməz]. Millət tərəfindən bu rəsmi təşkilatı təqviyə və itmam edəcək müəssisat [gücləndirəcək və tamamlayacaq qurumlar], əzcümlə [o cümlədən] Müdafiyeyi-Milliyyə [Milli Müdafiə], Hilali-Əhmər [Qırmızı Aypara] cəmiyyətləri təşkil edilməlidir. Müdafiyeyi-Milliyyə sərvətlilərdən, xeyir əshabından [xeyir sahiblərindən] para toplayaraq, sənətkarlar yığaraq özünə tabe sənətxanalar, emalatxanalar vücuda gətirər və əsgər üçün yazlıq, qışlıq paltar, içlik tikdirər və xaricdən toplar, əsgərə, cəbhəyə hədiyyələr göndərər. Hilali-Əhmər də bir şəhərin yaxud şəxslərin verəcəkləri paralarla xəstəxanalar təsis edər, xəstəbaxıcıları yetişdirər, ailə və övladi-şühəda [şəhidlərin ailə və uşaqları] üçün eytamxanaları [yetimxanaları], aşxanaları vardır.

İştə, millət bu təşkilatı vücuda gətirərək yardım etməklə bərabər, Azərbaycan istiqlalını təhlükəyə düşürəcək hərəkətdə bulunan hər şəxs, düşmənə acentəlik edənləri, yalan xəbərlər çıxaranları, əsgərlikdən qaçanları dərhal və bilamərhəmət [rəhm etmədən] hökumətin üzvlərinə xəbər verməк, fərdlər arasında sarsılmaz məhəbbətlər təsis etmək, düşkünlərə və bikəslərə şəfqət və mərhəmət hissləri oyandırmaq kimi ən müqəddəs vəzifələri fərdən [fərd olaraq] yapar. Fəqət məəttəəssüf [təəssüf ki], hənuz ictimai həyatdakı vəzifələrinin əhəmiyyətini təqdir edəmməyən bəzi əfradi-millətə [millətin bəzi fərdlərinə] bunların qüdsiyyətini öylə bir surətdə təlqin etməli ki, ən əziz və ən təbii birər vəzifə bilsin. Bunun üçün şimdiki zamanlar əsla qaçırılmayacaq fürsətlərdəndir.

Binaənileyh, ziyalı qardaşlarım, Müdafiyeyi-Milliyyə, Hilali-Əhmər təşkilatına başlamaqla bərabər, qüdsi fəzilətləri təlqih [aşılamaq] və təlqin üçün xalqa konfranslar verməliyiz.

Həpimiz konfranslarımızda sabit bir səciyyə, qüvvətli bir imanla yalnız istiqlalımızı düşünməliyiz.

*Həsən M. oğlu*

## GÜRCÜSTANDA

**Könüllü orduya mühimmati-hərbiyyə aparılması Gürcüstanda qadağan edilmişdir**

Gürcüstan Hökuməti Gürcüstan dairəsindən Könüllü ordu üçün mühimmati-hərbiyyə [hərbi ləvazimat, sursat] aparılmasını qadağan etmişdir. Gürcüstan Cümhuriyyətinin zirehli qatarları bu binagüzarlığa [sərəncama] əməl edilməsini təqib edirlər. İndiyə qədər Qarsdan göndərilən bir neçə vaqon patronu tutmuşlar.

**Gürcüstan heyəti İtaliyaya gedəcəkdir**

Bir para əhəmiyyətli siyasi və iqtisadi məsələləri məhəllində [yerində] həll eyləməkdən ötrü bu yaxın vaxtlarda İtaliyaya Gürcüstandan xüsusi bir heyət gedəcəkdir. Heyətin kimlərdən ibarət olacağı hələ məlum deyildir.

**Çxeidze və Seretelinin məktubu**

Parisdə bulunan Gürcüstan sülh heyəti üzvləri [İrakli] Sereteli və Çxeidzedən bu məzmunda məktub alınmışdır. Məktubu eynilə dərc etmək mümkün olmadığından, bəzi yerlərini yazırız.

Nümayəndələr yazırlar ki:

Gürcüstan istiqlaliyyətinin təsdiq olunması məsələsi üçün nərəyə müraciət ediriksə, bizə artıq dərəcə hüsn-təvəccöh göstərirlər. Bizə deyirlər ki, Gürcüstan istiqlalının təsdiq edilməsi məsələsi o qədər aşkardır ki, onun qəti surətdə həll edilməsi heç bir mübahisəyə bais olmayacaqdır. Fəqət hələlik Konfransda xırda millətlərin müqəddəratı məsələsi müzakirə edilməmişdir.

Nümayəndələr axırda əlavə edirlər ki, Gürcüstanın daxili təşkilatı mühafizə edilməlidir. Gürcüstan istiqlaliyyətinin təsdiqi məsələsində Parisdən heç bir xətrə [qorxu, təhlükə] yoxdur.

## TEATRO VƏ MUSİQİ

Zamanın əhəmiyyətini və teatronun baxüsus [xüsusilə] bu günlərdə camaata qarşı mənfəətini nəzərə alaraq, bundan belə əhya günlərindən başqa hər həftə cümə günləri Hökumət Teatrosunda teatro tamaşaları göstəriləcəkdir. Bu gün, cümə günü, axşam həman teatroda Üzeyir bəy Hacıbəyli cənablarının yazmış olduğu "O olmasın, bu olsun" operettası mövqeyi-tamaşaya qoyulacaqdır. Tamaşa axşam saat 8-də başlanacaqdır. Biletlər teatrın kassasında satılmaqdadır.

## İZHARİ-TƏŞƏKKÜR

Gəncə vilayəti Türk Müəllimlər və Mütəallimləri İttifaqı hümməti ilə 1919[cu il] mayıs ayının 23-də 25 sənəlik xidməti-acizanəmə mükafat olaraq tərtib verilmiş yubileyaya iştirak edib uzaqdanyaxından, bizzat yaxud bilvasitə bəndənin haqqında lütf buyurub təbrik edən, hədiyyə əta qılan müəssisələr, cəmiyyətlər, firqələr, ittifaqlar və qeyrilərinin hüsntəvəccöhlərinə qarşı səmimi təşəkkürlər edirəm. Ələlxüsus Heyəti-Vükəla Rəyasəti, Parlaman Heyəti-Rəyasəsi və Maarif Nəzarəti canibi-aliləri tərəfindən təbrikən sərəfraz olduğumdan naşi [təbrik edilməklə başım uca olduğu üçün] ərzi-ehtiram və izhari-təşəkkür edirəm.

Yubileyamın tərtibinə səbəb olan Gəncə Müəllimlər İttifaqı ilə Bakı Türk Müəllimlər İttifaqı, Şəki Türk Müəllimlər İttifaqı, Ərəş Türk Müəllimlər İttifaqı, QazaxTürk Müəllimlər İttifaqının nəzər-diqqəti cəlb edəcək dərəcədə yubileyama iştirak edib bəndəni məmnun etmələrinə mədyun [minnətdar] olmaqla, təşəkkürlər edirəm.

Öylə fövqəladə surətdə şənlik günü Azərbaycan istiqlalımızın feyzi olmaqla, digər müəllim arxadaşlarım üçün də təşviq və tərğib [həvəsləndirici və rəğbətləndirici] idi. Əlbəttə ki, müəllimlik təqdir olunarsa, maarifimiz tərəqqi tapar, maarifin irəliləməsi ilə istiqlalımız paydar [paydar] olar. Cənabi-Haqdan istiqlalımızın sənələrcə yaşaması ilə, onu yaşatmağa birinci amil olan müəllim arxadaşlarımın müvəffəqiyyətlə yaşayıb məsud olmalarını diləərəm.

*Abbaszadə Abbas*


**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əm razı-daxil iyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsabiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov [a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkel şteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Şüvəlanda**

6 otaqlı bir bağ icarəyə verilir. Xahiş edənlər Çadrovı küçə, 200 nömrəli evə saat 3-dən 5-dək müraciət edə bilərlər.

*10230*

**Satılır**

Mebel, stilnoy yatacaq, stalovı, lednik, kuşetka və yaylaq setka kravatları. Bandarnaya, nömrə 93, mənzil nömrə 11, paradnı qapı.

*10232*

Moskvada təcrübə görmüş diş həkimi **K.S.Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Diş həkimi R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinand) n aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Petroqraddan gəlmiş doktor İshaq Avetisovİç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrarj yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Berlin Darülfünunu doktoru S.İ.Kopeliovİç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. VƏ 93.

*8765*

**İstanbuldan, İngiltərədən və Fransadan mallar**

İ. V. Denisovun bankir kantorası İstanbula, Marselə (Fransa) və Liverpula (İngiltərə) mal alıb gətirmək üçün nümayəndə göndərir. Sifarişlər İ. V. Denisovun bankir kantorasında qəbul olunur (Nikolayevski və Olqinski küçələrin küncündə) hər gün axşam saat 5dən 7-dək.

*10210*

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*


***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Qismi-rəsmi***

"IX) Daxiliyyə Nəzarətinə həmçinin...": VIII maddə (əslində VII maddə) qəzetdə buraxılmışdır. Daha ətraflı məlumat üçün qəzetin 204-cü nömrəsindəki "Təkzib və təshih" qeydinə baxın.

***Tətil və nümayiş***

"Lazistan": Türkiyədəki etnik qruplardan olan lazların yaşadıkları əraziyə verilən ad; Osmanlı dövlətində Trabzon vilayəti daxilində Lazistan sancağı mövcud olmuşdur. Lazistan sancağının inzibati mərkəzi əvvəllər Batum, Batumun ruslar tərəfindən işğal edilməsindən sonra isə Rizə şəhəri idi.

"Xəlilovlar": general-mayor Mikayıl Xəlilov nəzərdə tutulur.

***"Düşmən gəliyor, məqsədi ifnayi-vətəndir"***

səh. 270. "Düşmən gəliyor, məqsədi ifnayi-vətəndir": "Düşmən gəlir, məqsədi vətəni yox etməkdir".

"Mən nə quyəm ya səməndər baş, ya pərvanə baş / Çon bəfikri-suxtən oftadeyi mərdanə baş": "Mən demirəm səməndər ol, ya pərvanə ol, / Yanmaq fikrinə düşmüsənsə, mərdanə ol!" (farsca)

***Sülh ətrafında***

"Daniels": qəzetdə səhvən "Danielson" getmişdir.

"Exo de Pari" [L'Echo de Paris]: 1884-1944-cü illərdə Parisdə nəşredilmiş gündəlik qəzet.

***Məmləkətimizdə əsgərlik həyatı***

Bu yazı qəzetdə bir çox imla xətaları ilə getmişdir; bunları düzəltdik və hər birini ayrıca qeyd etməyə ehtiyac görmədik.

"şahzadə Süleyman əfəndi mərhumun məxdumi-aliləri Əbdülhəlim əfəndi həzrətləri: Osmanlı sultanı Əbdülməcidin oğlu Süleyman Səlim əfəndi və onun oğlu Məhməd Əbdülhəlim əfəndi nəzərdə tutulur.

"tələbna və cəddəna": "tələb etdik və tapdıq" (ərəbcə)

***Bakı xəbərləri***

"Şah caddəsi": Bakıda, indiki Mirzə Fətəli küçəsi.

"Kraynı Krivoy": Bakıda, indiki Akademik Qarayev küçəsi.

"Birinci Kantepinski": Bakıda, indiki Salatın Əsgərova küçəsi.

***Ziyalılar İttifaqında bir gün***

"müəssisati-rəsmiyyə": qəzetdə "müəssisani-rəsmiyyə" getmişdir.

# Almaniyada ADA Universiteti məzunlarının forumu keçirilib





**ADA Universitetinin xaricdə yaşayan məzunlarının ənənəvi forumu bu il Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində keçirilib.**

AZƏRTAC xəbər verir ki, "Konstitusiya və Suverenlik İli"nə həsr olunan tədbir ADA Universiteti, ADA Universiteti Fondu, Azərbaycanın Almaniyadakı səfirliyi və Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı, "Kolin Azərbaycan" şirkətinin dəstəyi ilə gerçəkləşib. Forum ADA məzunlarını universitetin heyəti ilə bir araya gətirərək müzakirə platforması yaradıb.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev tədbiri açaraq bildirib ki, Berlində ADA Universiteti məzunlarını bir araya gətirən bu forum Azərbaycan gənclərinin qlobal mühitdə qazandıqları bilik və təcrübəni bölüşmələri baxımından xüsusi önəm daşıyır. Bu görüş həm akademik və peşəkar əlaqələrin genişlənməsi, həm də ölkəmizin intellektual potensialının beynəlxalq arenada daha güclü təmsil olunması üçün mühüm platformadır. Məzunlarımızın müxtəlif sahələrdə əldə etdikləri uğurlar ADA Universitetinin yüksək təhsil standartlarının və qlobal düşüncə tərzinin bariz göstəricisidir.

Səfir belə təşəbbüslərin həm Azərbaycan-Almaniya əlaqələrinin möhkəmlənməsinə, həm də məzunlar arasında daha sıx və davamlı əməkdaşlığa töhfə verəcəyinə əminliyini ifadə edib.

ADA Universitetinin prorektoru Günay Ziyadova universitetin yenilikləri və yaxın illərdə nəzərdə tutulan istiqamətlər barədə təqdimatla çıxış edərək ətraflı məlumat verib. O, ADA-nın təhsil və innovasiya sahəsində davamlı inkişaf etdiyini, bu prosesin isə məzun şəbəkəsi ilə daha da gücləndiyini vurğulayıb.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev forumda əsas məruzəçi kimi çıxış edərək məzunların Azərbaycandan uzaqda olmalarına baxmayaraq, ölkəyə və universitetə bağlı qalmalarının vacibliyini vurğulayıb, onları müxtəlif layihələrdə daha fəal əməkdaşlığa çağırıb. Rektor bu əməkdaşlığın həm universitet, həm də məzunlar üçün yeni imkanlar açacağını bildirib.

Sonra ADA Universitetinin Məzunlarla iş şöbəsinin nümayəndəsi Zöhrə Əsədovanın moderatorluq etdiyi panel iclasında universitetin məzunları Maşdı Əliyev, Fidan Eminli, Sabirə İmrani, Aydın Cavadov və Cəmilə Talıbzadə müzakirələr aparıblar. Çıxış edənlər təhsil və iş təcrübələrindən, ADA məzunlarının müxtəlif sahələrdə yaratdığı nümunələrdən danışıblar. Müzakirələrdə forum iştirakçıları, həmçinin mövcud və gələcək trendlər, yeni çağırışlar və imkanlar ətrafında fikir mübadiləsi aparıblar.

ADA Universiteti məzunlarının forumları ənənə halını alıb və hər il dünyanın müxtəlif ölkələrində məzunları bir araya gətirir. Bu görüşlər qlobal ADA məzun şəbəkəsinin daha sıx əlaqə qurmasına, birgə fəaliyyət və əməkdaşlıq istiqamətlərinin formalaşmasına töhfə verir.

# IDEA məktəblilər üçün Ekopark İnnovasiya Mərkəzinə ekskursiya təşkil edib




**IDEA İctimai Birliyinin təşəbbüsü ilə müxtəlif orta məktəbləri təmsil edən 100-dən çox şagird EKOL-un Ekopark İnnovasiya Mərkəzində ekskursiyada olub.**

IDEA İctimai Birliyindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə şagirdlər üçün ətraf mühitin qorunmasının əhəmiyyəti və ekoparkda təhlükəsizlik qaydalarına dair infosessiya keçirilib. Daha sonra onlar park ərazisində həm əyləncəli, həm də maarifləndirici ekskursiyada iştirak ediblər.

Ekskursiya çərçivəsində məktəblilər ətraf mühitin mühafizəsi, sənaye tullantılarının idarə olunması, bu istiqamətdə görülən işlər, rekultivasiya prosesi, abadlaşdırma və digər innovativ layihələrlə tanış olublar. Sonda isə şagirdlər dibçəklərə ting və güllər əkərək təbiətin yaşıllaşdırılmasına öz töhfələrini veriblər.

IDEA İctimai Birliyi planetimizin mühafizəsində gələcək nəsillərin, xüsusən də uşaqların rolunu nəzərə alaraq, onların bu sahədə maarifləndirilməsi, ekoloji dünyagörüşünün formalaşdırılması və yaradıcı ideyalarının reallaşdırılması məqsədilə mütəmadi olaraq müxtəlif layihələr həyata keçirir.

Azərbaycanı tanıdanlar

# ABŞ səhiyyəsində Azərbaycan imzası

## I Qarabağ savaşı zamanı hərbi hissədə cərrah olmuş həmyerlimiz indi okeanın o tayında tanınmış transplantoloqdur

***Dünyanın müxtəlif ölkələrində çalışan azərbaycanlı həkimlərin uğurları xalqımızın elmə və təhsilə bağlılığını göstərir. Bu uğurların parlaq nümunələrindən biri də ABŞ-də tibb sahəsində böyük nüfuz qazanmış tibb üzrə fəlsəfə doktoru, Virciniya Universiteti Xəstəxanasının həkimi və Azərbaycan-Amerika Tibb Assosiasiyasının rəhbəri Rauf Şahbazovdur. Ona son illər Nyu Yorkda yaradılan Transplantologiya cərrahiyyəsi şöbəsinə rəhbərlik etmək də etibar olunub.***

***Dr.Rauf Şahbazov Amerika Cərrahlar Kollecinin və Avropa Cərrahiyyə Şurasının, həmçinin Amerika Transplant Cərrahlar Cəmiyyəti və Amerika Tibb Assosiasiyasının üzvüdür. O, elmi jurnallarda onlarca nəşrin, eləcə də "Transplantasiya cərrahiyyəsi" kitabında canlı donor qaraciyər transplantasiyası haqqında fəslin müəllifidir. Belə geniş təcrübə və uğurlar fonunda həmyerlimizi daha yaxından tanımaq, gördüyü işlər və tibb sahəsindəki yenilikləri öyrənmək üçün müasir İKT-nin imkanlarından istifadə edib onunla həmsöhbət olduq.***



*- Tibbi karyeranıza necə başlamısınız və transplantasiya cərrahiyyəsini seçməyinizə nə səbəb olub?*

- Tibb Universitetini bitirdiyim dövrdə ölkə 90-cı illərin çətinliklərini yaşayırdı. Müharibə gedirdi və mən həkim kimi daha çox fayda verə biləcəyim sahəyə yönəlmək istəyirdim. Universitetə daxil olduğum gündən cərrahiyyə ixtisasını seçəcəyimə qərar vermişdim. Transplantasiya cərrahı olmaq isə uşaqlıq arzum idi. Lakin o vaxt bu, mənə sadəcə bir xəyal kimi görünürdü. İnsanların həyatını xilas etmək, həyat keyfiyyətini nəzərəçarpacaq dərəcədə yaxşılaşdırmaq imkanları transplantasiyanı mənim üçün xüsusi və təsirli edirdi. Ümumi cərrahiyyə, qaraciyər və pankreas cərrahiyyəsində təcrübə qazandıqca bu arzuma özüm də fərqinə varmadan çox yaxınlaşdım.

*- Bəs necə oldu ki, yolunuz ölkələri aşaraq okeanın o tayına düşdü? Bu yolda sizi motivasiya edən nə idi?*

- Tibb təhsilinə başladığım ilk illərdən öyrənmək, elmi araşdırmalarda iştirak etmək və daha bacarıqlı həkim olmaq arzusu məni ABŞ-yə cəlb etdi. Uşaq yaşlarımdan ABŞ-də elmin daha yüksək səviyyədə olduğunu, innovasiyanın məhz buradan yayıldığını oxuyub öyrənmişdim. Tibb sahəsində addımlar atdıqca bu istəyim daha da gücləndi. 2006-cı və 2011-ci illərdəki qısa səfərlərim isə, burada mövcud olan tibbi mühiti yaxından görməyim məndə planlarımın reallaşa biləcəyinə əminlik yaratdı.

*- ABŞ-yə dəvət almağınız necə baş verdi və bu qərarı qəbul etməyinizə nə təsir etdi?*

- 2011-ci ildə Amerika Cərrahlar Kollecinin beynəlxalq mükafatına layiq görülərək Klivlend, Los-Anceles və Dallasda yerləşən üç nüfuzlu klinikada təlim keçdim. Dallasdakı Beylor xəstəxanasında olarkən mənə pankreas adacıq hüceyrələrinin transplantasiyası sahəsində çalışmağı təklif etdilər. Bu sahə məndə böyük maraq yaratdı. Bakıya qayıtdıqdan sonra ailəmlə məsləhətləşərək 2012-ci ildə ABŞ-yə köçmək qərarını verdik və beləliklə, Amerika hekayəmiz başladı.

*- Amerikaya getməzdən əvvəl Azərbaycan, Səudiyyə Ərəbistanı və Türkiyədə çalışmısınız. Bu ölkələrin cərrahiyyə sahələrində hansı fərqləri müşahidə etmisiniz?*

- Həmin ölkələrdə çalışdığım illər ərzində cərrahiyyə xidmətlərinin təşkili baxımından müəyyən fərqlər müşahidə etmişəm. Oxşar cəhət isə insanın dəyərinə verilən önəm və ona maksimum kömək etmək prinsipidir. Azərbaycan hələ də sovet dövründən qalan bəzi struktur problemlərini aradan qaldırmaq mərhələsindədir. Üstün tərəfi həkim qəbullarına nisbətən daha sürətli düşməkdir. Səudiyyə Ərəbistanında uzun müddət tibb xidmətlərini əsasən xarici mütəxəssislər həyata keçirsə də, son illər yerli mütəxəssislərin rolu artmaqdadır. Əksər cərrahi xidmətlər dövlət tərəfindən maliyyələşdirilir. ABŞ-də tibb sistemi əsasən sığortaya bağlıdır. Bəzi xidmətlərin çox bahalı olması tibbi yardımın əlçatanlığını çətinləşdirir. Türkiyədə isə tibb xidmətinin həm əlçatanlıq, həm də keyfiyyət baxımından yüksək səviyyədə olduğunu demək olar. Əhalinin böyük hissəsi cərrahi xidmətlərdən rahatlıqla yararlanır.



*- Albani Tibb Mərkəzində yeni Transplantasiya şöbəsinin qurulması prosesi necə oldu?*

- Albani Tibb Mərkəzi Nyu York ştatının paytaxtında yerləşir və geniş əhali qrupuna xidmət göstərir. Məndən əvvəl burada çox tanınmış cərrahlar çalışmışdılar. Şöbənin rəhbəri təyin olunanda əsas məqsədim transplantasiyanın modernləşdirilməsi, xidmətin daha əlçatan olması və robotik cərrahiyyə, süni intellekt kimi müasir texnologiyaların tətbiqi ilə nəticələrin yaxşılaşdırılması idi. Planlı şəkildə görülən işlərin nəticəsində həm kəmiyyət, həm də keyfiyyət baxımından böyük irəliləyiş əldə edildi. Bu gün mərkəzimiz xəstə və orqan sağ qalımı göstəricilərinə görə ən yüksək səviyyədədir.

*- Qaraciyər, böyrək, pankreas transplantasiyalarında global trendlər hansılardır?*

- Hazırda ən önəmli trendlər orqanların daha keyfiyyətli qorunması, müasir perfuziya texnologiyaları, süni orqanların hazırlanması, 3D bioprinting, CRISPR kimi genetik mühəndislik üsulları və heyvan orqanlarının insana köçürülməsi istiqamətində aparılan tədqiqatlardır. Bu sahələr sürətlə inkişaf edir və gələcəkdə klinik praktikaya geniş şəkildə daxil olacaq.

*- Donor çatışmazlığı probleminin həlli üçün dünyada hansı yenilikçi yanaşmalar mövcuddur?*

- Müasir normotermik və hipotermik perfuziya sistemləri sayəsində donor orqanların daha təhlükəsiz və uzun müddət saxlanılması mümkündür. Eyni zamanda ksenotransplantasiya, süni və 3D-print orqanların hazırlanması kimi istiqamətlər gələcəkdə donor çatışmazlığının həllinə böyük töhfə verəcək. Maarifləndirmə proqramları da canlı donorluğun artmasında mühüm rol oynayır.

*- Müxtəlif ölkələrin səhiyyə modellərini müqayisə etsəniz, transplantasiya sahəsində hansı model daha effektlidir?*

- Hazırda transplantasiya sahəsində ən aparıcı və innovativ model ABŞ-də mövcuddur. Bununla yanaşı, Türkiyə və Cənubi Koreya kimi ölkələrin canlı donor transplantasiyalarındakı uğurları da xüsusi qeyd edilməlidir.

*- Süni orqanlar, 3D bioprinting və gen mühəndisliyi yaxın illərdə transplantologiyanı necə dəyişəcək?*

- Artıq ABŞ-də bu sahələrdə ilkin klinik addımlar atılıb. Yaxın illərdə bu texnologiyaların klinik praktikada geniş tətbiqinin şahidi olacağıq. Bu, donor çatışmazlığı problemini ciddi şəkildə yüngülləşdirəcək.

*- ABŞ və Azərbaycan səhiyyə sistemləri arasında oxşar və fərqli cəhətlər hansılardır?*

- Oxşar cəhət odur ki, hər iki ölkədə insan amili əsas prioritetdir. Fərqli tərəflər isə ölkələrin siyasi-iqtisadi strukturlarından qaynaqlanır. ABŞ-də tibb sistemi kapitalist çərçivəyə əsaslansa da, son illər xidmətlərin əlçatanlığını artırmaq istiqamətində ciddi addımlar atılır.

*- Cərrah-transplantoloq olmaq böyük psixoloji yükdür. Bu yükü necə idarə edirsiniz?*

- Asan deyil. Ancaq işimin insanlara fayda verdiyini görmək, onların həyatına müsbət təsir göstərə bilmək imkanı mənə güc verir. Səbir və peşəmə olan inam bu yolda məni daim motivasiya edir.

*- Heç vaxt unuda bilməyəcəyiniz və sizi çox təsirləndirən pasiyent hekayəsi varmı?*

- Robotik texnika ilə canlı donor nefroektomiyası icra edən cərrah kimi hər əməliyyatın məsuliyyəti çox böyükdür. Çünki bu insanlar öz orqanlarını yalnız başqasına kömək etmək üçün bağışlayırlar. Bir dəfə 76 yaşlı bir şəxsdə böyrək donor əməliyyatı icra etmişdim. İki həftə sonra kontrol müayinəsinə gələndə mənə qaraciyərini də bağışlamağa hazır olduğunu bildirdi. Bu, fədakarlığın və insanlığa xidmət hissinin ən təsirli nümunələrindən biri idi.

*- Azərbaycanda transplantasiya cərrahlarının hazırlanması hansı istiqamətlərdə inkişaf etdirilə bilər?*

- Rezidentura və dar ixtisaslaşma proqramlarında transplantasiya əməliyyatlarının icrası təmin edilməlidir. Transplantologiyanın inkişafı ölkənin səhiyyə strategiyasında prioritet istiqamət kimi müəyyənləşdirilməlidir. Yalnız bu halda yüksəksəviyyəli kadr yetişdirmək mümkün olacaq.

*- Gələcəkdə Azərbaycanda transplantasiya mərkəzi yaratmaq kimi bir arzunuz varmı?*

- Bəli, çoxdan belə bir arzum var. Düşünürəm ki, Azərbaycanda müasir tələblərə cavab verən xüsusi transplantasiya mərkəzlərinin yaradılmasına ciddi ehtiyac var. Belə bir çağırış olsa, bu prosesi həyata keçirməyə hazıram.

*- Peşəkar uğur və şəxsi həyat arasında balansı necə qoruyursunuz?*

- Açığı, bu balansı qorumaq asan deyil. Peşəm çox vaxt tələb edir, amma qalan vaxtımı ailəmə həsr etməyə çalışıram.

*- Ailə demişkən, bu mövzuya da toxunmaq istərdik.*

- Həyat yoldaşım da həkimdir. İki qızımız var. Böyük qızım Nigar İT üzrə kollecdə təhsil alır, Aydan isə bu il orta məktəbi bitirəcək, hüquq sahəsində ali təhsil almaq arzusundadır. Yeri gəlmişkən, Aydanı iki il əvvəl doğma Qubadlıya aparmışdım. Döndükdən sonra maraqlı bir yazı hazırlamışdı. Məktəbdə yazdığı inşaya belə ad qoymuşdu: "Qubadlıya səfər: azad edilən torpaqlarla bağ quran gənc bir ruhun duyğuları". Yazıda heç görmədiyi, ilk dəfə ayaq basdığı ata yurdunda keçirdiyi hisslərdən, iç dünyasında baş qaldıran Vətən duyğusundan, ruhi yaddaşdan söz açmışdı. Yazı belə bitir: "Bu qısa səfər daxilimdə bir dəyişiklik yaratdı. Darvazadan içəri girəndə bu yerin mənim bir hissəm olduğuna əmin deyildim. Amma çıxanda bilirdim - Qubadlı bir parçamdır və bu bağlılıq həmişə içimdə yaşayacaq". Özümə gəlincə, orta təhsilimi 1970-ci ildə doğulduğum Qubadlının Taroğlu kəndində almışam. Sonra Bakıya köçərək orta məktəbin son iki ilini 5 saylı Kimya-Biologiya Təmayüllü Liseydə tamamladım. Məktəbi bitirdikdən sonra qəbul olduğum Azərbaycan Tibb Universitetində ümumi cərrah ixtisasına yiyələndim. Qısa müddət 5 saylı Klinik Xəstəxanada fəaliyyət göstərdim. 3 il cəbhə bölgəsində yerləşən "N" saylı hərbi hissədə ümumi cərrah kimi çalışdım. Hərbi xidməti başa vurduqdan sonra fəaliyyətimi Səudiyyə Ərəbistanında davam etdirdim. Burada Böyük Britaniyanın Edinburq Kral Cərrahiyyə Kollecinin təlim və imtahanlarını uğurla tamamlayaraq ümumi cərrah diplomu aldım. Daha sonra Türkiyənin Başkənt Universitetində transplantasiya cərrahiyyəsi üzrə ixtisasımı artırdım. Azərbaycanda bu sahədə bir müddət fəaliyyət göstərdim. 2012-ci ildən isə ABŞ-də çalışıram.

*- Bu bioqrafik xronologiyanın davamı Qarabağ və Şərqi Zəngəzurun, o cümlədən ata yurdunuz Qubadlının azad edilməsidir. Həmin xəbəri eşidəndə hansı hissləri yaşadınız?*

- 2020-ci ildə 44 günlük Vətən müharibəsi başlayandan hər xəbəri yaxından izləyirdik. Şəhər və kəndlərimizin işğaldan azad edilməsi həyatımın ən unudulmaz anları idi. Doğulub boya-başa çatdığım Qubadlının azad edilməsi isə bu sevincin ən yüksək zirvəsi oldu. Həmin hissləri sözlə ifadə etmək çox çətindir.

*- Dünya azərbaycanlılarının Şuşada keçirilən V (Zəfər) Qurultayının nümayəndəsi olmusunuz...*

- Həmin qurultayda iştirakım həyatımın ən qürurlu günlərindən biridir. Bu, qalib xalq kimi Şuşa zirvəsində birliyimizin simvolu idi. Dünyanın müxtəlif ölkələrindən gələn azərbaycanlılarla ünsiyyət qurmaq, sevinci paylaşmaq möhtəşəm bir hiss idi. Fürsətdən istifadə edərək bizə bu zəfəri yaşadan bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı diləyirəm. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevə təşəkkürümü çatdırır və fəaliyyətində yeni uğurlar arzulayıram.

***Müsahibəni hazırladı:***
***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Ümumdünya QİÇS-lə Mübarizə Gününə həsr olunmuş konfrans keçirilib

**Dekabrın 1-də Səhiyyə Nazirliyinin dəstəyi ilə Respublika QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən 1 Dekabr - Ümumdünya QİÇS-lə Mübarizə Gününə həsr olunmuş konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən səhiyyə nazirinin müavini Nadir Zeynalovun sözlərinə görə, QİÇS təhlükəli ölümlə nəticələnə bilən pandemik infeksion xəstəlikdir. Hazırda dünyada 38-39 milyon insan İİV-lə yaşayır. Dünyada elə bir ölkə yoxdur ki, orada İİV virusu olmasın.

Nazir müavini bildirib ki, xəstəliyin aşkarlandığı 40 il ərzində onun diaqnostikası, müalicəsi və profilaktikasında böyük nailiyyətlər əldə olunub: "Əgər əvvəllər QİÇS-in effektiv müalicəsi yox idisə, diaqnostikası bahalı və uzun müddət tələb edən prosedur idisə, o zamanlar QİÇS-dən əziyyət çəkən, o cümlədən İİV aşkarlanan xəstə sanki təxirə salınmış ölüm hökmünə məhkum olunurdusa, bu gün həmin virusun sürətli aşkarlanmasının ucuz müayinə üsulları mövcuddur. Bunun əsasında qurulmuş skrininq müayinələr aparılır, bundan başqa, QİÇS-in effektiv müalicə üsulu var. Müasir müalicə üsulları, dərmanlarla İİV olan şəxslərdə həmin virusun orqanizmdə səviyyəsini çox aşağı səviyyəyə endirmək mümkündür. Nəticədə bu virus həmin şəxsdə hətta müayinə üsulları ilə tapılmır. Həmçinin başqa insan üçün yoluxduruculuq qabiliyyəti olmur. Bu, böyük bir nailiyyətdir. Lakin hələlik QİÇS-in sağalma ilə nəticələnən müalicəsi yoxdur".

"Ölkədə İİV/QİÇS-lə bağlı cari vəziyyət və qarşıda duran hədəflər" barədə təqdimatla çıxış edən Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktoru Famil Məmmədov bildirib ki, İİV/QİÇS-ə qarşı aparılan mübarizə tədbirlərinə baxmayaraq, onun dünyada, xüsusən də Şərqi Avropa və Mərkəzi Asiya regionunda yayılması davam etməkdədir. Azərbaycanda həmin infeksiya əsasən yoluxmaya yüksək risk qrupu təşkil edən şəxslər arasında yayılıb. Ölkəmiz Şərqi Avropa və Mərkəzi Asiya regionunda xəstəliyin yayılma göstəricilərinə görə aşağı olan ölkələrdəndir.

"Bu ilin ötən dövrü ərzində İİV-ə yeni yoluxma hallarının sayı 1130 nəfər təşkil edib ki, onlardan 1109 nəfəri (98 faizi) Azərbaycan vətəndaşları olub. İİV-ə yoluxmuş Azərbaycan vətəndaşlarının 74,3 faizini kişilər, 25,7 faizini isə qadınlar təşkil edib. Həmin dövr ərzində 71 nəfər QİÇS mərhələsinə keçib, 20 nəfər isə İİV infeksiyasından dünyasını dəyişib. Azərbaycanda ilk dəfə İİV infeksiyasının aşkar edildiyi 1987-ci ildən 2025-ci ilin noyabr ayının sonuna kimi Respublika QİÇS-lə Mübarizə Mərkəzində 11 min 413 Azərbaycan vətəndaşı rəsmi qeydiyyatdadır. Onlardan 71,6 faizini kişilər, 28,4 faizini qadınlar təşkil edir. Ümumilikdə həmin dövr ərzində İİV infeksiyasından dünyasını dəyişənlərin sayı isə 1540 nəfər olub. Respublika QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən qeydiyyata götürülən ölkə vətəndaşlarından 28,2 faizində İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində, 60,3 faizində heteroseksual, 6,3 faizində homoseksual kontakt nəticəsində olub, 1,3 faizində anadan uşağa keçib, 3,9 faizində isə yoluxma yolu müəyyən edilməyib", - deyə F.Məmmədov qeyd edib.

TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva hazırda İİV/QİÇS-lə bağlı ən böyük problemin stiqma və diskriminasiya olduğunu diqqətə çatdırıb: "Müalicə istiqamətində biz hələ də bu problemləri yaşayırıq. Stiqma və diskriminasiya ilə mübarizədə maariflənmənin rolu çox böyükdür. Maarifləndirmə dedikdə daha çox əhalini nəzərdə tuturuq. Əsas məsələ odur ki, tibb müəssisələrində tibb işçiləri, hətta həkimlər arasında İİV/QİÇS-lə bağlı ciddi maarifləndirməyə ehtiyac var. Bu istiqamətdə QİÇS-lə Mübarizə Mərkəzi ilə əməkdaşlıq edirik. Biz TƏBİB olaraq tibb müəssisələrində infeksion nəzarətin qurulması istiqamətində son beş il ərzində çox böyük işlər görmüşük. İnfeksion nəzarət sisteminin qurulması təkcə İİV deyil, digər infeksion xəstəliklərin də yayılmasının qarşısının alınmasında çox böyük bir sistemdir".

Tədbirdə çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin üzvləri, deputatlar - Soltan Məmmədov, Müşfiq Məmmədli və Pərvanə Vəliyeva səhiyyə sahəsinə ayrılan büdcə, QİÇS-lə bağlı qanunvericilik, xəstəliklə mübarizədə aparılan düzgün strategiyadan bəhs edib, beynəlxalq təcrübə və tövsiyələrə əsaslanan tədbirlərin, görülən işlərin öz müsbət nəticəsini verdiyini diqqətə çatdırıblar. Bildirilib ki, region ölkələrinə bir nümunə olan Azərbaycanda QİÇS-lə bağlı epidemioloji vəziyyət başqa ölkələrdən fərqli olaraq daha yaxşıdır.

Daha sonra Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktor müavini Günəş Cəfərova İİV infeksiyası ilə bağlı mobil tətbiqin təqdimatını edib. AIDS-lə Mübarizə İctimai Birliyinin sədri Nofəl Şərifovun "Azərbaycanda vətəndaş cəmiyyəti təşkilatlarının İİV/QİÇS-lə mübarizədə rolu" mövzusunda məruzəsi dinlənilib.

Tədbir mövzular ətrafında müzakirələrlə davam edib.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Florida danışıqları: ABŞ və Ukrayna irəliləyiş olduğunu qeyd edirlər

**Bazar günü Floridada ABŞ və Ukrayna rəsmiləri Vaşinqtonun müharibəyə son qoymaq planı ilə bağlı hər iki tərəfin məhsuldar danışıqlar apardığını bildiriblər. Dörd saat sonra ABŞ və Ukrayna rəsmiləri Rusiya ilə sülh müqaviləsini müzakirə etdikləri və onun bəzi müddəalarını yenidən nəzərdən keçirməyə çalışdıqları konfrans zalını tərk ediblər.**



Yerli medianın məlumatına görə, diplomatlar seçkilərin vaxtı və ərazi mübadiləsinin mümkünlüyünü müzakirə ediblər. Lakin onlar heç bir detal açıqlamayıblar. ABŞ Dövlət katibi Marko Rubio jurnalistlərə bildirib ki, görüş məhsuldar keçib, lakin sülh müqaviləsinə nail olmaq üçün hələ çox iş görülməlidir. Onun sözlərinə görə, məqsəd "təkcə müharibəyə son qoymaq deyil, həm də Ukraynanın suverenliyini və müstəqilliyini qorumaq və onun uzunmüddətli rifahını təmin etməkdir".

Ukrayna nümayəndə heyətinin rəhbəri, Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov da "ləyaqətli sülhə nail olmaqda və Kiyevlə Vaşinqton arasında yaxınlaşmada irəliləyiş" olduğunu qeyd edib. O, dəstəyə görə ABŞ-yə təşəkkürünü bildirib: "Amerika Birləşmiş Ştatları bizi eşidir, dəstəkləyir və bizimlə birlikdə işləyir". Müşahidəçilərin fikrincə, onun sözləri əvvəllər Ukraynanı yetərincə minnətdarlıq etməməkdə günahlandıran ABŞ Prezidenti Donald Trampa ünvanlanıb.

Rüstəm Umerov Prezident Volodimir Zelenski ilə daim əlaqədə olduğunu və danışıqların məqsədinin ölkə üçün uzunmüddətli təhlükəsizlik zəmanətlərini təmin etmək olduğunu vurğulayıb: "Məqsədimiz çiçəklənən, güclü Ukraynadır. Biz bütün vacib məsələləri müzakirə etdik və ABŞ bizə böyük dəstək göstərdi."

Bu arada bildirilib ki, ABŞ Prezidentinin xüsusi elçiləri Stiv Uitkoff və Cared Kuşner dekabrın 2-də günün ikinci yarısında Moskvada Rusiya lideri Vladimir Putinlə görüşəcəklər.

Son məlumata görə, Ukrayna Prezidenti Volodimir Zelenski isə Parisdə Fransa Prezidenti Emmanuel Makronla artıq görüşüb. BFMTV telekanalının xəbərinə görə, iki lider "ədalətli və davamlı sülh üçün vəziyyət və şərtlər"i müzakirə ediblər.

"Bu həftə diplomatiya üçün dönüş nöqtəsi ola bilər. Dünən Amerikada keçirilən danışıqların çətin, lakin məhsuldar olduğunu eşitdik. Hələ nəticələrini bilmirik, amma Ukraynanın müdafiə naziri və xarici işlər naziri ilə danışacağam", - deyə Avropa İttifaqının Ali Nümayəndəsi Kaya Kallas Aİ müdafiə nazirləri ilə görüşdən əvvəl bildirib. O, "Rusiyanın sülh istəmədiyinə və buna görə də Ukraynanın bu çox çətin dövrdə özünü müdafiə edə bilməsi üçün mümkün qədər güclü olması zərurətinə" inandığını bir daha təkrarlayıb.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Ağciyərin səssiz qatili

**Xroniki Obstruktiv Ağciyər Xəstəliyi (XOAX) artıq təkcə tibbi termin deyil, milyonlarla insanın həyatını alt-üst edən, ailələri sarsıdan, iş qabiliyyətini azaldan və vaxtından əvvəl ölümlərə yol açan qlobal bir təhlükədir. Statistikalar bu təhlükənin miqyasını açıq şəkildə göstərir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünyada hər 8 saniyədə bir insan XOAX-dan həyatını itirir. Bu gün dünyada 40 yaşdan yuxarı insanların təxminən 10 faizi ağciyər xəstəliyindən əziyyət çəkir. 2050-ci ilə qədər isə xəstələrin sayının 600 milyona çatacağı proqnozlaşdırılır. Dünyada üçüncü əsas ölüm səbəbi kimi qeydə alınan xəstəliklə bağlı vəziyyət xüsusilə siqaret istifadəsinin geniş yayıldığı ölkələrdə daha dramatikdir.**

Tədqiqatlar göstərir ki, XOAX illər ərzində gizlicə irəliləyir, ilkin əlamətlər çox zaman "siqaretin təsiri", "yaşın gətirdiyi yorğunluq" kimi qəbul edilir və beləliklə, xəstəlik məkrli şəkildə güclənir. Ağciyər funksiyasını sürətlə azaldan xəstəlik həyat keyfiyyətini təkcə fiziki olaraq deyil, psixoloji olaraq da zəiflədir. Nəfəs darlığı, adi hərəkət zamanı çətinlik, gücsüzlük, bəlğəm, öskürək və yorğunluq - bütün bunlar xəstənin gündəlik həyatını alt-üst edir. Bu mübarizədə ən böyük silah isə yalnız müalicə deyil, eyni zamanda maariflənmə, vaxtında diaqnoz qoyulması və həyat tərzi dəyişiklikləridir.

### Xəstəliyin əlamətləri: öskürək, təngnəfəslik, yorulma

Üç aydan çox davam edən öskürək, səhərlər artan bəlğəm, pilləkən qalxarkən nəfəsin çatmaması, tez-tez yorulma, sinə sıxılması və xırıltı Xroniki Obstruktiv Ağciyər Xəstəliyinin ilk əlamətləri olsa da, çox vaxt ciddi qəbul edilib nəzərə alınmır. Bu simptomlar adi soyuqlama və ya yaşlanmanın nəticəsi kimi qiymətləndirildiyi üçün xəstəlik irəliləyir, ağciyərin elastikliyi azalır və nəfəs yolları geri dönüşü olmayan şəkildə daralır. Nəticədə oksigen terapiyasına, xüsusi nəfəs cihazlarına və həkim nəzarətinə ehtiyac yaranır.

Tütün məmulatları, elektron siqaret və nargilə tənəffüs yollarının daimi zədələnməsinə səbəb olur. Xroniki Obstruktiv Ağciyər xəstələrinin təxminən 80 faizi siqaret çəkənlər və ya uzun müddət passiv tüstüyə məruz qalanlardır. Lakin təhlükə təkcə tütündən ibarət deyil. Mütəxəssislər bildirirlər ki, XOAX-ın yaranmasına səbəb olan faktorlardan bəziləri toplum tərəfindən çox vaxt nəzərə alınmır. Xüsusən böyük şəhərlərdə zərərli qazlar və sənaye tullantıları ağciyərlərin dərin qatlarına qədər gedərək uzunmüddətli iltihab yaradır. Tikinti, mədən, metal, kimya, tekstil, boya sexləri, çörək zavodları kimi yerlərdə toz və kimyəvi maddələrə məruz qalmaq xəstəlik riskini qat-qat artırır. Bu sahələrdə işləyən minlərlə insan heç bir simptom hiss etmədən xəstəliyin toxumalarını illərlə özündə daşıyır. Kənd yerlərində odun, kömür və ya digər yanacaq növlərinin istifadəsi zamanı qapalı mühitdə yaranan tüstü də ağciyərlərdə mikro səviyyədə zədələnmələr yaradır.

Uşaqlıqda tez-tez bronxit, sətəlcəm keçirənlər, aşağı çəki ilə doğulanlar və inkişaf dövründə tənəffüs yolu infeksiyalarına məruz qalanlar risk qrupuna daxildirlər. "Alfa-1 antitripsin çatışmazlığı" adlı nadir genetik pozğunluq siqaret çəkməyən insanlarda belə XOAX-ın yaranmasına səbəb ola bilər. Son illərdə artan allergik rinit, astma, atopik dermatit kimi xəstəliklər də Xroniki Obstruktiv Ağciyər Xəstəliyinin inkişafını sürətləndirə bilər. Sadalanan bütün bu risk faktorları bir araya gələndə XOAX artıq sadəcə ağciyər problemi olmur - o, cəmiyyətin həyat tərzi ilə birbaşa bağlı olan genişmiqyaslı bir sağlamlıq böhranına çevrilir.

### Erkən mərhələdə aşkarlanarsa...

XOAX xroniki bir xəstəlik olsa da, onunla yaşamaq mümkündür. Yetər ki, vaxtında diaqnoz qoyulsun və müalicə düzgün aparılsın. Bu xəstəlikdə ən önəmli addım siqareti tərgitməkdir. Bu addım təkcə xəstəliyin irəliləməsini yavaşlatmır, bəzən ağciyərin zədələnmə sürətini də 50 faizədək azalda bilir.



Mütəxəssislərin fikrincə, xəstəliyin müalicəsində üç əsas istiqamət var. Bunlardan ilki yaşam tərzi dəyişiklikliyidir. Aktiv/passiv siqaret tüstüsündən uzaq durmaq, hava çirkliliyinin yüksək olduğu günlərdə çölə çıxmamaq, tozlu və kimyəvi mühitlərdə xüsusi maskalar taxmaq, rütubətli, soyuq havalarda uzun müddət açıq havada qalmamaq, nizamlı şəkildə nəfəs məşqləri etmək və mütəmadi fiziki aktivlik sizi xəstəliyin ağırlaşmalarından əhəmiyyətli dərəcədə qoruyur. Pulmonoloqlar bildirirlər ki, fiziki aktivlik bu xəstələr üçün adi bir idman proqramından daha artıqdır. O, ağciyərin zədələnməmiş hissəsinin güclənməsi üçün vacibdir. Gündəlik kiçik yürüşlər belə nəfəs darlığını azalda bilir.

Araşdırmalar göstərir ki, qidalanma Xroniki Obstruktiv Ağciyər xəstələrinin vəziyyətinə birbaşa təsir edir. Həddindən artıq çəki nəfəs darlığını artırır, az çəki isə əzələ kütləsini zəiflədir və xəstəliyin gedişatını ağırlaşdırır. Ona görə də zülalla zəngin, təzə meyvə-tərəvəzlərlə balanslaşdırılmış, duzu məhdudlaşdırılmış pəhriz tövsiyə olunur. Bol maye qəbulu bəlğəmin daha rahat xaric olmasına şərait yaradır.

XOAX erkən mərhələdə aşkarlanarsa, xəstənin həyat keyfiyyəti kəskin şəkildə yaxşılaşa bilər. Bunun üçün ən etibarlı test ağciyər funksiyasını ölçən spirometriyadır. Mütəxəssislərin fikrincə, qrip və pnevmoniya peyvəndləri XOAX hücumlarını və xəstəxanaya yerləşdirilmə risklərini əhəmiyyətli dərəcədə azaldır. Hər bir hücum ağciyər funksiyasını bir daha bərpa edilməyəcək şəkildə zəiflədir. Bu səbəbdən profilaktika ən güclü müalicə hesab olunur. Xəstəliyin ən qorxulu tərəfi onun gec aşkarlanmasıdır. Əgər insanlar öskürəyi, bəlğəmi və nəfəs darlığını yaşlanmanın və ya siqaretin adi təsiri kimi qiymətləndirməsələr, xəstəliyin qarşısı daha erkən mərhələdə alına bilər.

Bu gün Xroniki Obstruktiv Ağciyər Xəstəliyi ilə mübarizədə əsas məsuliyyət həm fərdin, həm də cəmiyyətin üzərinə düşür. Siqaretin tərgidilməsi, havanın təmiz saxlanılması, peşə təhlükəsizliyinin təmin edilməsi, vaxtında aparılan müayinələr və maarifləndirici fəaliyyətlər yüz minlərlə insanın həyatını dəyişdirə bilər.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Şirvandakı əmək yarmarkasında 105-dən çox yeni iş yeri təklif edilib



**Şirvan-Salyan Regional Məşğulluq filialının təşkilatçılığı ilə işsiz və işaxtaran şəxslər üçün Şirvan şəhərində əmək yarmarkası keçirilib.**

Yarmarkada şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov, regional məşğulluq filialının müdiri vəzifəsini icra edən Xəqani Məmmədov, adları çəkilən qurumların əməkdaşları, işəgötürənlərin nümayəndələri və şəhər sakinləri iştirak ediblər.

20 işəgötürən tərəfindən 105-dən çox boş iş yerinin təqdim olunduğu yarmarkada vakansiyalara dair tələblər barədə ətraflı məlumat verilib, müraciət edən şəxslərin CV-ləri qəbul edilib, ilkin müsahibələr keçirilərək uyğun namizədlər növbəti mərhələyə dəvət olunublar.

*Seyran CAVADOV, "Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və əməkdaşları iş yoldaşları Qurban Sadıqova anası

**NABAT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov və Amil Novruzov Qurban Sadıqova anası

**NABAT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarov Qurban Sadıqova anası

**NABAT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova bacısı

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Bakı Şəhər Statistika İdarəsinin rəisi Xosrov Əbdürəhmanova anası

**SUSİMA ƏBDÜRƏHMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Zahid Abbasov, Vilayət Əlizadə və Mirhəmid Həmidov

**ZAKİR HİLAL OĞLU ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Xankəndi şəhər prokuroru Rəşadət Orucova anası

**LƏTİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səlim Səlimbəyli, Zakir Orucov, Əfqan Xudaquliyev, Şahsuvar, Elçin və Azər Abdullayevlər, Hacıbaba, Asəf və Rəşad Cəfərovlar, Rafiq Hüseynov, İlqar Misirzadə və Hidayət İsmayılov Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının sektor müdiri Qurban Sadıqova anası

**NABAT HƏBİB QIZI SADIQOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4126
Sifariş 2453

Qiymətı 60 qəpik